

# Baş nazirdən müharibədə zərər vurulan obyektlərlə bağlı SƏRƏNCAM

*Baş nazir Əli Əsədov "2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində dəymiş ziyanın aradan qaldırılması ilə bağlı zərər vurulmuş obyektlərin bərpası və təmir-tikinti işlərinin həyata keçirilməsi ilə bağlı əlavə tədbirlər barədə" sərəncam imzalayıb. Unikal.org-un məlumatına görə, sərəncama əsasən, 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası...*

Səh.2


# UNİKAL

№02 (2040) 15 yanvar 2021-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru




# Vüqar Səfərli 5,8 milyon mənimsədiyinə görə həbs edildi

## Korrupsiya şəbəkəsində iştirak etmiş digər şəxslər də müəyyən edilərək məsuliyyətə cəlb ediləcək

*Ölkəmizdə həyata keçirilən dövlət siyasətinə uyğun olaraq demokratik cəmiyyətin əsas atributlarından olan kütləvi informasiya vasitələrinin inkişafı da daim diqqət mərkəzində saxlanılır. Bununla yanaşı, bu mühüm sahə üzrə dövlətin dəstək siyasətinə öz qanunsuz əməlləri ilə kölgə salan vəzifəli şəxslərin aşkar olunaraq məsuliyyətə cəlb olunması istiqamətində prokurorluq orqanlarının məqsədyönlü və ardıcıl tədbirləri davam etdirilir. Belə tədbirlərdən biri kimi, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna (KİVDF) dövlət büdcəsindən ayrılan vəsaitlərin xərclənməsi zamanı aşkar edilmiş qanun pozuntuları ilə əlaqədar Hesablama Palatasından...*

Səh.3

Səh.6




# Elman Rüstəmov ödəyəcəyi bir milyardı xərcləməyə başladı

## "Yeni bir münaqişəyə cəhd etsələr, Ermənistan daha ağır zərbə alacaq"



*Məlum olduğu kimi, Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüş keçirilib. Görüşün sonunda tərəflər arasında yeni bəyanat imzalandı. Bu və ya digər məsələlərlə bağlı "Unikal" qəzetinə müsahibə verən Milli Məclisin...*

Səh.4

## "Media haqqında" qanunda yeni funksiyalar olacaq" - Əhməd İsmayılov



*"Media haqqında" yeni qanun layihəsinin hazırlanması, müzakirəyə çıxarılması və qəbul edilməsindən sonra həmin qanundan irəli gələn yeni funksiyalar, istiqamətlər müəyyən olunacaq". Bunu Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov deyib. "Agentliyin nizamnaməsində onlayn media...*

Səh.2

## İşğalçı dövlət Azərbaycan mədəniyyətinin bütün izlərinin silinməsi siyasətini aparıb



*Dağlıq Qarabağın Azərbaycan torpaqları olduğu Ermənistanla Azərbaycan arasında münaqişə başlayan gündən dünyaya car çəkilsə də, 27 il idi ki, bir sıra dövlətlər, beynəlxalq təşkilatlar bunu təsdiqləməkdən boyun qaçırırdılar. Dağlıq Qarabağ həqiqətləri Azərbaycanın apardığı uğurlu diplomatik siyasət...*

Səh.15

# Şubasını satan, evini hərraca çıxaran, qazan reklamı edən... - Toy müğənnilərinin karantin faciəsi

***Koronavirus bütün dünyada olduğu kimi Azərbaycanda da səhnə sənətlərinə ciddi zərbə vurdu. Xüsusilə də həyat şəraitini toylardan gələn gəlirlə təmin edən toy müğənniləri üçün vəziyyət lap qəlizdir.***

Toy müğənniləri keçən ilin mart ayından bəri toy səhnəsinə həsrət qalıblar. Məlum məsələdir ki, Azərbaycanda müğənnilər albom satışlarından, rəqəmsal platformalardan gəlir əldə edə bilmirlər. Konsertdən pul qazanmaqdan isə ümumiyyətlə söhbət gedə bilməz. Yəni, vəziyyət belə olduğu zaman musiqidən sırf sənətsal anlamda ciddi gəlir əldə etmək bizim ölkəmizdə mümkün deyil. Odur ki, əksər müğənnilər zamanında sənəti toy səhnələrinə qurban verdilər. Bu gün də sosial şəbəkələrdə ən çox giley-güzar dolu ismarış göndərənlər onlardır.



Musiqi savadı olan, təhsil görən, vaxtında toya çox aludə olmayıb sənəti inkişaf etdirən sənətçilər müəllim, solist olaraq çalışdıqlarından bu gün onlar üçün vəziyyət toy müğənniləri ilə müqayisədə çox da acınacaqlı deyil. Həm də bu adamlar özlərini çox da dəbdəbəli həyata öyrəşdirməyiblər. İki kitab oxuyub, üç filmə baxıblar, həyatı daha effektiv tərəfdən anlayırlar.

Bu günlərdə bəstəkar-müğənni Elza Seyidcahan mövcud vəziyyətə çox yerində bir şərh verdi. O, dedi: "Vaxtında sənəti pula satdılar, indi də acından ölürlər".

Bir qədər sərt səslənsə də, haqlıdır Elza. Ayın 30 günü toy oxuyan, repertuarlarının 80 faizi bəsit mahnılarından ibarət olan müğənnilərin mövcud vəziyyətdən çıxış yolu yoxdur. Zamanında yazdırdıqları "çörək mahnıları" bu gün onlara heç nə qazandırmır. Pandemiyadan əvvəl populyar olan həmin müğənnilər bu gün meydanlarda yoxdur.

Pandemiya əsl ulduzun, əsl sənətkarın kim olduğunu göstərdi. 2020-ci il müğənnilər üçün bir ələk rolunu oynadı. Pandemiya, ardınca da müharibə gündəmi elə zəbt etdi ki, müğənnilərin fotosessiyaları, şəxsi dedi-qoduları ilə gündəmə gəlmək yolunu da bağlanmış oldu.

Müğənnilərin bəziləri İnstaqramda reklamla nəsə qazanmağa çalışırlar. Məsələn, Xatirə İslami İstaqram səhifəsində hansısa firmanın qazan dəstləri, geyim, yaxud kosmetik vasitələrini reklam edən görürük. Meyxana deyən Samirə şubalarını satışa çıxarıb, taksi sürücüsü kimi fəaliyyət göstərir. Evini, bağını satışa çıxaranları da var. Başqa çıxış yolları da yoxdur. Ortada sənət yox, ciddi yaradıcılıq yox.

Fikir verdinizsə, toy müğənnilərinin tez-bazar yazdırıb lentə aldıqları vətənpərvərlik mahnıları da insanların diqqətini cəlb etmədi. Bir neçə il ərzində ildırım sürətilə əldə etdikləri populyarlığı bir neçə ay ərzində itirdilər. Həm gəlir, həm populyarlıq itkisi onları xeyli aqressivləşdirdi. Günaşırı İnstaqram səhifələrində yayımladıqları videolarda hara və kimə gəldi hücum edirlər. Maddi sıxıntının yaratdığı əsəb pozuntusunun qarşısını heç nə ilə ala bilmirlər.

Karantin başlayandan bir neçə ay sonra müğənni Elnarənin İstagram səhhifəsində həkimləri təhqir edən paylaşımını gördük. Düzdür, sonra peşman olub paylaşımını silib üzürxahlıq etdi, amma hər halda həmin ərəfədə sinir partlayışı yaşadığını görmüş olduq.

Nadir Qafarzadə də psixoloji böhranda olduğunu paylaşım və açıqlamalarında büruzə verir. Toyların yoxluğuna uzun müddət dözə bilməyən Mətanət İsgəndərli artıq neçənci dəfədir karantin qaydalarını pozub gizli məclislərə qatıldığı üçün cərimələnir.

Ona görə də əsl müğənninin musiqi təhsili olmalıdır. Bu gün iki tələbə hazırlayıb öz dolanışığını təmin edə bilərdi. Vaxtında bunlara zaman ayırmayan müğənnilərin indiki halda bu qədər şikayət və narazılıq etmələrinin mənası yoxdur. İllərdir toylarda yüksək məbləğdə pul alan savadsız, ciddi sənətə dəxli olmayan toy müğənnilərinin səbirlə oturub yenidən toyların başlanmasını gözləməkdən başqa çarəsi yoxdur.

# "Buna dözmək lazımdır" - Məleykə Əsədova

***"Gündə efirlərdə olsam da, evdə kitablarla, şeirlərlə məşğul olsam da, ikinci evim üçün çox darıxmışam. Az deyil, 31 ildir teatrda 1 gün belə fasilə vermədən çalışmışam".***

Axşam.az xəbər verir ki, bu sözləri Xalq artisti Məleykə Əsədova sosial şəbəkə hesabında yazıb. 9 aydır səhnəyə çıxmayan aktrisa teatr üçün darıxdığını dilə gətirib:

"Teatr bizim ikinci evimizdir. Doğma məkanımızdır! Orada əsrləri fəth edən neçə-neçə insan taleləri yaşayırıq.



Bir insan öz taleyini, Allahın verdiyi ömrü bu keşməkeşli həyatda taleyindən razı, narazı və yaxud da xoşbəxt formada yaşayır. Amma biz aktyorlar səhnədə, neçə-neçə insan talelərini canlandırırıq. Buna dözmək gərəkdir. Orada bəzən bədbəxt, bəzən xoşbəxt talelər yaşayırıq. Xəstəni, kraliçanı, balerinanı, bəzən isə nakam məhəbbətə uğrayan insanı canlandırırıq.

Bəli, bu, aktyor həyatıdır. Kənardan asan görünən, amma əslində həddsiz çətin olan sənətdir. Mükafatı tamaşaçı alqışıdır. Ürəyimizi, həyatımızı səhnəyə qurban verdiyimiz aylar, illər...

8-9 aydır səhnəyə çıxmıram. Bu ilk dəfədir belə olur. Amma bu aylar ərzində boş vaxtım da olmayıb. Çoxlu muxtəlif janrlarda şeirlər hazırlamışam. Obrazlarımız, sənət dostlarım, səhnə işçiləri, ən əsas səhnənin iyi və tozu üçün darıxmışam. Mən səhnə üçün doğulmuşam!".



# "14 yaşımda evdən qaçmışam" - Əməkdar artist

***"Bakıya Yevlaxdan gəlmişəm. Müsabiqə var idi, qalibi oldum. 14 yaşında gəldim Bakıya. Atam savadlı uşaq yetişdirməyə çalışırdı".***

Bu sözləri Əməkdar artist Gülüstan Əliyeva "Onun sirri" proqramında deyib. Müğənni sənətə gəlmək üçün evdən qaçdığını etiraf edib:

"Atam bizi heç yerə buraxmırdı. Məktəbə, musiqiyə özü aparırdı. Müsabiqəyə qəbul olanda anam etiraz etdi. Mən də evdən qaçıb xalamgilə getdim. Deyirdi, kasıb ailəyik, pulumuz yoxdur səni oxutmağa. Amma atamın icazəsi ilə gəldik Bakıya. Müsabiqəyə gələndə pulumuz da yox idi. Atamın dostu pul verdi. Beləcə, oxudum, konservatoriyaya qəbul oldum".

# “Amnesty International” erməni terroru ilə bağlı yeni hesabat yaydı

***“Amnesty International” təşkilatı 44 günlük müharibə zamanı Ermənistanın qadağan olunmuş silahlardan istifadə etməsi nəticəsində mülki şəxslərin qətlə yetirilməsinə dair yeni hesabat yayıb.***

“Unikal” xəbər verir ki, hesabatda Ermənistan silahlı qüvvələri tərəfindən qeyri-dəqiq ballistik raketlərdən, idarəolunmayan çoxsaylı raket sistemlərindən və artilleriya silahlarından istifadə edildiyi bildirilir. Hərbi əməliyyatların dayandırılmasına dair 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın imzalanmasından sonra “Amnesty International”ın ekspertlərinin raket zərbələrinə məruz qalmış bir sıra ərazilərə səfər etdikləri qeyd olunur. Bildirilir ki, həmin ekspertlər vəzifəli şəxslərlə, raket zərbələrindən sağ qalmış insanlarla və həlak olmuş mülki şəxslərin yaxınları ilə görüşüblər. Təşkilatın böhran qrupu raket qalıqlarını təhlil edərək müharibə zamanı çəkilmiş videoları, fotoları və peyk şəkillərini də araşdırıblar.

Diqqətə çatdırılır ki, “Amnesty International” Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın şəhər və kəndlərinə mülki vətəndaşların həlak olması ilə nəticələnən səkkiz raket zərbəsinin endirilməsini sənədləşdirib.

Qeyd edilir ki, Ermənistan silahlı qüvvələrinin oktyabrın 17-də Gəncə şəhərindəki Muxtar Hacıyev küçəsinə endirdiyi “SCUD-B” ballistik raketinin zərbəsi nəticəsində 21 mülki şəxs qətlə yetirilib və 50-dən çox insan yaralanıb. Bu hücum zamanı Südabə Əsgərova adlı şəxsin 15 yaşlı qızı Nigar doğum günündən bir gün əvvəl həlak olub. “O, mənim yeganə övladım idi”, - deyə Südabə Əsgərova “Amnesty International” təşkilatına bildirib.

64 yaşlı Ramiz Qəhrəmanov isə bildirib ki, raket hücumu zamanı onun 34 yaşlı qızı Xatirə, 11 yaşlı nəvəsi Orxan, 6 yaşlı nəvəsi Məryəm və 18 yaşlı nəvəsi Ləman həlak olub.

Hesabatda qeyd edilir ki, Ermənistan silahlı qüvvələri tərəfindən oktyabrın 27-də Bərdə rayonunun Qarayusifli kəndinin müxtəlif istiqamətlərdən kasetli raketlərlə atəşə tutulması nəticəsində evlərə böyük ziyan dəyib və həmin vaxt 5 mülki şəxs qətlə yetirilib, 14 nəfər yaralanıb. Ölənlər arasında həmin vaxt həyətdə oynayan 7 yaşlı Aysu İsgəndərova da olub.

Bildirilir ki, Ermənistan silahlı qüvvələri oktyabrın 28-də cəbhədən 20 kilometrdən çox məsafədə yerləşən Bərdə şəhərini bir neçə iriçaplı raketlərlə atəşə tutub. Atılan raketlərdən üçü şəhərin mərkəzinə, ikisi iki xəstəxananın yaxınlığına düşüb. Üçüncü raket - 72 ədəd qəlpəli təyinatlı 9N235 bombacıqlarından ibarət Rusiya istehsalı olan 9M55 “Smerch” raketinin şəhərin əhalinin sıx yaşadığı yerə düşməsi nəticəsində 21 mülki şəxs həlak olub.

Həmçinin diqqətə çatdırılır ki, münaqişə başladığı gün - sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin Naftalan yaxınlığındakı Qaşaltı kəndinə artilleriya zərbəsi endirməsi nəticəsində Qurbanovlar ailəsinin 5 üzvü həlak olub və yaşadıqları ev dağılıb.

# Bu tarixdən SMS icazə ləğv edilə, metro açıla bilər

***”Nazirlər Kabineti yanında Operativ Qərargah bütün parametrləri qiymətləndirərək, yanvarın 18-dən sonra karantin rejiminin yumşaldılması barədə qərar verə bilər”.***

Unikal.org xəbər verir ki, bunu Modern.az-a açıqlamasında Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirib.

M.Quliyevin sözlərinə görə, karantinin yumşaldılmasına getmək üçün kifayət qədər əsaslar var:

”Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarı ilə ötən ilin dekarından tətbiq edilən sərtləşdirilmiş karantin kifayət qədər effekt verdi. Yoluxma və ölüm sayında əhəmiyyətli azalma müşahidə edilir. Təbii ki, buna vətəndaşların qaydalara ciddi riayət etməsilə nail olundu. Vətəndaşlarımız problemin ağırlığını dərk edir və məsuliyyət nümayiş etdirirlər. Göstəricilər yaxşıdır, həm yoluxma, həm də virusdan ölüm sayı azalıb. Ona görə yumşalmaya gedilməlidir. Amma bu o demək deyil ki, virus bitdi. Hətta vaksinasiyadan bir müddət sonra da tibbi maskadan istifadə labüd hesab edilir, həmçinin gigiyenik qaydalara riayət şərtdir”.

Komitə sədri praktikada olduğu kimi yumşalmanın mərhələli şəkildə həyata keçirilməsinin vacibliyini vurğulayıb: ”Hansı qərarlar veriləcək, bunlar rəsmilər tərəfindən açılanacaq. Amma hesab edirəm ki, SMS icazə ləğv edilə bilər, bəzi sahələrdə iş bərpa oluna bilər, metro açıla bilər. Bütövlükdə siyahını Operativ Qərargahın üzvləri müəyyən edir. İlkin olaraq, hansı qərarlar veriləcək, hansı sahələrdə fəaliyyət bərpa olunacaq, bunu yalnız Operativ Qərargah açıqlayacaq”.

# Emin Əmirullayev və komandasına dərsliklərlə bağlı xatırlatma

## Mükəmməl təhsil mükəmməl dərsliklərsiz mümkün deyil; mükəmməl dərslikləri isə rəqabət ortaya çıxara bilər

***Yola salmaq üzrə olduğumuz həftə Təhsil nazirinin müavini Firudin Qurbanov maraqlı açıqlama verdi. O bildirdi ki, Vətən müharibəsinin nəticələri nəzərə alınmaqla, təhsilin məzmununda müvafiq korrektə və düzəlişlər aparılmalı, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması və işğaldan azad olunan ərazilər haqqında yeni reallıqlar ümumi təhsilin məzmununa daxil edilmədir: “Təhsil Nazirliyi bu haqda öz mövqeyini cəmiyyətə açıqlayıb, dərsliklərdə müvafiq dəyişikliklərin aparılmasına başlanılıb”.***

daha aydın, istər forma, istərsə də məzmun baxımından ehtiva edən dərsliklərə ehtiyac var. Belə dərsliklər isə müəllif rəqabətini təmin etməklə ortaya çıxa bilər. Dərsliklər üzərində ənənəvi monopoliya davam edəcəyi təqdirdə, keyfiyyətli dərs vəsaitlərinin çıxarılması təəssüf ki, çətin görünür. Düzdür, nazirlik rəsmiləri belə bir monopoliyanın varlığını inadla inkar edirlər. Lakin cəmiyyətin fikri tamam başqadır. Bu gün ölkədə dərsliklərin sadəcə və birbaşa Təhsil Nazirliyinin özü tərəfindən sifariş edilməsi, üstəlik, adətən, eyni şəxslər tərəfindən yazılması müstəqil ekspertlər tərəfindən daim tənqidlə qarşılanır, inhi-

Cənubi Koreyada isə Təhsil Nazirliyi özü bu işi icra etməkdən imtina edib. Onu universitet müəllim və professorlarının, məktəb müəllimlərinin və ictimaiyyət nümayəndələrinin cəlb edilməsi yolu ilə elmi-tədqiqat institutları həyata keçirirlər. Bu ölkədə də məktəblərdəki bilik səviyyəsi, şagirdlərə aşılanan vərdiş və qabiliyyətlər daimi ictimai nəzarət altında saxlanılır. Bir sözlə, mütəxəssislərin vurğuladığı kimi, dünyanın heç bir ölkəsində dərslik konkret olaraq hansısa qurumun monopoliyası altında deyil.

Lakin Azərbaycanda dərslik məsələsinə fərqli prizmadan yanaşılır. Bu sahədə monopolist əhval- ruhiyyə hökm sürür.



Nazirliyin bu addımı təqdirəlayiqdir. Şübhəsiz ki, nazirlik rəsmisinin də vurğuladığı kimi, Vətən müharibəsində Azərbaycanın qələbəsini təmin edən amillər təhlil olunmalı, müharibə şəhidləri və qaziləri təhsilalanlara dərindən tanıdılmalıdır. Azərbaycançılıq ideologiyasının təbliği, Azərbaycan dilinə, ədəbiyyatına, tarixinə, mədəniyyətinə məhəbbət hissinin, milli-mənəvi dəyərlərə hörmət duyğularının aşılanması, Vətənə sədaqət - vətənçilik, vətəndaşlıq mövqeyinin formalaşdırılması, vətənpərvərlik tərbiyəsi bütün təhsil sisteminin, xüsusən ümumi təhsil və məktəbdənkənar təhsil müəssisələrinin qarşısında duran prioritet vəzifələrdən biri olmalı və dərsliklərdə əksini tapmalıdır.

Lakin burada incə bir məqamı unutmamaq lazımdır: bütün bu sadalananları özündə sarçılıq kimi qiymətləndirilir.

Şübhəsiz ki, mükəmməl təhsil mükəmməl dərsliklər olmadan reallaşa bilməz. Bu mənada dərsliklərə bütün dünya ölkələrində xüsusi məsuliyyət və həssaslıqla yanaşılır. Ekspertlərin müxtəlif vaxtlardakı dəyərləndirmələrindən aydın olur ki, məsələn, ABŞ-da dərsliklərin hazırlanmasında bir çox dövlət strukturları və nüfuzlu təşkilatlarla yanaşı (hər bir ştatın təhsil nazirliyi, Qubernatorların Milli Assosiyasiyası, ABŞ Baş Məmurlar Şurası), ictimaiyyət də (məsələn, uşaqların valideynləri, yaxud ictimai hərəkatların - feminist, ekoloji və s.- nümayəndələri) fəal iştirak edir. Burada dərslik üzərində konkret olaraq heç bir qurumun monopoliya yaratmasına icazə verilmir və cəmiyyətin dərsliklər üzərində nəzarətinə şərait yaradılır.

Düzdür, əvvəlki illərlə müqayisədə həmin meyllər zəifləyib. Bununla belə, dərslik məsələsini sadəcə Təhsil Nazirliyinin üzərinə götürməsi, dərsliklərin sağlam rəqabət nəticəsində deyil, bəlli şəxslər tərəfindən yazılması tənqid mövzusu olaraq qalır. Odur ki, adıçəkilən nazirlik dərsliklərdə dəyişikliklərlə bərabər dərsliklərin hazırlanması ilə bağlı ənənəvi yanaşmada da dəyişikliklər barədə düşünməlidir. Belədə dərsliklərin istər forma, istərsə də məzmun baxımından keyfiyyəti ətrafında mütəmadi qalmaqallara son qoyular, bir sözlə, mükəmməl təhsilin nüvəsini təşkil edən mükəmməl dərsliklər ərsəyə gələr. Ümid edək ki, Təhsil naziri Emin Əmirullayev və komandası cəmiyyətdə daim müzakirə mövzusu olan bu önəmli nüansı da diqqətdə saxlayacaq.

***Sənan Mirzə***

# Moskva görüşü - zəfərin siyasi və iqtisadi diplomatiya ilə uğurlu davamı

***Yanvarın 11-də baş tutan Rusiya-Azərbaycan-Ermənistan rəhbərlərinin görüşü mühüm əhəmiyyətə malik oldu. Vətən Müharibəsində qalib çıxan Azərbaycan tərəfinin Qarabağla bağlı bundan sonrakı dönəmdə hansı itiqamətdə yola davam edəcəyi ilə bağlı bir sıra suallara cavab verildi.***

Mövzu ilə bağlı "Unikal" qəzetinə açıqlama verən millət vəkili Musa Qasımlı deyib ki, dünyanın müharibə və sülh tarixinin təcrübəsi göstərir ki, hərb meydanında qalib gələn dövlət xadimləri adətən masa arxasında da özlərini qalib aparıblar. Onun fikrincə, bəzən isə döyüş meydanında qalib gələnlər masa arxasında güzəştə gediblər və ya itiriblər: "Millətimizin böyük şansıdır ki, qurduğu dövlətə həm hərb elminə mükəmməl hakim olan qalib sərkərdə, həm dünya işlərini incəliyinə qədər bilən mahir diplomat, həm də zəmanəmizin görkəmli dövlət xadimi İlham Əliyev rəhbərlik edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirak etdiyi istənilən toplantıda millətimizin və dövlətimizin maraqlarının ən üst səviyyədə qorunmasına tam əminlik həmişə olub, bu gün də var və gələcəkdə də olacaqdır. Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistan Baş nazirinin üçtərəfli görüşü bu əminliyi bir daha təsdiq etdi. Görüş haqqında çox yazmaq və təhlil etmək olar. Yalnız bir neçə məqamı xüsusi vurğulamaq istəyirəm. İlk növbədə müharibədən sonra birinci dəfə keçirilən görüş iştirakçılarının "bədən dili" diqqəti cəlb etdi. Bütün beynəlxalq toplantılarda olduğu kimi, bu görüşdə də İlham Əliyevin fövqəladə olan "bədən dili" yalnız qürur hissi yaratdı. Döyüş meydanından qalib çıxan sərkərdənin görüş salonuna daxil olması, V.Putin tərəfindən isti qarşılanması fəxr ediləsi idi. Ermənistan Baş nazirinin görüş salonuna daxil olması, masada oturuşu bərbad idi və bu, onun fəaliyyəti nəticəsində boynuna çoxdan biçilmişdi. Zatən, döyüş meydanında rüsvayçı şəkildə məğlub olmuş, ordusu dağılmış, beli bükülmüş Baş nazirdən başqa bir şey gözləmək də olmazdı".

Millət vəkili onu da qeyd edib ki, görüşdə müzakirə edilən məsələlərə münasibətdə tərəflərin mövqeyi Azərbaycanın hökmranlıq etdiyini göstərdi. Onun sözlərinə görə, Ermənistan tərəfinin döyüş meydanında itirdiklərinin əvəzini masa arxasında hiyləgərliklə qaytarmağa cəhd etdiyi kimsədə şübhə doğurmur: "Lakin Prezident İlham Əliyevin qəti mövqeyi həmin istəkləri dəfn etdi. 10 noyabr tarixində imzalanmış bəyanatdan sonra Ermənistanın Azərbaycan ərazilərinə göndərdiyi terrorçuları geri almaq cəhdləri iflasa uğradı. Bununla Azərbaycan tərəfi bir daha sübut etdi ki, Ermənistan 10 noyabr tarixli bəyanatı kobudcasına pozur, terrorçuları Azərbaycan ərazisinə yollayır və terror himayə edir. Bu, Ermənistana vurulan ağır zərbə oldu. Beləliklə,N.Paşinyan döyüş meydanında olduğu kimi, masa arxasından da İrəvana əliboş qayıtdı. Görüşün yekununda imzalanan üçtərəfli bəyanatda nəzərdə tutulan məsələlər regionun gələcəyinə dair Prezident İlham Əliyev konsepsiyasının üstünlüyünü və həyatiliyini göstərdi. Bəyanatın bütün maddələri Azərbaycan tərəfinin uğurudur. Çünki nəqliyyat-kommunikasiya sistemlərinin açılması, ticarət-iqtisadi və digər əlaqələrin qurulması iqtisadi baxımdan da Cənubi Qafqazda üstün olan Azərbaycanın şəksiz hegemonluğuna gətirəcək. Regionun digər ölkələri və xalqları öz maraqları naminə Azərbaycanın yanında yer almağa çalışacaqlar. Ermənistanın və erməni xalqının da normal gələcəyi Azərbaycanın yanında olmaqdan keçir. Başqa yollar bəri başdan uğursuzluğa məhkumdur. Beləliklə, Moskva görüşünün nəticələri Prezident İlham Əliyevin hərb diplomatiyasının siyasi və iqtisadi diplomatiya ilə uğurlu davamıdır".

***



Prezident yanında Dövlət İdarəçilik Akademiyasının baş müəllimi, Bakı Politoloqlar Klubunun rəhbəri Zaur Məmmədov isə bildirib ki, regionun ən çətin münaqişələrindən sayılan Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində uzun müddət idi ki, Cənubi Qafqaz istənilən zaman partlaya biləcək barıt çəlləyinə bənzəyirdi. Onun fikrincə, Ermənistan dövləti, ümumdünya erməni diasporu və erməni kilsəsi ardıcıl strateji hədəflərinə əsasən havadarlarının birbaşa köməyi ilə 200 ilə yaxın idi ki, Azərbaycan torpaqlarının işğalı ilə məşğul idilər: "Hətta iş o yerə çatmışdı kı, ermənilər İrəvanın, Göyçənin, Zəngəzurun və ən son Qarabağın işğalını yetər saymayaraq, bunlarla kifayətlənmək istəmir, 2018-ci ildən başlayaraq "yeni müharibə - yeni ərazilər" iddiasını irəli sürmüşdülər. Təbii ki, bütün bunlar beynəlxalq ictimaiyyətin Ermənistanı cəzalandırmaması, onu himayə etməsi nəticəsində baş verirdi. Lakin bu ilin sentyabrın 27-də başlayan hərbi əməliyyatlar ermənilərin və onun havadarlarının iddiasına həmişəlik zərbə vuraraq regionda yeni reallığın başlanğıcını qoydu. Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli, regionda Azərbaycanın başçılığı altında yeni geosiyasi və geoiqtisadi konfiqurasiyasının formalaşmasının şahidi olmaqdayıq. 10 (9) noyabr tarixində Azərbaycan, Rusiya və Ermənistan liderlərinin üçtərəfli Bəyanatı Cənubi Qafqazda yeni mərhələnin başlanğıcını qoydu. Nəhayət, Ermənistan hərbi-siyasi arenada Azərbaycan qarşısında diz çökərək rəsmi Bakının şərtlərini qəbul etməli oldu. Bu Bəyanatın imzalanmasından 2 ay sonra yanvarın 11-də Moskvada üç ölkənin başçısının görüşü - 10 noyabr üçtərəfli Bəyanatının möhkəmləndirilməsi baxımından əhəmiyyət kəsb edirdi. Moskvada Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında keçirilən üçtərəfli görüş və imzalanan Bəyanat xüsusi aktuallıq təşkil edirdi".

Politoloq onu da qeyd edib ki, Ermənistan tərəfinin postmüharibə dövründə müxtəlif istiqamətli təxribatlarını nəzərə alsaq, Moskva görüşündə Nikol Paşinyan bir çox suallara cavab verməli idi: "Elə görüş başlar-başlamaz Ermənistan Baş nazirinin üzünü bürümüş həyəcan, çıxış zamanı səsindəki titrəmələr də bu dövlətin hansı vəziyyətə düşdüyünün bariz nümunəsi idi. Onun əksinə olaraq, Azərbaycan Prezidenti İlham Əliyev Rusiyanın paytaxtına qalib ölkənin Ali Baş Komandanı kimi səfər etdi və istər üçtərəfli görüşdə, istərsə də mətbuat konfransında özünə əminliyini ifadə edərək münaqişənin artıq arxada qaldığını bəyan etdi. Moskva görüşündə Ermənistanın heç bir şərtinin qəbul edilməməsi, sözsüz ki, Azərbaycanın postmüharibə dövründəki diplomatik uğuru sayıla bilər. Ermənistanın əksinə olaraq, Bakı Moskva görüşündə qarşısına qoyduğu mühüm məqsədlərə çatmağı bacardı. Bağlı qapılar arxasında baş tutmuş üçtərəfli görüşdə Azərbaycan 10 noyabr Bəyanatının dəqiqliklə icrasını tələb edib və razılıq əldə edilib. İctimaiyyətə açıqlanan məqamlara gəldikdə isə, 11 yanvar Bəyanatında bilavasitə 10 noyabr Bəyanatında əksini tapmış məsələlərin həlli üçün konkret addımların müəyyənləşdirildiyini qeyd edə bilərik. Misal üçün, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan MR-i birləşdirəcək dəhlizin açılışı ilə bağlı işçi qrupun yaradılması. Bununla bağlı çıxış edən Prezident İlham Əliyev qeyd edib ki, "Bu gün imzalanmış bəyanat bizim niyyətlərimizə dəlalət edir, ona görə ki, hərbi əməliyyatların dayandırılmasının yekunlarına dair bəyanatın bir bəndi nəqliyyat kommunikasiyalarının bərpasına aid idi. Bu sahə regionun inkişafına böyük dinamizm gətirə, təhlükəsizliyi möhkəmlədə bilər. Ona görə ki, nəqliyyat kommunikasiyalarının açılması Azərbaycan, Ermənistan, Rusiya xalqlarının, bizim qonşularımızın mənafelərinə cavab verir. Əminəm ki, qonşu ölkələr də bizim regionda nəqliyyat dəhlizlərinin və nəqliyyat arteriyalarının şaxələndirilmiş şəbəkəsinin yaradılmasına fəal qoşulacaqlar. Biz bundan sonra da qısa müddətdə səmərə verən və nəticəyə yönəlmiş fəaliyyət sahələrini tapmağa çalışmalıyıq".

Z.Məmmədov bildirib ki, Moskva görüşündə əldə edilmiş razılaşmaya əsasən, regionda tamamilə yeni geoiqtisadi mənzərə yaranacaq, yeni nəqliyyat kommunikasiyaları reallaşdırılacaq: "Mehri vasitəsilə Türkiyə-Naxçıvan-Azərbaycanın əsas hissəsi, Azərbaycan vasitəsilə Ermənistan-İran və Ermənistan-Rusiya nəqliyyat xətlərinin bərpası bunun bariz nümunəsidir. Nəqliyyat-kommunikasiya sahəsində əldə edilmiş Moskva razılaşması, sözsüz ki, separatçı və təxribatçı erməni qrupları üçün böyük zərbədir. Ermənistanın İran və Rusiya ilə Azərbaycan vasitəsilə kommunikasiya əlaqələrinin bərpası Nikol Paşinyan tərəfindən təslimçiliyin bariz nümunəsidir. Düzdür, daxili auditoriya üçün o, mətbuat konfransında görüşdəki nəticələr haqqında ikibaşlı danışsa da, fakt faktlığında qalır kı, Rusiya və Azərbaycan liderləri regionun yeni geosiyasi xəritəsini artıq cızıblar. Elə Prezidentin üçtərəfli görüşün nəticəsi olaraq birgə Bəyanatda səsləndirdiyi fikirlər də postmüharibə dövründə Ermənistanda və Qərbdəki bəzi revanşist qüvvələr üçün çox vacib ismarış sayıla bilər: "...Vladimir Vladimiroviçin dediyi kimi, Dağlıq Qarabağ münaqişəsi keçmişdə qalıb və biz gələcək barədə, qonşular kimi birlikdə necə yaşamaq, nəqliyyat arteriyalarının açılması məsələlərini həll etməyə necə çalışmaq və gələcəkdə regional sabitliyi və təhlükəsizliyi möhkəmlətmək haqqında düşünməliyik".

Bəli, əldə edilmiş razılıq və birgə Bəyanat, artıq Qarabağ münaqişəsinin arxada qaldığının bariz nümunəsidir. Beləliklə, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi nəticəsində Cənubi Qafqaz yeni qonşuluq münasibətlərinə qədəm qoyur. Bu ilin martın 1-dək Azərbaycan Respublikasının, Ermənistan Respublikasının baş nazir müavinlərinin və Rusiya Federasiyası Hökumətinin sədr müavininin birgə həmsədrliyi ilə üçtərəfli İşçi Qrup Azərbaycan Respublikası və Ermənistan Respublikası ərazisindən həyata keçirilən beynəlxalq daşımaların, həmçinin Azərbaycan Respublikası və Ermənistan Respublikası tərəfindən həyata keçirilən, yerinə yetirilməsi zamanı Azərbaycan Respublikasının və Ermənistan Respublikasının ərazilərinin kəsişməsi tələb olunan daşımaların təşkili, yerinə yetirilməsi və təhlükəsizliyinin təmin edilməsi üçün zəruri olan yeni nəqliyyat infrastrukturu obyektlərinin bərpasını və tikilməsini nəzərdə tutan tədbirlərin siyahısını və reallaşdırılması qrafikini təqdim edəcəklər".

***Z.Məmmədli***

# Baş nazirdən müharibədə zərər vurulan obyektlərlə bağlı SƏRƏNCAM



***Baş nazir Əli Əsədov "2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində dəymiş ziyanın aradan qaldırılması ilə bağlı zərər vurulmuş obyektlərin bərpası və təmir-tikinti işlərinin həyata keçirilməsi ilə bağlı əlavə tədbirlər barədə" sərəncam imzalayıb.***

Unikal.org-un məlumatına görə, sərəncama əsasən, 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində dəymiş ziyanın aradan qaldırılması ilə bağlı zərər vurulmuş obyektlərin tam bərpası və təmir-tikinti işlərinin həyata keçirilməsi üçün yaşayış evlərinin və obyektlərin tikintisi üzrə sifarişçi funksiyaları, habelə inşa prosesində həyata keçiriləcək işlərin təşkili və əlaqələndirilməsi Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə həvalə edilib.

Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və aidiyyəti yerli icra hakimiyyəti orqanları bu Sərəncamın 1-ci hissəsinin icrasının təmin edilməsi ilə bağlı aidiyyəti üzrə lazımi tədbirlər görməlidir. Sərəncam imzalandığı gündən qüvvəyə minir.

# Ərdoğan COVID-19-a qarşı peyvənd edildi

***Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan canlı yayımda koronavirusa qarşı peyvənd edilib.***

Unikal.org "Anadolu"ya istinadən xəbər verir ki, dövlət başçısına Çinin "Sinovac" şirkətinin istehsalı olan "CoronaVac" vaksini vurulub.

Qeyd edək ki, Türkiyənin Əczaçılıq və Tibbi Ləvazimat Təşkilatı laborator şəraitdə 14 gün araşdırma apardıqdan sonra ölkə ərazisində "CoronaVac" vaksininin tətbiqinə icazə verib. Ötən gün Türkiyənin səhiyyə naziri Fahrettin Koca və bir sıra şəxslər koronavirusa qarşı peyvənd edilib. Bu gündən etibarən isə bütün ölkə ərazisində tibb işçilərinin vaksinasiyasına başlanılıb.

# Azərbaycanda koronavirusa 380 yeni yoluxma - 14 nəfər öldü

***Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 380 yeni yoluxma faktı qeydə alınıb, 1159 nəfər müalicə olunaraq sağalıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan Unikal.org-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 14 nəfər vəfat edib.

## Başsağlığı

**Sahil və Nail qardaşları general-mayor Yusif Mirzəyevə, qaynanası Sülhiyyə xanımın vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.**

**Allah rəhmət eləsin!**

# Şuşa İslam dünyasının mədəniyyət paytaxtı olsun!

***Biz təklif etmişik ki, Şuşa İslam dünyasının mədəniyyət paytaxtı olsun.***

"Unikal" xəbər verir ki, bunu İslam Dünyası Elm, Təhsil və Mədəniyyət Təşkilatının (ICESCO) Baş direktoru Salim bin Məhəmməd əl-Malik deyib.

Bakıda səfərdə olan baş direktor bildirib ki, yaxın günlərdə bu barədə yekun qərar elan ediləcək.

"Biz Azərbaycanın uğur tarixini digər ölkələrdə də təbliğ etməyə nail olacağıq", - deyə o qeyd edib.




# "Trampın hesabının bağlanması demokratik dəyərlərə zərbədir" - Zaxarova

***Rusiya Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Mariya Zaxarova ABŞ prezidenti Donald Trampın sosial şəbəkə hesablarının bağlanmasına münasibət bildirib.***



Unikal.org Rusiya KİV-ə istinadən xəbər verir ki, Zaxarova bu addımları tənqid edib.

"Trampın hesabının bağlanması Qərbin elan etdiyi demokratik dəyərlərə zərbədir. Bu kimi addımlar kibersferada nüvə partlaması kimi müqayisə edilə bilər", - deyə Mariya Zaxarova bəyan edib.

# "Media haqqında" qanunda yeni funksiyalar olacaq" - Əhməd İsmayılov

***"Media haqqında" yeni qanun layihəsinin hazırlanması, müzakirəyə çıxarılması və qəbul edilməsindən sonra həmin qanundan irəli gələn yeni funksiyalar, istiqamətlər müəyyən olunacaq".***

Bunu Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov deyib.

"Agentliyin nizamnaməsində onlayn media, çap mediası və audiovizual media işinin qurulması və onların inkişafına nail olunması istiqamətində görüləsi işlərin konturlarını, çərçivəsini görə bilirik. Qarşıda bizi yeni qanunun müzakirəsi və qəbulundan sonra yeni işlər gözləməlidir", - o bildirib.

"Digər media növləri ilə müqayisədə onlayn medianın inkişaf etməsi bütün dünyada müşahidə olunan bir tendensiyadır. Azərbaycan media məkanında da belə bir tendensiya artıq mövcuddur"- deyən Əhməd İsmayılov "İstər çap mediası, istərsə də audiovizual media da artıq onlayn medianın təsirinə məruz qalmaqdadır. Bu baxımdan çap mediasına texniki dəstək layihələri və yayımın təşkil formasına köməklik göstərməliyik. Düşünürük ki, yayım şirkətləri ilə birlikdə bu məsələləri müzakirə etməliyik. Media subyektləri,



yayım şirkətləri və Medianın İnkişafı Agentliyi birlikdə müzakirələr aparmalıdır. Həmçinin mexanizmin effektivliyinin artırılması yolları araşdırılmalıdır", - deyə fikrini tamamlayıb.

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
h/h AZ74TURA41040011963500110944
M/h AZ26NAB01350100000000027944
Kod: 50462
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# Türkiyə və Azərbaycan poçtu yeni layihələrə imza atacaq

***Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə ilə Türkiyənin "Poçt və Teleqraf Təşkilatı"nın (PTT) Baş direktoru arasında görüş keçirilib.***

"Unikal" xəbər verir ki, nazir Vətən Müharibəsi dövründə göstərilən mənəvi və siyasi dəstəyə görə Türkiyə tərəfinə minnətdarlığını ifadə edib.

"Cənab Prezidentin tapşırığı ilə biz hazırda işğaldan azad olunmuş ərazilərdə infrastrukturun bərpasına başlamışıq", - deyən nazir artıq Füzuli rayonundan tarixi Şuşa şəhərinə birinci dərəcəli yolun çəkilişinə başlanıldığını diqqətə çatdırıb.

Ramin Quluzadə bildirib ki, bu layihəyə Türkiyə şirkətləri də cəlb olunub.

Nazir qeyd edib ki, işğaldan azad olunmuş ərazilərdə innovativ layihələrin həyata keçirilməsi nəzərdə tutulur və bu, öl-



kəmiz üçün böyük əhəmiyyət kəsb edir:

"Smart city" layihələrinin icrası ilə bağlı hazırda tərəfimizdən dünyanın aparıcı şirkətləri ilə danışıqlar aparılır və görüləcək işlər, təbii olaraq, adıçəkilən ərazilərdə poçt sahəsinin də daha müasir tələblərlə inkişafına təkan verəcək".

Daha sonra tərəflər iki ölkə arasında poçt və maliyyə xidmətləri sahəsində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, o cümlədən "Azərpoçt" ilə PTT arasında imzalanacaq müqavilələr barədə fikir mübadiləsi aparıb.

Nazir qeyd edib ki, respublikamızın əlverişli coğrafi mövqeyi və həyata keçirilən məqsədyönlü siyasət nəticəsində Azərbaycan Avrasiya regionunda əsas nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilib. Nəticədə, ölkələrarası elektron ticarət məhsullarının poçtla daşınması və çatdırılması sahəsində "Azərpoçt" MMC üçün də geniş imkanlar yaranıb.

"Məhz bu imkanlar çərçivəsində artıq beş ildir Azərbaycan Poçtu elektron ticarət məhsullarının emalı və daşınmasına yönəlmiş regional tranzit poçt mərkəzi-HUB layihəsini həyata keçirir.

Elektron ticarət məhsullarının "Azərpoçt"un Çindəki tərəfdaşlarından qəbul edilərək, Bakıya - Heydər Əliyev Beynəlxalq Aeroportunun Logistika Mərkəzinə çatdırılması və burada "Azərpoçt" tərəfindən beynəlxalq poçt kimi emal olunaraq müvafiq təyinat ölkəsinə göndərilməsi təşkil olunur. Bu layihənin icrası zamanı Türkiyə Poçtu "Azərpoçt"un əsas tərəfdaşlarından biri olub".

Nazir iki ölkə arasında elektron poçt, ticarət və pulköçürmələri sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyini qeyd edib.

Qurumların bu gün imzalayacaqları sənədlər iki ölkə arasında daşınan poçt həcminin, mübadilə olunan pulköçürmələrinin artırılmasına şərait yaradacaq, eləcə də beynəlxalq eticarətin inkişafına töhfə verəcək.

# Vüqar Səfərli 5,8 milyon mənimsədiyinə görə həbs edildi

## Korrupsiya şəbəkəsində iştirak etmiş digər şəxslər də müəyyən edilərək məsuliyyətə cəlb ediləcək



***Ölkəmizdə həyata keçirilən dövlət siyasətinə uyğun olaraq demokratik cəmiyyətin əsas atributlarından olan kütləvi informasiya vasitələrinin inkişafı da daim diqqət mərkəzində saxlanılır.***

Bununla yanaşı, bu mühüm sahə üzrə dövlətin dəstək siyasətinə öz qanunsuz əməlləri ilə kölgə salan vəzifəli şəxslərin aşkar olunaraq məsuliyyətə cəlb olunması istiqamətində prokurorluq orqanlarının məqsədyönlü və ardıcıl tədbirləri davam etdirilir.

Belə tədbirlərdən biri kimi, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna (KİVDF) dövlət büdcəsindən ayrılan vəsaitlərin xərclənməsi zamanı aşkar edilmiş qanun pozuntuları ilə əlaqədar Hesablama Palatasından daxil olmuş materiallar üzrə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən "Unikal"a bildirilib ki, aparılmış istintaqla Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun sərəncamında olan əmlakın həmin qurumun İcraçı direktoru və əməkdaşlarının digər şəxslərlə əlbir olmaqla şəxsi maraqlarına uyğun istifadə etmələrinə, fəaliyyətin ayrı-ayrı istiqamətləri üzrə proqramların və vəzifələrin icra edilməsi adı ilə rəsmi sənədlərə yalan məlumatlar daxil edilərək xüsusilə külli miqdarda ziyan vurulmaqla mənimsəmələrinə, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılmasına və digər qanunsuz əməllər törətmələrinə əsaslı şübhələr müəyyən edilmişdir.

Belə ki, aparılmış istintaqla müəyyən edilmişdir ki, Fondun icraçı direktoru Səfərli Vüqar Müzəffər oğlu, "Portos" MMC-nin direktoru Məmmədov Nadir Məhərrəm oğlu və qeyriləri ilə qabaqcadan əlbir olaraq mətbuat işçilərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması və yaşayış evlərinin tikintisi ilə bağlı 2013-2019-cu illər ərzində dövlət tərəfindən KİVDF-yə ayrılmış vəsaiti layihə və smeta sənədlərində iş həcmini əsassız şişirdib, işlərin və materialların dəyərini müəyyən edilmiş qiymətlərdən artıq göstərilməklə "Portos" MMC-nin bank hesablarına köçürmüş, bununla da, mətbuat işçiləri üçün Bakı şəhəri, Səbail rayonu, 20-ci sahə, Bibiheybət qəsəbəsi ərazisində yaşayış binalarının tikintisi üzrə ayrılmış xüsusilə külli miqdarda pul vəsaitini mənimsəmiş, qeyd edilən cinayət əməllərinin aşkar olunmasının qarşısını almaq məqsədilə əlbir olduğu şəxslərlə birlikdə yerinə yetirilmiş işlərin qəbulu haqqında "Forma 2" aktlarında ayrılmış vəsaitlərin tam həcmdə binanın tikintisinə sərf edilməsinə dair yalan məlumatlar daxil edib şəxsən təsdiq etməklə vəzifə saxtakarlığı da törətmişdir.

Bundan başqa, Vüqar Səfərli digər şəxslərlə qabaqcadan əlbir olaraq qurumun fəaliyyətinin təşkili üçün inzibati bina üzrə münasib yerin ayrılması və ya qeyri-yaşayış sahəsinin aşağı qiymətlərlə icarəyə verilməsi üçün Nazirlər Kabinetinin qərarları ilə müəyyən edilən qanuni prosedurlara qəsdən əməl etmədən, həmin Fondun maliyyələşməsinin həyata keçirildiyi dövlət büdcəsindən ayrılmış vəsait üzrə icarə xərclərinin özünün əvvəllər sədri olduğu, sonradan isə özünə yaxın şəxslərin fəaliyyətlərinə faktiki nəzarəti həyata keçirməkdə davam etdiyi şirkətlərə, habelə yaxın münasibətdə olduğu digər şəxslərə gəlir qismində verilməsinə nail olmaqdan ötrü həmin şəxslərin xüsusi mülkiyyətində olan Bakı şəhəri, Yasamal rayonu, Mətbuat prospekti, 23L ünvanında yerləşən müəssisə binasının 3-cü mərtəbəsinin Fondun inzibati istifadəsinə verilməsi məqsədilə maddi baxımdan Fond üçün daha ağır şərtlərlə icarəyə götürülməsinə dair müqavilələr bağlamış, 2011-2019-cu illər ərzində cəmi 812 min manat məbləğində pul vəsaitini icarə haqqı adı ilə köçürməklə dövlət büdcəsinə külli miqdarda ziyan vurmuşdur.

Həmçinin, Vüqar Səfərli digər şəxslərlə qabaqcadan əlbir olaraq nəşr olunan qəzetlərə maliyyə yardımının göstərilməsi məqsədi ilə dövlət tərəfindən ayrılmış vəsaitin 2015-2019-cu illər ərzində 300 min manat məbləğində olan hissəsini ailə üzvünün adına təsis etdiyi "Futbol+Qol" qəzetinə qanunsuz olaraq köçürməklə həmin pulu, eləcə də qurumun məqsədlərinin həyata keçirilməsi üçün alınmış 103 min manat dəyərində dəftərxana ləvazimatlarını da mənimsəmiş, eyni zamanda 2017-2019-cu illər ərzində ziyafətlərin keçirilməsi ilə bağlı satınalma müqavilələrinin bağlanması zamanı qanunsuzluqlara yol verməklə KİVDF-yə məxsus olmaqla ona etibar edilmiş cəmi 105 min manat məbləğində pul vəsaitini israf etmişdir.

Bundan əlavə, Vüqar Səfərli qeyriləri ilə qabaqcadan əlbir olaraq qeyd edilən mənimsəmə və vəzifə saxtakarlığı cinayətləri üzrə əldə etdiyi xüsusilə külli miqdarda pul vəsaitini kommersiya bankında olan milli və xarici valyutadakı depozit hesablarına 2015-2018-ci illər ərzində cəmi 5 milyon 796 min manatı yerləşdirməklə cinayət yolu ilə əldə edilmiş həmin pul vəsaitlərini külli miqdarda leqallaşdırmışdır.

İş üzrə toplanmış ilkin sübutlar əsasında Səfərli Vüqar Müzəffər oğlu Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq olaraq 179.4 (xüsusilə külli miqdarda ziyan vurmaqla mənimsəmə və israf etmə), 193-1.3.2 (cinayət yolu ilə əldə edilmiş külli miqdarda pul vəsaitlərini leqallaşdırma), 308.2 (ağır nəticələrə səbəb olan mühüm zərər vurulmaqla vəzifə səlahiyyətlərindən sui-istifadə etmə), 308-2.4 (satınalma prosedurları keçirilmədən külli miqdarda ziyan vurmaqla dövlət vəsaitlərini xərcləmə) və 313 (vəzifə saxtakarlığı), Məmmədov Nadir Məhərrəm oğlu isə Cinayət Məcəlləsinin 179.4, 308.2 və 313-cü maddələrinə əsasən təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilmişdir.

Hazırda cinayət işi üzrə qeyd edilən korrupsiya şəbəkəsində iştirak etmiş digər şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb edilmələri və dövlətə vurulan ziyanın bərpa olunması istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

***İnformasiya şöbəsi***



# Məleykə Abbaszadədən builki imtahanlarla bağlı açıqlama

***"Yanvarın 18-ə qədər imtahan tarixləri barədə fikir söyləməyə ixtiyarım yoxdur. İmtahan tarixlərini yalnız həmin vaxtdan sonra təxmini də olsa söyləyə bilərik".***

Unikal.org xəbər verir ki, bunu Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə deyib.

O qeyd edib ki, yaxın günlər üçün sadəcə imtahanların ardıcıllığını açıqlamaq mümkündür: "Tarixlər hər dəfə pandemiyanın şərtlərindən asılı olur. Biz tarixlərlə bağlı təklifləri hazırlayıb hökumətə öncədən təqdim edirik. Buraxılış imtahanlarının strukturu elan olunub və xüsusi jurnal da çıxıb".

Magistratura imtahanları ilə bağlı sənəd qəbulunu yanvarın 30-na qədər başlamaq istəyirik, lakin bu, ölkədəki karantin rejimindən asılı olacaq. M.Abbaszadə bildirib ki, imtahanlarla bağlı məlumat dəqiqləşdirildikdən sonra veriləcək: "Keçən il müəyyən imtahanlarla bağlı razılıq verilmişdi, sonra vəziyyətlə əlaqədar imtahan keçirə bilmədik. Ona görə tam məlumat olandan sonra həmin tarixləri açıqlayacağıq".

# "Pakistan hər zaman Azərbaycanın yanında olub" - Baş Qərargah rəisi



***Pakistana rəsmi səfəri çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Pakistan İslam Respublikası Ordusunun Baş Qərargah rəisi, ordu generalı Qamar Cavid Bacva arasında görüş keçirilib.***

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən "Unikal"a verilən məlumata görə, Ordu generalı Qamar Cavid Bacva Vətən müharibəsində böyük Qələbəyə görə təbriklərini nazir Ceyhun Bayramova çatdırıb. Pakistanın hər zaman Azərbaycanın yanında olduğunu, Azərbaycanın haqlı mövqeyini dəstəklədiyini və Pakistan ordusunun ölkəmizə verdiyi mənəvi dəstəyi və həmrəyliyi ifadə edib.

Nazir Ceyhun Bayramov təbriklərə görə təşəkkürünü bildirib. Nazir Ermənistan-Azərbaycan münaqişəsinin həlli, 44 günlük Vətən müharibəsi, bu dövr ərzində Ermənistan tərəfindən törədilən müharibə cinayətləri, mülki insanların hədəfə çevrilməsi barədə, eləcə də bölgədə mövcud olan cari vəziyyət haqqında qarşı tərəfə ətraflı məlumat verib. Həmçinin nazir Pakistan tərəfinə Azərbaycanın beynəlxalq hüquqa əsaslanan mövqeyini birmənalı dəstəklədiyi və nümayiş etdirdiyi mənəvi dəstəyə görə dərin təşəkkürünü ifadə edib.

Tərəflər hazırda Azərbaycanın azad olunmuş ərazilərində aparılan minadan təmizlənmə fəaliyyəti, bərpa və tikinti işləri, infrastruktur layihələri və digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

İki ölkə arasında əlaqələrin inkişaf etdirilməsi, o cümlədən hərbi texniki, hərbi təhsil sahələrində əməkdaşlığın davam etdirilməsinin əhəmiyyəti vurğulanıb.



## XİN Ceyhun Bayramovun pakistanlı həmkarı ilə görüşünə dair məlumat yaydı

***Pakistana rəsmi səfəri çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri cənab Ceyhun Bayramov və Pakistan İslam Respublikasının xarici işlər naziri Məhdum Şah Mahmud Qureşi arasında görüş baş tutub.***

Bu barədə Unikal.org-a Azərbaycan Xarici İşlər Nazirliyindən məlumat verilib.

Nazirlər Azərbaycanı işğal edilmiş ərazilərinin azad olunması münasibətilə təbriklərini ifadə edən Pakistan naziri ölkəsinin Azərbaycanın beynəlxalq hüquqa əsaslanan ədalətli mövqeyinin hər zaman dəstəklədiyini vurğulayıb.

Nazir Ceyhun Bayramov Pakistanın hər zaman Azərbaycanın yanında olduğunu və Vətən müharibəsi dövründə Pakistan tərəfindən bütün səviyyələrdə, xüsusilə də Pakistan xalqı tərəfindən nümayiş etdirilən birmənalı dəstəyi məmnunluqla qeyd edib.

İki ölkə arasında mövcud olan tarixi və mədəni əlaqələri vurğulayan tərəflər, inkişaf etməkdə olan əməkdaşlıq münasibətləri, eləcə də beynəlxalq təşkilatlar çərçivəsində sərgilənən qarşılıqlı dəstək məsələlərini müzakirə etdilər.

Azərbaycan və Pakistan arasında yüksək səviyyəli səfər mübadilələrinin həyata keçirilməsinin ikitərəfli münasibətlərin inkişafına töhfə verəcəyi bildirildi.

Görüş zamanı, həmçinin ölkələr arasında ticarət, iqtisadi, kənd təsərrüfatı, enerji, nəqliyyat, turizm və digər kimi sahələrdə əlaqələrin daha da inkişaf etdirilməsi ətrafında fikir mübadiləsi aparıldı. İnsanlararası əlaqələr, habelə təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi müzakirə edildi, ADA Universiteti ilə Pakistanın Xarici Xidmət Akademiyası arasında münasibətlərin inkişaf etdirilməsi vurğulandı.

Tərəflər görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi apardılar.

Görüşdən sonra nazirlər "Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında fövqəladə halların qarşısının alınması, məhdudlaşdırılması və azaldılması sahəsində əməkdaşlıq haqqında saziş" imzaladılar.

# "Yeni bir münaqişəyə cəhd etsələr, Ermənistan daha ağır zərbə alacaq"

## Cavid Osmanov: "Biz unutmamalıyıq ki, bizim mənfur düşmənimiz ermənidir, hiyləgərdir, şərəfsizdir"



***Məlum olduğu kimi, Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüş keçirilib. Görüşün sonunda tərəflər arasında yeni bəyanat imzalandı. Bu və ya digər məsələlərlə bağlı "Unikal" qəzetinə müsahibə verən Milli Məclisin deputatı Cavid Osmanovla söhbətə də bu mövzudan başladıq.***

***-Cavid müəllim, öncə Moskvada keçirilən son üçtərəfli görüş barədə fikirlərinizi bilmək istərdik. Bu görüşü necə dəyərləndirirsiniz?***

-44 gün davam edən Vətən müharibəsindən sonra Azərbaycan və Rusiya prezidentlərinin, Ermənistan baş nazirinin 10 noyabr 2020-ci il tarixində imzalanan bəyanatından sonra - Azərbaycanın qələbəsini təmin edən həmin bəyanatdan sonra ilk dəfədir ki, üçtərəfli formatda belə bir görüş keçirildi. Qeyd etmək lazımdır ki, 11 yanvarda keçirilən görüş Azərbaycanın növbəti diplomatik uğuru ilə yadda qaldı. Orada imzalanan üçtərəfli bəyanat birbaşa Azərbaycanın maraqlarına uyğun atılan addımdır. Cənab prezidentimiz eyni zamanda öz insani dəyərlərini nümayiş etdirdi. Güclü diplomat, güclü şəxsiyyət, güclü lider olması bu görüşdə bir daha açıq-aydın nümayiş olundu. Digər tərəfdə isə məğlub Ermənistanın çox məyus və çıxılmaz vəziyyətdə olan baş nazirini gördük. Onun açıqlamasında da gördük ki, bu açıqlama sadəcə daxili auditoriyaya hesablanmış məqam idi. Cənab prezidentimiz bu bəyanat haqqında öz fikirlərini söylədi. Bəyanatdan açıq şəkildə görünür ki, bu sənədi 10 noyabr bəyanatının davamı kimi qiymətləndirmək olar. Xüsusən, Naxçıvanı Azərbaycanın əsas hissəsi ilə birləşdirəcək dəhlizin, ümumilikdə kommunikasiyaların açılmasını gələcək üçün uzunmüddətli sülh və əmin-amanlığın təminatı, həmçinin bölgə üçün yeni reallıqlara uyğun tərəqqi və inkişafın yaranması kimi qiymətləndirmək olar.

***-10 noyabr bəyanatından sonra cəmiyyətdə müəyyən təbəqələrin, insanların narahat olduğu məsələlərdən biri də hələ boşaldılmayan ərazilərimiz və sülhməramlıların nəzarətində olan bölgə ilə bağlı idi. Bu görüşdə həmin mövzuda konkret məsələ olmadı. Bu məsələ nə zamana qalıb, yoxsa bu da mərhələli şəkildə həllini tapacaq məsələlər sırasındadır?***

-Birincisi, 11 yanvar 2021-ci ildə keçirilmiş görüş zamanı müzakirə predmeti olacaq məsələlərin hər biri əvvəlcədən hazırlanır. Həmin görüşdə bu məsələnin müzakirəsi yox idi. Amma digər tərəfdən, cənab prezidentimiz hər zaman qeyd edir ki, məsələnin hərbi-siyasi yolu mövcuddur. Hərbi mərhələ artıq başa çatdı - 44 gün davam edən Vətən müharibəsi və bundan sonrakı mərhələ isə əlbəttə ki, siyasi mərhələdir. Ona görə də boşaldılmamış ərazilər heç şübhəsiz ki, yaxın gələcəkdə boşaldılacaqdır. Bir daha qeyd edirəm ki, Ermənistan baş nazirinin öz qısa açıqlamasında status məsələsinə toxunması birbaşa acınacaqlı vəziyyətdə olan Ermənistanın daxili auditoriyası üçün hesablanmış məqam idi. Cənab prezidentimiz dəfələrlə vurğulayıb ki, Qarabağın heç bir statusu yoxdur. Bu məsələ artıq siyasi mərhələdə öz həllini tapacaqdır. İnsanlarımızda nikbinlik olmalıdır. Cənab prezidentimiz qeyd edib ki, nəyi nə zaman və necə edəcəyimizi biz yaxşı bilirik. Yaxın gələcəkdə bu məsələ də həllini tapacaq.

***-Narahatlığı bir az da artıran məsələlər baş verir. Tutaq ki, Ermənistan xarici işlər nazirinin Dağlıq Qarabağa səfəri, ondan əvvəl Arayik Arutunyan kimi separatçı və terrorçu dəstəbaşının müəyyən mesajlar verməsi, rahat hərəkət etməsi cəmiyyətdə qıcıq yaradır. Bəs bu kimi halların qarşısı nə zaman alınacaq?***

-6 yanvarda cənab prezidentimiz keçirdiyi müşavirədə bu məsələyə xüsusi toxundu. Onlara son xəbərdarlıq etdi ki, dəmir yumruq öz qüvvəsində qalır və daha da bərkiyib. 44 günlük Vətən müharibəsini onlar unutmasınlar. Əlbəttə ki, onların bu addımları Ermənistanın daxilindəki acınacaqlı böhran vəziyyətinə hesablanmış addımlardır. Bununla onlar Ermənistanda yaşayan əhalini, erməni xalqını sakitləşdirməyə cəhd edirlər. Bununla yanaşı, Ermənistanın xarici işlər nazirinin Qarabağa səfər etməsi, terrorçu Arayik Arutunyanın orada hələ də mövcud olması insanlarımızda əlbəttə ki, bəzən narahatlıq doğurur. Bir daha qeyd etmək istəyirəm ki, bunlar Ermənistanın daxili auditoriyasına hesablanmış addımlardır. Bütün bunlara son qoyulacaqdır. Bu ərazilər Azərbaycanın əraziləridir. Burada yaxın gələcəkdə Azərbaycan qanunları, idarəetməsi mövcud olacaqdır.

***-O fikirlər də səslənir ki, Rusiya Azərbaycan ərazilərindən elə də rahatlıqla çıxmayacaq. Bu və ya digər şəkildə hər hansı qarşıdurma, təxribat xarakterli addımlar atıla bilər və Rusiya tənzimləmə missiyasına davam etməli olar. Bu prosesin bir qədər uzanacağı ilə əlaqədər insanlarda bir narahatlıq var. İndidən bu narahatlıqlara son qoyacaq hər hansı söz demək olarmı?***

-Hər halda bəzi məqamlar var ki, onlar barədə sözü vaxtı gələndə demək lazımdır. Amma indiki mərhələdə 10 noyabr bəyanatı ilə Azərbaycan tərəfi də, Ermənistan tərəfi də, Rusiya tərəfi də Rusiya sülhməramlılarının bölgəyə gəlməsinə razılaşıb. Təbii ki, orada qıcıqlandırıcı addımlar var. Biz unutmamalıyıq ki, bizim mənfur düşmənimiz ermənidir, hiyləgərdir, şərəfsizdir. Bütün bunlarla yanaşı, Ermənistanın daxilində revanşist qüvvələr də var. Hansılar ki, hələ də növbəti təxribatlara əl ataraq yeni bir münaqişənin qaynamasına zəmin yaradacaqlar. Amma yeni bir münaqişəyə cəhd etsələr, Ermənistan daha ağır zərbə alacaq. Çünki bizim güclü ordumuz, qətiyyətli liderimiz, xalqımızın birliyi var. Digər tərəfdən, orada baş verən proseslər, hansısa xırda məqamlar insanlar arasında qıcıq yaradır. Unutmamalıyıq ki, müharibənin başa çatdığı hələ 2 aydır.

***-Bəs Türkiyənin prosesə cəlbi məsələsi necə olacaq?***

-Monitorinq Mərkəzində Türkiyənin də əsgərləri olacaq. Qardaş Türkiyə də, o cümlədən Azərbaycana dost olan bütün ölkələr də Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Azərbaycanın haqq işində hər zaman yanında olacaqlarını bəyan edirlər. Əlbəttə ki, insanların narahatlığı başa düşüləndir. Amma düşünürəm ki, xalqımızın birliyi, qüdrətli ordumuz, çox güclü və qətiyyətli, prinsipial mövqe nümayiş etdirən, xalqın maraqlarını hər məsələdən üstün tutan liderimiz var.

***Z.Məmmədli***

# Cahangir Əsgərovun gözlənilən antirekordu...

## AZAL-ın borclarında kəskin artım gözlənilir

***Ötən ilin sonlarında məlum oldu ki, 2020-ci ilin yanvar-noyabr aylarında "Azərbaycan Hava Yolları" (AZAL) QSC 6,8 mln ABŞ dolları dəyərində xidmət ixrac edib . Bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac İcmalı"nın dekabr sayında bildirilirdi.Məlumata görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 14 mln ABŞ dolları və yaxud 3,06 dəfə azdır.***



Xatırladaq ki, 2019-cu ilin yanvar-noyabr ayları ərzində AZAL 20,8 mln ABŞ dolları dəyərində xidmət ixrac edib.

Yola saldığımız ilə koronavirus pandemiyasının damğa vurduğunu və bu səbəbdən beynəlxalq uçuşların məhdudlaşdırıldığını nəzərə alsaq, AZAL-ın gəlirlərində azalma təəccüblü deyil. Lakin azalmanın miqyası düşünüldüyündən xeyli çoxdur. Ən azından ona görə ki, adıçəkilən QSC monopolist şirkətdir, yəni ölkənin hava nəqliyyatında faktiki olaraq rəqibsizdir. Belədə gəlirlərdə üç dəfədən çox azalmaya izah vermək (hətta koronavirus pandemiyasına rəğmən!) olduqca çətindir.Üstəlik, gəlirlərdə bu qədər azalma o deməkdir ki, "Azərbaycan Hava Yolları" tezliklə antirekorda imza ata bilər. Söhbət onsuz da fantastik borca malik şirkətin daha da çətin duruma düşməsindən - borclarının bir az da artmasından gedir. Bir az da konkretləşdirsək, görünən odur ki, bir ildə gəlirləri üç dəfədən də çox azalan dövlət şirkəti əvvəlki illərdən yığılmış borclarından müəyyən qədər ödəyə bilməyəcək. Bu isə həmin borcların məbləğinin artmasına gətirib çıxaracaq. Qısası, adıçəkilən QSC borc baxımından sözün həqiqi mənasında rekord, daha doğrusu, antirekord vurmaq ərəfəsindədir.

Düzdür, AZAL az qala hər il zərər açıqlayan dövlət şirkətlərinin ön sırasında dayanır. Yəni gəlirlilik baxımından, el təbirincə desək, "dünyanın düz vaxtında" da ürəkaçan durumda deyildi. Məsələn, ötən ilin fevralında "Azərbaycan Hava Yolları"nın təkcə 2017-ci ili 41 milyon 568 milyon manat zərərlə başa vurduğu açıqlanmışdı. Sonrakı illərdə də göstəricilər ürəkaçan deyildi.

Düzdür, aviaşirkətin maliyyə hesabatına görə, 2017-ci ildəki rəqəm 2016-cı ilə nisbətən 83,7% az idi. Lakin istənilən halda Cahangir Əsgərovun rəhbərlik etdiyi QSC-nin hər il zərər açıqlamaqdan qurtula bilməməsi düşündürücüdür.

Üstəlik, qurumun yığılmış zərəri təkcə bir ildə 3 faiz də artaraq 1 milyard 433 milyon 579 min manata çatıb.

Xatırladaq ki, AZAL 1992-ci ildə yaradılıb, ölkənin milli aviadaşıyıcısıdır. Səhmləri 100 faiz dövlətə məxsus aviaşirkətin nizamnamə kapitalı 823 milyon 974 min manatdır.

İllər uzunudur istər media, istərsə də müstəqil iqtisadçı ekspertlər haqlı olaraq sual edirlər ki, necə ola bilər, QSC monopolist mövqelərə sahibdir, lakin ziyandan heç cür xilas ola bilmir? Təəssüf ki, "Azərbaycan Hava Yolları"nın rəhbərliyi indiyədək hər kəsi düşündürən bu suala bircə dəfə də olsun, cavab vermək lütfünü göstərməyib.

İndi isə AZAL-ın 2020-ci ildə gəlirlərinin üç dəfədən çox azaldığı aydın olur ki, bu da qlobal pandemiyaya baxmayaraq bir monopolist şirkət üçün bunun səbəbləri maraq doğurur. Belə çıxır ki, inhisarçı şirkət olmasaydı, Əsgərovun rəhbəri olduğu QSC iflasını elan edəcəkdi.

Artıq heç bir şübhə qalmır ki, ümumi zərəri manatla ifadə etsək, milyard yarıma çatması haqqında danışılan dövlət şirkətinin fəaliyyətində ciddi islahatların aparılmasını zəruri edir. Əks halda AZAL hələ bundan sonra da uzun illər ərzində dövlət büdcəsi üzərində "ağır yük" rolunu oynayacaq.

Üstəlik, istər mətbuat, istərsə də müstəqil iqtisadçı ekspertlər AZAL-ın həm düşdüyü borc bataqlığından qurtulması, həm də fövqəladə vəziyyətlərə, gözlənilməz situasiyalara hazırlığı ilə bağlı "B", "C" planlarının olması zərurətindən danışır. Lakin real durum bu dövlət şirkətinin "A" planının belə olduğunu şübhə altına alır. Əks halda "Azərbaycan Hava Yolları" ötən illər ərzində, heç olmasa, bircə dəfə qazancla işləyər, ən əsası isə 2020-ci ili, pandemiya dövrünü daha normal nəticələrlə tamamlayardı.

Görünən odur ki, Cahangir Əsgərovun rəhbərlik etdiyi QSC-də genişmiqyaslı reformlara start verilməsi artıq hava və su kimi zəruridir. Xüsusilə struktur və kadr islahatı qaçılmaz görünür. İstisna deyil ki, bu çərçivədə ilk olaraq məhz AZAL prezidenti öz vəzifəsi ilə vidalaşmalı olacaq.

***Orxan Həsənli***

# Səfər Mehdiyev Əlcəzairin ölkəmizdəki səfiri ilə görüşüb

***Yanvarın 14-də Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev Əlcəzair Xalq Demokratik Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım Salima Abdelhak ilə görüşüb.***

Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev Əlcəzair ilə Azərbaycan arasındakı münasibətlərindən bəhs edib və əməkdaşlığın gücləndirilməsinin vacibliyini vurğulayıb.

Səfər Mehdiyev Ermənistanın ölkəmizə qarşı növbəti hərbi təcavüzü və Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən əks-həmlə tədbirlərindən bəhs edərək Azərbaycan ordusunun 30 ilə yaxın işğalda qalan əraziləri 44 gün ərzində azad etdiyini bildirib. Komitə sədri onu da vurğulayıb ki, tezliklə işğal altındakı ərazilərin bərpasına başlanacaq və bu da regionun iqtisadi baxımdan inkişafı, bölgədə sabitliyin tam təmin olunması üçün əlverişli imkanlar yaradacaq.

Səfər Mehdiyev son illər gömrük sitemində həyata keçirilən islahatlar barədə məlumat verərək diqqətə çatdırıb ki, əməkdaşların potensialının gücləndirilməsi, informasiya texnologiyalarının geniş tətbiqi, qabaqcıl təcrübələrə əsaslanan layihələrin həyata keçirilməsi fiskal sahə ilə yanaşı, qaçaqmalçılığa qarşı mübarizə, şəffaflığın təmin olunması, ticarətin asanlaşdırılması, sərhədkeşmə proseslərinin sürətləndirilməsi istiqamətində mühüm uğurların əldə edilməsinə şərait yaradıb.

Komitə sədri iki ölkənin gömrük orqanları arasındakı əlaqələrin gələcək perspektivlərindən danışıb və əməkdaşlığın daha da inkişaf edəcəyinə əminliyini ifadə edib.

Əlcəzair Xalq Demokratik Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım Salima Abdelhak Azərbaycanın Vətən müharibəsindəki qələbəsi münasibətilə təbriklərini çatdırıb və ölkələrimiz arasındakı münasibətlərdən məmnunluqla bəhs edib.

Səfir Azərbaycan gömrüyünün əldə etdiyi uğurların təqdirəlayiq olduğunu, bütün sahələrdə əldə edilən nailiyyətlərlə bağlı təcrübə mübadiləsinin əməkdaşlığa, gömrük işinin inkişafına töhfə verəcəyini bildirib.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***Famil***

# MN-nin "Qaynar xətt"inə 15 mindən artıq müraciət daxil olub

***Daxil olan müraciətlərin qəbul edilməsi, vətəndaşlar ilə birbaşa ünsiyyətin qurulması və onları maraqlandıran sualların dərhal cavablandırılması məqsədilə Müdafiə Nazirliyində yaradılan "Qaynar xətt" fəaliyyət göstərir.***

Unikal.org xəbər verir ki, 2020-ci il ərzində Müdafiə Nazirliyinin "Qaynar xətt"inə 15206 müraciət daxil olub, onlardan 9925-i şifahi cavablandırılıb, 5281-nin həlli ilə bağlı isə nazirliyin müvafiq qurumlarına dərhal sorğular göndərilib.

Təkcə 2020-ci il sentyabr ayının 27-dən 2021-ci il yanvar ayının 10-dək vətəndaşlardan 5465 müraciət daxil olub, onlardan 2269-u şifahi qaydada cavablandırılıb, 3196-sı isə qeydiyyata alınaraq aidiyyəti üzrə araşdırılması və cavablandırılması üçün nazirliyin müvafiq strukturlarına göndərilib.

Qeyd edək ki, Vətən müharibəsi dövründə daxil olan müraciətlər əsasən valideynlərin hərbi xidmətdə olan övladları ilə əlaqənin saxlanılması (971 müraciət), şəhid olmuş və itkin düşmüş hərbi qulluqçular haqqında məlumatların alınması (742 müraciət), hərbi qulluqçuların ailələrinə yardım edilməsi (449 müraciət) və könüllü döyüşə getmək (386 müraciət) ilə əlaqədar olub.

Ailə-məişət və sosial məsələlərlə bağlı digər müraciətlər də qeydiyyata alınaraq həll olunması üçün nazirliyin müvafiq qurumlarına yönləndirilib.

# "YAŞAT" Fondunda nə qədər vəsait toplanıb? - RƏSMİ

***Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fonduna ("YAŞAT" Fondu) daxil olan vəsaitin məbləği açıqlanıb.***

Unikal.org xəbər verir ki, indiyədək fondda 26 394 850,67 manat toplanıb. Həmin vəsaitdən 15 594 763,57 manat fiziki şəxslər, 10 800 087,1 manat isə hüquqi şəxslər tərəfindən ödənilib. Fonda daxil olan vəsaitin 1 198 278, 49 manatı xərclənib. Vəsaitin qalığı isə 25 196 572,18 manatdır.



## ICESCO-nun Baş direktoru “ASAN xidmət”də

***14 yanvar 2021-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malikin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Qonağa “ASAN xidmət” mərkəzlərinin yaradılması məqsədləri və fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verilib. Qeyd olunub ki, şəffaflığın artırılması və müasir innovasiyaların tətbiqi baxımından “ASAN xidmət”in yaradılması ilə səmərəli dövlət idarəçiliyinin təmin edilməsi sahəsində ciddi nailiyyətlər əldə olunub. Bildirilib ki, bu günədək 41 milyondan çox vətəndaş müraciəti qeydə alınıb.

Bundan başqa vurğulanıb ki,” ASAN xidmət” Birləşmiş Millətlər Təşkilatının 2015-ci il Dövlət Xidmətləri Mükafatına (United Nations Public Service Award 2015), həmçinin 2019-cu ildə Bakıda Birləşmiş Millətlər Təşkilatının Dövlət Xidmətləri Forumu çərçivəsində BMT-nin rəqəmsal idarəetmənin tətbiqi ilə dövlət xidmətlərinin inkişafı sahəsində xüsusi mükafatına layiq görülüb.

Qonaq, həmçinin “ASAN Radio”, “ASAN Təlim-Tədris Mərkəzi”, “ABAD” publik hüquqi şəxsin fəaliyyəti ilə tanış olub.

Eyni zamanda görüş zamanı 25 oktyabr 2018-ci il tarixində Dövlət Agentliyi ilə ICESCO arasında imzalanmış Birgə Əməkdaşlıq Proqramı və bu Proqram əsasında təsis olunan qabaqcıl idarəetmə üzrə “ICESCO-nun ASAN mükafatı” barədə geniş müzakirələr aparılıb. “ICESCO-nun ASAN mükafatı”nın ICESCO-ya üzv dövlətlərdə innovasiyaları əks etdirən təcrübələr üçün təqdim olunması nəzərdə tutulur.

Yaradılmış şərait və iş prinsipi ilə tanış olan qonaq “ASAN xidmət”in onda böyük təəssürat yaratdığını və Azərbaycanın dövlət xidmətlərinin göstərilməsi sahəsindəki bu qabaqcıl modelinin ICESCO-ya üzv ölkələrdə tətbiqinin zəruriliyini vurğulayıb.

Həmçinin, ICESCO-nun Baş direktoru ölkəmizin elektron hökumət və rəqəmsallaşma sahəsində dünyanın bir sıra inkişaf etmiş ölkələri ilə müqayisədə daha çox irəliləyiş əldə etdiyini qeyd edib və müvafiq istiqamətlər üzrə Dövlət Agentliyi tərəfindən görülmüş işləri yüksək qiymətləndirib.

Sonda qonağa “ABAD”çı tərəfindən hazırlanmış xatirə hədiyyəsi təqdim olunub.

## Ramiz Mehdiyev İsa Həbibbəylini buna görə cəzalandırıb? - AÇIQLAMA

***AMEA-nın sabiq birinci vitse-prezidenti, millət vəkili, akademik İsa Həbibbəyli onu Ramiz Mehdiyevin nəvəsinin toyuna getmədiyi üçün cəzalandırılması ilə bağlı iddialara münasibət bildirib.***

Unikal.org-a açıqlamasında İ.Həbibbəyli yayılan məlumatların əsassız olduğunu bildirib:

“Ramiz müəllim məni nəvəsinin toyuna çağırmamışdı. Mən çağırılmadığım məclisdə necə iştirak edə bilərəm? Bu xəbər doğru deyil. Adıçəkilən toy zamanı mən Naxçıvanda olmuşam. Həmin məzuniyyət dövrümdə orada qalmışam.”

Qeyd edək ki, Akademik İsa Həbibbəyli yanvarın 8-də AMEA-nın iclasında qəbul edilən qərarla birinci vitse-prezident vəzifəsindən azad edilmişdi.

***Famil Fərhadoğlu***

# Elman Rüstəmov ödəyəcəyi bir milyardı xərcləməyə başladı

## Mərkəzi bank rəhbərinin ortaqlarından sayılan Məmməd Musayevin də sorğu-sual ediləcəyi qaçılmazdır

Yola salmaq üzrə olduğumuz həftə yayılan bir xəbər gündəmə, necə deyərlər, ”bomba” kimi düşdü. Həmin xəbərdə deyilirdi ki, Azərbaycan Mərkəzi Bankının (AMB) yeni inzibati binasının inşası üçün keçirilmiş tenderin qalibi məlum olub. Bu Türkiyənin “Tekfen Holding” şirkətidir. İctimai rezonans yaradan isə layihənin dəyəri idi: 218 milyon avro! Yəni hardasa təxminən yarım milyard manat...

Baş bankın ilin-günün bu vaxtı - pandemiyanın ciddi qlobal iqtisadi




problemlər yaratdığı və həmin problemlərin Azərbaycandan da yan keçmədiyi, ölkənin müharibədən yenicə çıxdığı və s. bir zamanda özünə bu qədər bahalı bina inşa etdirmək istəməsi cəmiyyətdə birmənalı qarşılanmayıb, mübahisə və müzakirələrə yol açıb.

Bəs həmin binanın xərcləri ilə bağlı bilinməyən hansı gerçəkliklər var?

Bu suala cavab tapmaq üçün bir qədər əvvələ getmək lazımdır.

Hələ ötən ilin payızında - sentyabrda ”Unikal.org” saytı məlumat yaymışdı ki, Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmovun dövlətə 1 milyard manata yaxın borcu var. Sözügedən vəsaiti baş bankir “DekaBank”, “StandartBank”, ”ZaminBank” və digər bağlanan, eləcə də hazırda fəaliyyətdə olan bir sıra banklardan dostları və qohumlarının şirkətlərinin adına şəxsi mənafeyi üçün alıb.

Saytın xəbərində o da deyilirdi ki, AMB-nın rəhbərinə həmin vəsaiti dövlətə qaytarmağa ilin sonuna kimi vaxt verilib.

Budur, ilin əvvəlidir və məlum olur ki, Rüstəmov rəhbəri olduğu qurum üçün yarım milyard manatlıq bina inşa etdirir.

İki xəbər arasında ilk baxışda bağlılıq olmaya bilər. Lakin əminliklə demək olar ki, baş bankir dövlətə borclu olduğu yüz milyonlarla manatı məhz inşaat üçün xərcləyəcək. Yəni bu yolla borcunun yarısını qaytarmış olacaq. Daha da dəqiqləşdirsək, Mərkəzi Bank rəhbəri ödəməli olduğu bir milyard manatı artıq xərcləməyə başlayıb!

İstisna deyil ki, bu prosesdə ictimaiyyətdə ”Şapka Mamed” kimi tanınan Məmməd Musayev də var. “Aqrarkredit” Səhmdar Kredit Təşkilatının İdarə Heyətinin sədri vəzifəsində çalışan Musayev eyni zamanda ”TuranBank”ın qeyri-rəsmi sahibidir. Verilən məlumatlara görə, Elman Rüstəmovla yaxın dost olan ”Şapka Mamed”in baş bankirlə həm də biznes ortaqlıqları var. Elə müxtəlif banklardan götürülən və geri qaytarılmayan kreditlərin böyük bir hissəsini onlar məhz birlikdə xərcləyiblər.

Bu səbəbdən də Mərkəzi Bankın yeni binasının inşası üçün sərf olunacaq yarım milyard manatın müəyyən qisminin M.Musayevin üzərində qalacağını təxmin etmək çətin deyil.

İqtisadçı ekspert Natiq Cəfərli mövzuyla bağlı bildirib ki, Azərbaycanda dövlət qurumlarının inzibati binasının tikintisiylə bağlı əvvəllər neftin qiymətinin baha olduğu, ölkəyə çoxlu valyutanın gəldiyi vaxt qərara alınıb ki, şəhərin ümumi mənzərəsini dəyişdirmək məqsədilə Heydər Əliyev prospektində Nyu Yorkda, Londonda, Parisdə olduğu kimi biznes məhəllələr olsun: “Buna görə də Heydər Əliyev prospektində bir sıra inzibati binaların tikintisi üçün qərar verilmişdi. 2007-2008- ci illərdə bu trend başladı. Çünki o zaman neftin qiyməti 140-150 dollar arası idi. Azərbaycana büdcəsindən 3 dəfə artıq valyuta gəlirdi. Həmin təmirtikinti işləriylə əlaqədar həm də iqtisadi aktivliyin formalaşdırılması yolu tutulmuşdu. Sonradan bu qərarlar o qədər məntiqsiz hal aldı ki, bu da insanlarda suallar yaratdı. Məsələn, “Azərsu”nun yeni binası 200 milyon manatdan yuxarı vəsaitə başa gəlib. Amma ölkənin bir çox yerlərində normal su təchizatı yoxdur. Bu zaman sual yaranır ki, inzibati binamı lazımdır, yoxsa yaxşı xidmət göstərməkmi? Belə halda artıq verilən qərarların rasional olmadığı üzə çıxır. Bundan başqa, dövlət qurumları o zaman özlərinə bina tikə bilərlər ki, onlar gəlirlə işləsin və bu halda mənfəətlərinin bir hissəsini özlərinin maddi-texniki təchizatının yaxşılaşdırılmasına xərcləyə bilərlər. Dövlət şirkətlərinin demək olar hamısı ziyanla işləyir. Buna görə də dövlətdən dotasiyalar alırlar.

Bu yaxınlarda “Azərxalça” ilə bağlı hadisəni hamımız gördük. Eyni məsələ Mərkəzi Banka da aiddir. Mərkəzi Bank əlavə dəyər yaratmayan dövlət qurumudur. Sadə dillə desək, Mərkəzi Bank pul qazanmır. Pul qazanmadığı halda bu qədər böyük vəsaitə yeni binaya köçməyə nə ehtiyac yaranıb? Bunu Mərkəzi Bank bu günə kimi izah etməyib. 1998- ci ildə şəhərin mərkəzində Mərkəzi Bank üçün müasir bir bina tikilib. Mərkəzi Bankın işçi sayı o qədər çox deyil ki, o binaya yerləşməsin. Orada minlərlə yox, onlarla insan çalışır. Ona görə də yeni binanın tikintisinin iqtisadi əsaslandırılması olmalı idi. Bu əsaslandırmanı biz görmürük. İndiki dövrdə həm ölkənin gəlirlərinin azaldığı, həm də pandemiya şəraitində işğaldan azad edilmiş torpaqlara çoxlu vəsaitə ehtiyac duyulduğu zamanda öncədən alınmış qərarın ləğv edilməməsi, yenidən məsələnin gündəmə gəlməsi tamamilə məntiqsiz və irrasional bir yanaşmadır. Az qala yarım milyard manata yaxın vəsaitin xərclənməsiylə bağlı belə bir qərarın verilməsi yersizdir. Həmin vəsaiti əlavə iş yerləri yaratmağa, sosial problemlərin həllində istifadəyə sərf etmək olardı. Bu qədər xərc istiqamətləri varkən heç bir lüzum olmadan belə binanın tikintisinə qərar verilməsini iqtisadi və sosial məntiqlə izah etmək mümkün deyil”.

***Orxan Həsənli***

# "Azərxalça"dakı həbsin pərdəarxası...

## Vidadi Muradovu zindana aparan səbəblərin siyahısı daha geniş imiş

***Yola salmaq üzrə olduğumuz həftə Baş Prokurorluq "Azərxalça" ASC-nin İdarə heyətinin sədri vəzifəsində işləmiş Muradov Vidadi Aydın oğlunun qanunsuz əməlləri ilə əlaqədar daxil olmuş materiallar əsasında aparılmış araşdırma nəticəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlandığı barədə məlumat yaydı.***

Məlumatda aparılmış istintaq tədbirləri ilə Vidadi Muradovun qeyd olunan vəzifədə işləyərkən digər şəxslərlə qabaqcadan əlbir olaraq "Azərxalça" ASC-yə məxsus xalça istehsalı üçün nəzərdə tutulan ipin formal müqavilələrin bağlanması yolu ilə alqı-satqısı məqsədi ilə bir neçə hüquqi şəxsə məxsus bank hesablarına ümumilikdə 3 milyon 435 min manat məbləğdə pul vəsaitinin köçürülməsinə və həmin məbləğin 1 milyon 149 min manat olan hissəsinin nağdlaşdırılmaqla mənimsəməsinə, hərəkətləri ilə cəmiyyətin qanunla qorunan əmlak və sair hüquqlarına, habelə qanuni mənafelərinə mühüm zərər vurmaqla vəzifə səlahiyyətlərindən sui-istifadə etməsinə, eləcə də rəsmi sənədlərə bilə-bilə yalan məlumatları daxil etməklə vəzifə saxtakarlığı törətməsinə əsaslı şübhələr yarandığı qeyd olunub.

Həmçinin V.Muradovun cəmiyyətə məxsus müxtəlif ölçülü xalçaları təsisçisi olduğu "Azər-İlmə" MMC-yə ucuz qiymətə satılmasına nail olmaqla 339 min 427 manat məbləğində əmlakı mənimsədiyi, eləcə də, xarici bazarlarda 800 min ABŞ dolları, həmin dövrün rəsmi məzənnəsi ilə 1 milyon 360 min manat təşkil edən yun təmizləmə xəttinin alınmasının mümkün olmasına və həmin alqı-satqının rəhbəri olduğu Cəmiyyət üçün maddi baxımdan daha səmərəli olmasına baxmayaraq, istintaqla şəxsiyyətləri araşdırılan qeyriləri ilə qabaqcadan əlbir olaraq Cəmiyyət üçün maddi cəhətdən daha ağır şərtlərlə, Almaniya Federativ Respublikası ərazisində fəaliyyət göstərən şirkətlərdən biri ilə dəyəri 5 milyon 314 min avro (10 milyon 167 min manat) təşkil edən podrat müqaviləsini bağladığı, müqavilənin tərkib hissəsi kimi yun təmizləmə xəttinin alınması üçün 1 milyon 800 min avro (3 milyon 444 min manat) məbləğində pulun "Azərxalça"nın bank hesabından şirkətin bank hesabına ödənilməsinə nail olmaqla, ASC-yə məxsus cəmi 2 milyon 84 min manat məbləğində əmlakı israf etməsinə şübhələr yarandığı bildirilib.

Haqqında Azərbaycan Respublikası CM-nin 179.4 (mənimsəmə xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham elan edilən "Azərxalça" rəhbəri barəsində məhkəmə qərarı ilə həbs qətimkan tədbiri seçilib.

"Unikal"a daxil olan məlumata görə, adıçəkilən ASC sədrinin korrupsiya əməlləri barədə araşdırmalar davan etdirilir. Aparılan istintaq-əməliyyat tədbirləri nəticəsində "Azərxalça" rəhbəri tərəfindən törədilmiş cinayətlərdə hər hansı formada iştirak etmiş şəxslər müəyyənləşdirilir. Bu səbəbdən yeni həbslərin ola biləcəyi istisna olunmur.

Qəzetimizin əldə etdiyi informasiyalara görə, "Azərxalça"dakı korrupsiyanın miqyası yuxarıda sadalananlarla müqayisədə daha genişdir. Məsələn, bu ASC üçün bölgələrdə tikilən istehsal müəssisələrinin inşası zamanı smetalar şişirdilib, bununla bərabər inşaat işlərində çalışan işçilər bəzi hallarda halal əmək haqlarını ala bilməyiblər.

Həmçinin sözügedən istehsalat müəsissələri üçün alınan qurğuların qiyməti də real dəyərindən ən azı iki-üç dəfə artıq göstərilib. Bununla bağlı vətəndaşlardan zaman-zaman aidiyyatı dövlət orqanlarına şikayətlər ünvanlanıb. Həmin şikayətlər də "Azərxalça" rəhbərinin həbsində mühüm rol oynayıb. Başqa bir önəmli məqam isə "Azərxalça"da işçilərin əməyinə verilən qiymətdir. Daha doğrusu, əməyin düzgün qiymətləndirilməməsidir. Onlara ödənilən məvacibin az olması azmış kimi, ötən ilin mayında ASC əməkdaşlarının üç aylıq əməkhaqqı ala bilmədikləri ortaya çıxıb. Qurumun Qəbələ filialının işçiləri deyib ki, hər gün işə gətsələr də, əmək haqlarını ala bilmirlər, bu isə ailələrini çətin vəziyyətə salıb.



Bəzi işçilər maaş ala bilmədikləri üçün pandemiyaya görə verilən 190 manat üçün müraciət etdiklərini, lakin imtina cavabı aldıqlarını da bildirib.

Həmin vaxt "Azərxalça"nın mətbuat xidmətinin rəhbəri Tural Səfərov bildirib ki, "qurumun 21 filialının əməkdaşları fevral ayından əməkhaqqı almayıb". Ən komiki isə odur ki, Səfərov bunu koronavirusa görə tətbiq edilən məhdudiyyətlərdən sonra "Azərxalça" məhsullarının həm yerli, həm də dünya bazarlarında satışının xeyli azalması ilə izah edib. Komik olan nədir? Koronavirusa görə məhdudiyyətlər dünya ölkələrində daha çox martdan tətbiq edilib, elə isə "Azərxalça"nın hələ fevraldan maaş verə bilməməsini bununla əsaslandırmaq hansı məntiqə sığır? Üstəlik, xarici ölkələrə kifayət qədər böyük məbləğlərlə, bəzən hətta on, yaxud yüz minlərlə manata xalça satmaq iqtidarında olan, Baş prokurorluğun da məlumatından göründüyü kimi, milyonlarla avroluq korrupsiyaya imkan tapan qurum necə ola bilər ki, əməkdaşlarının onsuz da az sayıla biləcək məvacini ödəyə bilməsin?

Bütün bu məqamlar, fakt və arqumentlər onu göstərir ki, V.Muradovun həbsi qətiyyən təəccüblü deyil. Əksinə, "Azərxalça" rəhbərinin həbsinə gətirib çıxaran səbəblərin siyahısı daha uzundur və yəqin ki, davam etdirilən istintaq- əməliyyatları daha sensasion məqamları ortaya çıxaracaq.

Odur ki, gözləyək...

***Sənan Mirzə***

# Nəzarətçi müəllimlərdən 4 nəfəri şəhid olub - RƏSMİ

***"Bir il ərzində nəzarətçi müəllimlər sertifikatlaşdırılmadan keçirilib".***



Unikal.org xəbər verir ki, bunu Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə imtahanlarda fərqlənmiş nəzarətçi müəllimlər və imtahan rəhbərləri ilə onlayn görüşündə çıxışı zamanı bildirib.

Onun sözlərinə görə, nəzarətçilərin qiymətləndirilmə meyarlarına gəldikdə, həmin nəzarətçilər son 10 il ərzində mütəmadi imtahanlarda iştirak edən, nəzarət etdikləri otaqlarda imtahanlar zamanı köçürmə halı aşkarlanmayan, qeyri-kafi qiymət almayan və yekun qiyməti 4 olan (hər bir nəzarətçi müəllimin işi imtahan rəhbəri protokolunda qiymətləndirir), ən azı 15, son 2 il ən azı 3 qəbul imtahanında iştirak edən müəllimlərdir. Belə kriteriyalara uyğun gələrək təşəkkürnamə alan nəzarətçilər 80 rayon və şəhərdə seçilib. Bu nəzarətçilərlə bağlı məlumat məktəblərə, təhsil şöbələri və Təhsil Nazirliyinə göndərilir: "Təltif olunan nəzarətçilər arasında fəxri fərmana layiq görülən 38 müəllimdir. Həmin müəllimlərin son 5 ildə fəaliyyəti yüksək qiymətləndirilib, ən azı 25 imtahanda iştirak edib. 600-dən yuxarı bal toplayan şagirdlər həmin nəzarətçilərin fəaliyyətini yüksək qiymətləndirib. 12 il ərzində 363 belə müəllim təltif olunub. Ötən ilki imtahanlarda iştirak edən 50 nəzarətçi müəllim Vətən Müharibəsində də iştirak ediblər. Onlar müəllimlik borcunu yerini yetirdikdən sonra cəbhədə vuruşublar. Bu müəllimlər sırasında 4 nəfəri şəhid olub".

# Ötən il 10 yeni KOB subyekti yaradılıb

***Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin (KOB) bilik və bacarırlarının artırılması, innovasiyalara çıxışının genişləndirilməsi məqsədilə 2020-ci ildə Bakı, Sumqayıt, Xaçmaz və Yevlax şəhərlərində 4 KOB inkişaf mərkəzi fəaliyyətə başlayıb.***

Bu barədə "Unikal"a İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən məlumat verilib. Bildirilib ki, ötən il bu mərkəzlər tərəfindən müxtəlif mövzularda 100-ə yaxın təlim keçirilib, 2500 saata yaxın məsləhət xidməti göstərilib ki, bu xidmətlərdən 1 200-ə qədər KOB subyekti, startap və biznesə yeni başlayanlar yararlanıb.

Qeyd edək ki, KOBİA strukturuna daxil olan KOB inkişaf mərkəzlərində ödənişsiz olaraq KOB subyektləri, startaplar və biznesə başlamaq istəyənlərin biznesyönümlü bilik və bacarıqlarının artırılması üçün təlimlər təşkil olunur, məsləhət xidmətləri göstərilir, təcrübə proqramlarında iştiraka, biznes ideyaların maliyyə resurslarına yönləndirilməsinə dəstək təmin olunur.

Həmçinin, 2020-ci il ərzində KOB inkişaf mərkəzləri tərəfindən ödənişsiz olaraq sahibkarlara 150-yə yaxın biznes planının hazırlanmasında dəstək göstərilib.

KOB inkişaf mərkəzlərinin dəstəyi ilə 2020-ci ildə 10 yeni KOB subyekti yaradılıb ki, bunun 4-ü fərdi sahibkar, 6-sı isə MMC-dir. Yeni yaradılmış sahibkarlıq subyektləri Quba-Xaçmaz iqtisadi rayonu və Sumqayıt şəhərlərində kənd təsərrüfatı və xidmət sektorlarında fəaliyyət göstərirlər. KOB inkişaf mərkəzləri tərəfindən bu KOB-lara dəstək tədbirləri hazırda da davam etdirilir. Eyni zamanda, KOB inkişaf mərkəzlərinin təlim və məsləhət xidmətlərindən yararlanmış qadınlara beynəlxalq layihə çərçivəsində qrant ayrılmasına dəstək göstərilib, mərkəzlərin xidmətlərindən istifadə etmiş 50-dən çox vətəndaş özünüməşğulluq proqramı ilə əlaqələndirilərək müvafiq aktivlərlə təmin olunub.

2020-ci ildə beynəlxalq təcrübənin öyrənilməsi və işgüzar əlaqələrin inkişaf etdirilməsi məqsədilə 29 sahibkar və menecer "Azərbaycanın biznes ictimaiyyətində menecerlərin ixtisasının artırılması üzrə Almaniya-Azərbaycan birgə Proqramı"dan yararlanıb. KOBİA və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) əlaqələndiricisi olduğu proqram çərçivəsində 2021-ci ildə də Azərbaycan sahibkar və menecerlərin beynəlxalq təcrübəni öyrənməsi və işgüzar əlaqələrini inkişaf etdirməsi üçün tədbirlər davam etdiriləcək.

Yaxın aylarda həmçinin, KOB subyektlərinin təlim və tədris imkanlarının artırılması, biznes sahəsində qabaqcıl təcrübənin öyrənilməsi üçün video təlim platforması istifadəyə veriləcək. Bu platformada KOB subyektlərinin ehtiyaclarına uyğun istiqamətlər üzrə təlim videoları, tədris materialları və özünüqiymətləndirmə testləri yerləşdiriləcək.



# ASC əməkdaşları cəbhə bölgəsində

***Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin əməkdaşları Suqovuşan su anbarına, magistral kanala, Sol Sahil və Xanarx kanallarına baxış keçiriblər.***

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin nümayəndəsi Dilqəm Şərifovun "Unikal"a verdiyi məlumata görə, Tərtərçay hidroqovşaq suvarma sisteminə daxil olan Tərtərçay Sol Sahil və Xanarx kanallarının yenidən qurulması üçün texniki-iqtisadi əsaslandırmanın hazırlanması və layihələndirmə işlərinə başlanılıb. Kanalların yenidən qurulması Prezident İlham Əliyevin "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2020-ci il 27 iyul tarixli Sərəncamına əsasən həyata keçiriləcək.

Tərtər rayonunun Suqovuşan kəndi ərazisində Tərtərçay çayı üzərində yerləşən Suqovuşan su anbarının ümumi həcmi 5,86 milyon kubmetrdir. Tərtərçay və Turağayçay çaylarından daxil olan sular işğaldan əvvəl su anbarında tənzimlənərək, ümumi suburaxma qabiliyyəti saniyədə 70 kubmetr olan əsas magistral kanala, kanalın 5,2 kilometrdən sonra isə hər birinin suburaxma qabiliyyəti saniyədə 50 və 20 kubmetr olan Sağ Sahil və Sol Sahil magistral kanallarına verilirdi. Suqovuşan su anbarı 28 il ərzində işğal altında olduğundan Tərtər, Goranboy, Yevlax, Bərdə, Ağdam və Ağcabədi rayonlarının, ümumilikdə, 96 min 217 hektar torpaq sahələrinin su təminatında ciddi çətinliklər yaranmışdı. Azərbaycan Ordusu tərəfindən Suqovuşan kəndinin azad edilməsi ilə bu ərazilərin su təminatındakı çətinliklər aradan qaldırılacaq.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin Tərtərçay Hidroqovşağı İstismar İdarəsinin baş mühəndisi Mehman Kərimov deyib: "Suqovuşan su anbarından ayrılan Sol Sahil magistral kanalı hazırda bərbad vəziyyətdədir. Kanalın bir çox yerləri dağıdılıb, ondan istehkam məqsədilə istifadə edilib. Hazırda Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin layihə institutu tərəfindən layihə-smeta işləri həyata keçirilir. Qısa müddət ərzində Tərtər Sol Sahil kanalı bərpa ediləcək. Təsərrüfatların su təminatı yaxşılaşacaq".

Su təsərrüfatı obyektlərinin layihələndirilməsi üzrə Azərbaycan dövlət institutunun əməkdaşları işğaldan azad edilmiş Suqovuşan kəndində olub, Tərtərçay hidroqovşaq suvarma sisteminə daxil olan Suqovuşan su anbarına, magistral kanala, Sol Sahil və Xanarx kanallarına baxış keçiriblər.

İnstitutun direktoru Elbrus Paşayev bildirib ki, Tərtər Sol Sahil kanalının və Xanarx kanalının yenidən qurulmasına başlanılıb. "Lakin subölüşdürücü qurğuya qədər olan 5,2 kilometrlik məsafə, yəni Tərtər kanalında da təmir-bərpa işlərinə ehtiyac var. Ermənilər işğal zamanı kanalın qarşısını beton sədlərlə kəsərək, onun irriqasiya funksiyasını enerji istehsal etmə funksiyasına çevirmişlər. Bu məsələlərə layihədə yenidən baxılacaq və lazımi tədbirlər görüləcək. Çünki bu kanalın əsas qayəsi irriqasiya üçündür. Bu kanal vasitəsilə bir neçə rayonun əkin sahələrinin suvarılması həyata keçirilir".

Əraziyə baxış keçirilən zaman erməni işğalçıları tərəfindən Sol Sahil kanalının dağıdılaraq yararsız hala salındığı məlum olub. Bundan başqa uzun illər ərzində kanalın istifadəsiz qalması səbəbindən kanalın beton üzlüyü sıradan çıxıb.

Su təsərrüfatı obyektlərinin layihələndirilməsi üzrə Azərbaycan dövlət institutunun əməkdaşı Akif Sultanov deyib: "İşğal zamanı Sol Sahil magistral kanalının bir çox hissəsi dağıdılıb, səngərlər qazılıb. Bundan başqa 30 il müddətində baxımsız qalması səbəbindən kanalın beton üzlüyü sıradan çıxıb. Odur ki, kanalın yenidən qurulma layihəsinin verilməsini məqsədəuyğun hesab edirik. Kanal yenidən qurulduqdan sonra suyun təsərrüfatlara çatdırılması mümkün olacaq".

Layihələndirmə işləri başa çatdırıldıqdan sonra Tərtərçay Sol Sahil və Xanarx kanallarının yenidən qurulmasının qısa vaxtda həyata keçirilməsi nəzərdə tutulur. Bu kanalların yenidən qurulması ilə Tərtər, Goranboy, Yevlax və Bərdə rayonlarının 20 min hektara yaxın əkin sahələrinin su təminatı yaxşılaşdırılacaq. Bu isə gələcəkdə əkinlərin davamlı aparılmasına, su qıtlığının aradan qaldırılmasına, kənd təsərrüfatında yüksək məhsuldarlığın əldə edilməsinə səbəb olacaq.

***Hüseyn***

# Azərbaycan məmurlarının oğurluq elmi adları...

## Avstriyada nazirin oğurluq dissertasiya iddiasına görə istefa verməsi bizə niyə gülməli görünür?

***Dörd gün öncə xəbər saytlarında belə bir informasiyaya rastlamaq olardı: Avstriyanın federal əmək, ailə və gənclər naziri Kristine Aşbaxer istefa verib. Buna isə həmin nazirə qarşı yönəlmiş plagiat ittihamları səbəb olub.***

İttihamlara görə, K.Aşbaxer magistr və doktor elmi işlərində plagiata yol verib, bütöv hissə və fəsilləri digər müəlliflərin əsərlərindən köçürüb.

Lakin o bildirib ki, nazir olarkən Slovakiya Texniki Universitetində təqdim etdiyi dissertasiya işində plagiata yol verilməsi barədə məlumat həqiqəti əks etdirmir və bu məsələ bir sıra qüvvələr tərəfindən



qəsdən şişirdilir. Nazir yekunda qeyd edib ki, şərəf və ləyaqətini qorumaq üçün tutduğu vəzifədən istefa vermək qərarına gəlib.

Bəs bu xəbəri Azərbaycan oxucusu üçün diqqətçəkici edən nədir?

Məsələ burasındadır ki, ölkəmizdə də zaman-zaman plagiat dissertasiyalar məsələsi gündəmə gəlir. Üstəlik, belə məsələlərdə müəyyən məmurların da adı hallanır. Lakin buna görə istefa vermək bir yana qalsın, heç üzr istəyən də yoxdur.

Hamıya gün kimi aydındır ki, Azərbaycanda vəzifəli şəxslərin, biznesmenlərin, bir sözlə, irili-kiçikli oliqarxların elmi dərəcə almaları son illər xeyli adiləşib. Bu isə istər cəmiyyətdə, istərsə də KİV-də geniş müzakirə mövzusudur. Belə ki, hökumətdə kifayət qədər məsul postlar tutan, gərgin iş qrafiki olan və xalqın təbirincə desək, "başını qaşımağa vaxtı olmayan" iri məmurların necə elmi ad aldıqları maraq və mübahisə doğurur.

İddialara görə, bəzi məmurların, pullu adamların elmi işləri ya plagiat xarakteri daşıyır, ya da onlar pul müqabilində başqalarına yazdırır. Xüsusilə ölkədə alimlərin dolanışıq səviyyəsinin çox aşağı olması elmi ad arzusuna düşən məmurların, iş adamlarının karına gəlir. Elə ona görə də xeyli elm adamının "çörəyinin" məhz pullu, vəzifəli şəxslərə dissertasiya yazmaqdan keçdiyini indi ölkəmizdə bilməyən, demək olar, yoxdur...

Lakin indiyədək belə hallarla bağlı nə aidiyyatı orqanlar tərəfindən genişmiqyaslı araşdırmalar aparılıb, nə də kimlərinsə cəzalandırıldığı məlum olub.

Mütəxəssislərin fikrincə, Azərbaycanda "dissertasiya alveri"nin qarşısının alına bilinməməsinin başlıca səbəbi elmi işlərin mövcud kodlaşdırma sistemidir. Professor Aida Qasımovanın təxminən iki il öncə bu mövzuda dəyərli bir yazısı vardı. O qeyd edirdi ki, sözügedən sistem özünü doğrultmur. Hazırda inkişaf etmiş ölkələrin bir çoxunda dissertasiyalarda "footnote" sistemindən istifadə olunur. Bu halda həm istifadə olunan ədəbiyyat göz önündə olur, həm də müəllif dissertasiyaya yerləşdirə bilmədiyi fikirləri aşağıda, qeydlərdə verir. Sovet dövründən qalma əcaib kodlaşdırmadan Rusiyada da əl çəkilib.

Üstəlik, artıq bir çox ölkələrdə dissertasiya işləri müvafiq elmi müəssisələrin, universitet və kolleclərin saytında yerləşdirilir. Mütəxəssislərin fikrincə, bu cür aşkarlıq ölkəmizdə də tətbiq olunsa, dissertasiyalarda plagiata yol verilməsinin qarşısı alınar. Yəni peşəkar oğrular azından rüsvay olacaqlarından qorxarlar. Belə olsa, müəssisənin nüfuzu naminə dissertasiyaların elmi səviyyəsinə daha çox diqqət yetirilər.

Mütəxəssislər bildirirlər ki, hər bir elmi əsər müəllifi öz sahəsi ilə bağlı bütün ədəbiyyata bələd olmasını nümayiş etdirməlidir. Hazırda humanitar sahədə konkret ədəbiyyat sayı kimi bir tələbin olmaması heç də bir-iki kitabdan "istifadə" kimi başa düşülməməlidir. Təəssüf ki, bir çox elmi əsərlərdə istifadə olunan ədəbiyyatın kasadlığı nəzərə çarpır. Bəzən yüzlərlə kitabı əhatə edən ədəbiyyat siyahısı müqabilində cəmi 10-15 ədəbiyyatdan istifadə edilir. Nəinki xaricdə, hətta ölkəmizdə nəşr olunan əsərlərə də tam bələd olma nəzərə çarpmır. Humanitar sahədə saxta istinad hallarına da rast gəlinir. Bu özünü daha çox plagiat əsərlərdə göstərir. "Müəllif" plagiat faktını gizlətmək üçün bəzən yazıya sanki istinad "bəzəyi" vurur, dəxli olmaya əsərlərə "istinad verir".

Digər tərəfdən, Ali Attestasiya Komissiyasındakı (AAK) anonim rəylərin də həmin müəssisənin öz saytında yerləşdirilməsi faydalı olar. Çünki bəzən dissertantlar nə üçün işlərinə mənfi rəy yazılmasını başa düşmür, qərəzçilik axtarır, şikayət edir və yaxud əlavə səylər göstərib dərəcə almaqda israrlı olurlar. AAK-nın saytında yerləşdirilən rəylər bu qurumun ekspertlərinin də məsuliyyətini artırar.

Problemlərin siyahısını uzatmaq olar. Lakin məsələ onların həlli istiqamətində real addımlar atılmamasıdır. Görünür, bu kimlərinsə, hansısa səbəblərdən maraqlarına ziddir.

Nəticədə Azərbaycan elmi bəziləri üçün "yarmarka" vasitəsinə çevrilir. Plagiat "elmi işlər" at oynadır, istənilən məmur, biznesmen asanlıqla "alim" adı qazanır. Buna görə isə nə hüquqi məsuliyyətdən çəkinir, nə də ictimai qınaqdan. Yəqin buna görə Avstriyada bir nazirin oğurluq dissertasiya iddiasına görə istefa verməsi bizə qəribə, gülməli görünür.

Halbuki vəziyyət gülməli yox, ağlamalıdır - əlbəttə, elmimiz üçün...

***Toğrul Əliyev***

# Ermənistan müxalifəti İlham Əliyevin qələbəsini etiraf edir



***İkinci Qarabağ müharibəsində ağır məğlubiyyətlə üzləşən Ermənistanda sular durulmaq bilmir. Ölkədə gərgin vəziyyət davam edir.***

Ermənistan rəsmiləri və ümumilikdə siyasət adamları ölkənin yalnız siyasi həyatı deyil, iqtisadi, sosial, humanitar sahələrinin də iflic vəziyyətə düşdüyünü etiraf edirlər. Ekspertlər ölkədə müharibədən sonrakı vəziyyəti faciə kimi qiymətləndirirlər. Onların fikrincə, əgər Ermənistan öz iddialarından əl çəkərsə və fəaliyyətini bölgənin inkişaf perspektivinə hesablanmış və bütün region ölkələrinin mənafelərinə uyğun olan iqtisadi, kommunikasiya, əməkdaşlıq məsələlərinin reallaşdırılması istiqamətində qurarsa, bundan yalnız fayda götürəcək və gərgin durumdan çıxa biləcək.

Ermənistan müxalifəti də deyəsən artıq reallığı dərk edir, Azərbaycanın hərbi gücünü və ümumilikdə potensialını qəbul edərək indiki iqtidarın (Paşinyanın komandası-red) yol verdiyi səhvləri təkrarlamamağı məqsədəuyğun hesab edir. Belə ki, Ermənistan müxalifətinin lideri, Nikol Paşinyanın əsas rəqibi olan Vazgen Manukyan revanşist ideyaların onlara xeyir verməyəcəyi qənaətindədir.

Onun RBK-ya verdiyi müsahibəsində bir sıra məqamlara toxunulub ki, bunlardan biri də uduzulmuş Qarabağ müharibəsi və ümumilikdə yeni zərərli müharibə ideyaları ilə bağlıdır. Manukyan baş nazir Nikol Paşinyanı tənqid edərək deyib ki, indiki iqtidar erməni cəmiyyətinə ancaq zərər vurub. Nikolun "narıncı inqilab" nəticəsində hakimiyyətə gəldiyini xatırladan müxalifət lideri, ötən müddətdə onun əsas işinin cəmiyyətdə bölücülük salmaq olduğunu və baş nazirə bəslənən ümidləri puça çıxardığını vurğulayıb:

"Rəngli inqilablar" heç vaxt yaxşı bitmir. Bu cür inqilabların ardınca, hakimiyyətə rəhbərlik etməyə hazır olmayan, əsasən səriştəsiz insanlar gəlirlər".

Maraq üçün xatırladaq ki, 2018-ci il hadisələri zamanı Azərbaycan müxalifəti də Ermənistanın düz yolda olduğunu, çevriliş, güc yolu, rəngli inqilablarla hakimiyyət dəyişikliyinin, idarəçiliyə küçədən təcrübəsiz şəxslərin gətirilməsinin erməni cəmiyyətinə müsbət şeylər vəd etdiyini gecə-gündüz təbliğ edirdi. İndi isə sadə ermənilərdən tutmuş, siyasi elitaya qədər ölkəyə səbatsız birinin rəhbərlik etməsinin nə dərəcədə təhlükəli olmasını etiraf etməyə başlayıblar.

### "Paşinyan "Ermənistanın Elçibəyi" oldu"

Vazgen Manukyanın İkinci Qarabağ müharibəsi ilə bağlı fikirləri də diqqət çəkir. O qeyd edib ki, müharibənin gedişində Paşinyan cəbhədə baş verənləri yetərincə dərk etmək qabiliyyətində olmayıb. Müxalif lider ağır itkilərə görə indiki iqtidarı günahlandırıb. "Əgər Paşinyan rayonları döyüşsüz qaytaracaqdısa, niyə bunu əvvəldən etmirdi, ortada bu qədər itkilər oldu", - deyə o söyləyib. Həmçinin qeyd edib ki, müharibənin gedişində Rusiya Ermənistanın yerinə vuruşmalı deyildi. Gözlənildiyi kimi bu baş vermədi.

Manukyan bir məqamı xüsusilə xatırladaraq bildirib ki, Birinci Qarabağ müharibəsində Azərbaycanda Əbülfəz Elçibəy kimi bir şəxsin hakimiyyətdə olması Ermənistanın qələbəsini təmin edib. Onun fikrincə, hazırda Paşinyan "Ermənistanın Elçibəyi"dir.

"İndi Azərbaycan bizim Elçibəyimizin olmasından istifadə etdi",- deyə müxalifət lideri söyləyib.

Erməni siyasətçi hazırda ölkəsində Azərbaycana qarşı revanşizm barədə düşünməyin mənasız olduğunu dilə gətirib. Manukyana görə, müharibəyə yenidən başlamaq Ermənistanın maraqlarına cavab vermir.

### Moskva görüşündə qazanan tərəf Azərbaycandır

Müsahibədə diqqət çəkən digər məqam isə odur ki, Ermənistan müxalifəti Moskva görüşündə Azərbaycan Prezidenti İlham Əliyevin diplomatik qələbəsini etiraf edir. Manukyan vurğulayıb ki, Moskva görüşündə Ermənistan heç nə qazanmadı, Azərbaycan isə əksinə, nə lazımdırsa, əldə etdi.

Onun sözlərinə görə, kommunikasiyalar haqqında danışanda ümumi yuvarlaq ifadələr deyirlər. Rabitə məsələsi gündəmə gələndə isə bu, Azərbaycanın maraqlarını təmin etmək deməkdir: "Üçtərəfli danışıqlar zamanı heç bir şey qazanmadıq, Azərbaycan lazım olanı aldı. Bu Naxçıvanı Azərbaycanla birləşdirəcək yoldur".

Xatırladaq ki, Vazgen Manukyan Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün fəal mübarizə aparmış şəxslərdən biridir. Uzun müddətdir ki, baş nazir Nikol Paşinyanın istefasını tələb edən Ermənistanın 17 siyasi partiyası bu posta namizəd olaraq məhz 74 yaşlı Vazgen Manukyanı irəli sürüb. O, ölkə siyasətinin ən yaşlı simalarından biri sayılır. Qarabağdakı separatizmin çiçəklənməsində böyük rolu olan Manukyan "Qarabağ" komitəsinin də üzvü olub. Erməni siyasətçi 1990-91-ci illərdə baş nazir, 1992-1993-cü illərdə müdafiə naziri postlarını tutub.

90-cı illərin əvvəllərində "Milli Demokratik Qüvvələr" adlı partiya yaradan indiki müxalifət lideri 1995-2007-ci illərdə ölkə parlamentində təmsil olunub. 2009-cu ilin martında o vaxtkı prezident Serj Sarkisyanın yaratdığı İctimai Şuranın sədri seçilib. Hazırda Ermənistan müxalifətinin vahid namizədidir. Onun Nikol Paşinyandan sonra hakimiyyətdə əsas fiqur olacağı ehtimal edilir.



## Nazir sahibkarlara verilən güzəştli kreditlərin həcmini açıqladı

***Ötən il Sahibkarlığın İnkişafı Fondu tərəfindən sahibkarlara verilən güzəşli kreditlərin həcmi açıqlanıb.***

Unikal.org xəbər verir ki, bununla bağlı İqtisadiyyat naziri Mikayıl Cabbarov "Twitter" hesabında paylaşım edib.

Nazir bildirib ki, 2020-ci il ərzində 908 sahibkara 127 milyon manatadək güzəştli kredit verilib:

"İqtisadiyyata güzəştli kredit dəstəyi çərçivəsində 2020-ci il ərzində Sahibkarlığın İnkişafı Fondu tərəfindən 908 sahibkara 127 mln. manatadək güzəştli kredit verilib. Bu kreditlər hesabına 2700-dən çox yeni iş yerinin açılması imkanı yaranıb".

## Qəbul imtahanına Vətən müharibəsilə bağlı suallar salınacaq

***44 günlük Vətən müharibəsi ilə bağlı suallar qəbul imtahanlarına salınacaq.***

"Unikal" xəbər verir ki, bunu Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə deyib. O bildirib ki, Vətən müharibəsi ilə bağlı abituriyentlərin istifadə edəcəyi müəyyən məqalələr çap ediləcək.

"Bu məqalələri çap edəcəyik ki, imtahanda iştirak edən hər bir şəxs faktları əldə eldə bilsin. Tarix dərsliyimizdə işğaldan azad olunan rayonların işğal tarixləri qeyd edilib. Lakin indi o rayonlar azaddır. Bizim qəbul imtahanında real tarix haqqında sual verməyə ixtiyarımız var. Çünki 17-18 yaşında olan şagirdlər bu tarixi yaşayıb. Yaxın günlərdə qəbul imtahanları ilə bağlı proqram çap olunacaq", - deyə DİM sədri qeyd edib.

## Azərbaycan və İran hərbi-texniki əməkdaşlığı müzakirə olundu

***Yanvarın 14-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov İran İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Seyid Abbas Musəvi ilə görüşüb.***

Səfiri ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edən Müdafiə naziri ona Azərbaycan ilə İran arasında əməkdaşlığın genişləndirilməsi istiqamətində uğurlar arzulayıb.

Müdafiə naziri Vətən müharibəsi zamanı İranın Azərbaycanın mövqeyini dəstəklədiyinə görə səfirə minnətdarlığını bildirib, İran İslam Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-leytenant Məhəmməd Hüseyn Baqeriyə, Müdafiə və silahlı qüvvələrə dəstək naziri general-mayor Əmir Hatəmiyə salamlarını çatdırmasını xahiş edib.

Müdafiə naziri Azərbaycan-İran münasibətlərinin inkişafında ölkə başçılarının görüşlərinin mühüm rol oynadığını qeyd edərək hərbi sahədə də əməkdaşlığın uğurla davam etdiyini vurğulayıb.

Öz növbəsində diplomat Vətən müharibəsində qazanılan qələbə münasibətilə ölkəsi adından Azərbaycan xalqını və dövlətini təbrik edib, şəhid olan hərbi qulluqçulara və mülki şəxslərə Allahdan rəhmət, yaralılara isə şəfa diləyib.

S.A.Musəvi dost ölkə olan Azərbaycanda səfir kimi fəaliyyətə başlamasından məmnun olduğunu, ölkələrimiz arasında əlaqələrin, xüsusilə hərbi sahədə əməkdaşlığın inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirib. Səfir iki ölkə arasında hərbi əməkdaşlığın inkişaf etməsinin regional təhlükəsizliyin təmin olunmasında vacib amil olduğunu qeyd edib.

Tərəflər hərbi sahədə əməkdaşlığın genişləndirilməsi və hər iki ölkənin hərbi nümayəndələrinin qarşılıqlı səfərlərinin təşkili barədə fikir mübadiləsi aparıblar.

Görüşdə Azərbaycan ilə İran arasında hərbi əməkdaşlığın mövcud vəziyyəti, hərbi-texniki, hərbi təhsil və hərbi tibb sahələrində əlaqələrin inkişaf perspektivləri, həmçinin regional problemlər müzakirə olunub.

# Komitə sədri şəhid atası ilə görüşdü

***Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva Tovuz rayonu, Qovlar şəhər sakini, Vətən Müharibəsinin şəhidi Xətai Həsənovun atası Xaliq Nəsrəddin oğlu Həsənovla görüşüb.***

"Unikal"ın məlumatına görə, komitə sədri şəhid atasını düşmən üzərində tarixi zəfər münasibəti ilə təbrik edib, ürək sözlərini bölüşüb: "Əziz Şəhid atası, Sizin oğlunuzun və onun cəbhə yoldaşlarının fədakarlığı sayəsində torpaqlarımız Ermənistanın işğalından azad olunub, xalqımızın 30 illik həsrətinə son qoyulub.

Oğlunuz Xətai Vətən Müharibəsində cəsarətlə iştirak edib, canını canından əziz tutduğu Vətənimiz uğrunda fəda edib.

Xətai Ağdərə, Cəbrayıl və Talış kəndi istiqamətində mərdliklə döyüşüb.

Biz bilirik ki, oğlunuzun hələ uşaqlıqdan hərbiyə həvəsi olub. Bu həvəs onunla böyüyüb, xarakterik xüsusiyyətlər doğurub və təsadüfi deyil ki, Xətai döyüşlərin gedişində öz komandirini xilas edən zaman qəhramancasına şəhid olub. Bu gün onunla yalnız siz valideynlər, ailə üzvləri deyil, bütünlüklə qədirbilən xalqımız fəxr edir.

Tanrıdan bütün şəhidlərimizə rəhmət diləyirik!

Şəhidlərimizin qanı yerdə qalmayıb. Azərbaycan tarixi zəfər qazanıb. Bu zəfər münasibəti ilə təbriki ən çox haqq edən insanlar Siz Şəhid valideynlərisiz.

Əziz şəhid atası, Sizi düşmən üzərində qələbə münasibəti ilə bir daha təbrik edir, yeni təqvim ili münasibəti ilə ən xoş diləklərimi yetirirəm"!

Q.Paşayeva şəhid atasına Mədəniyyət komitəsi adından Məktub və üzərində "Qarabağ Azərbaycandır!" yazılmış qol saatı təqdim edib.

# 409 nəfərə Azərbaycan vətəndaşlığı verilib

***Dövlət Miqrasiya Xidmətinin (012) 919 - Çağrı Mərkəzi ötən il fəaliyyətini daha da gücləndirib. Miqrantlar Çağrı Mərkəzi vasitəsilə Xidmətə müraciət ediblər.***

"Unikal" xəbər verir ki, bunu yanvarın 14-də Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov 2020-ci ilin yekunlarına həsr olunmuş onlayn mətbuat konfransında bildirib.

V.Hüseynov vurğulayıb ki, müraciətlər dərhal araşdırılıb və qaldırılan problemlər həll olunub. Pasport müddəti başa çatan miqrantların müvəqqəti yaşamasına icazə verilib. Əcnəbi vətəndaşlara şərait yaradıldı ki, onlar həmin sənədlərlə ölkə ərazisində problemsiz yaşaya bilsinlər. Əcnəbilərin rahatlığını təmin etmək üçün lazımi şərait yaradılıb.

2020-ci ildə Dövlət Miqrasiya Xidmətinin (DMX) elektron xidmətlərinə 12 min 599 nəfər müraciət edib. Ötən il Dövlət Miqrasiya Xidmətinə ölkəmizdə müvəqqəti olma müddətinin uzadılması, iş və yaşama icazələri ilə bağlı elektron müraciətlərin sayında 8,5 dəfə artım müşahidə edilib. Belə ki, 2019-cu ildə müraciətlərin sayı 1475, 2020-ci ildə isə 12 min 599 nəfər olub.

Xidmət rəisi, həmçinin bildirib ki, "ASAN xidmət" İndeksinə əsasən Dövlət Miqrasiya Xidməti ötən il mərkəzi icra orqanları arasında ən yüksək nəticəni göstərib. Bu rəqəm 85,54 faiz təşkil edib.

Ötən il Azərbaycana xarici ölkədən 52 nəfər qaçqın kimi müraciət edib.

409 nəfər Azərbaycan vətəndaşlığına qəbul edilib, 8 nəfər isə vətəndaşlığa bərpa olunub. Yeni il bayramı ərəfəsində müraciətləri əsasında 3 şəhid anasına Azərbaycan vətəndaşlığı verilib.

V.Hüseynov əlavə edib ki, ötən il qaçqın statusunun alınması ilə bağlı müraciətlərdə 87 faiz azalma olub.

Xidmət rəisi bildirib ki, hazırda Azərbaycanda 118 409 əcnəbi yaşayır:

"Ölkədə hazırda yaşayan əcnəbilərin 44805 nəfər Rusiya, 38698 nəfər Gürcüstan, 11 293 nəfər Türkiyə, 4145 nəfəri Ukrayna, 2662 nəfər İran, 16806 nəfəri isə digər ölkələrin vətəndaşlarıdır".

# Gizli fəaliyyət göstərən repetitor kursu aşkarlanıb

***Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Gəncə regional qrupundan "Unikal"a verilən məlumata görə, Gəncə şəhər Baş Polis İdarəsinin Nizami rayon Polis İdarəsinin əməkdaşları inzibati ərazilərində fərdi yaşayış evlərinin birində gizli şəkildə fəaliyyət göstərən repetitor kursu aşkarlayıb.***

Dərhal polis əməkdaşları tərəfindən şəhər sakini Aqil Muxtarovun təşkil etdiyi hazırlıq məşğələsi dayandırılmış, oradakı uşaqlar ailələrinə təhvil verilərək, valideynlərə övladlarına qarşı məsuliyyətli olmağı, xüsusi karantin rejiminin tələblərinin yerinə yetirilməsi barədə xəbərdarlıq edilib. A. Muxtarov barəsində İnzibati Xətalar Məcəlləsinin 211.1-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması) maddəsi ilə protokol tərtib edilərək 400 manat miqdarında cərimə tətbiq edilib.

# Azərbaycanlı deputatın Putinə sualları var: "Niyə belə edirsiniz?!"

***Azərbaycanın qalib dövlət kimi ilk dəfə olaraq Moskvada keçirilən üçtərəfli görüşə qatılması həm beynəlxalq sferanın, həm də regionun diqqət mərkəzində idi. Həmişə sərsəm çıxışlarla yadda qalan Ermənistan rəhbəri gərəksiz siyasi fiqura dönmüşdü.***

Təbii, Moskva görüşündə daha önəmli məsələlər vardı ki, Qarabağa qayıdışın məğzini təşkil edirdi. Üçtərəfli görüş zamanı Rusiya prezidenti Vladimir Putinin 48 mindən çox əhalinin Dağlıq Qarabağa qayıtdığını deməsi xeyli sualların cavabsız qaldığını ortaya qoyur. Rusiya prezidenti ya bilərəkdən, ya da unutduğundan azərbaycanlı köçkünlərin qayıdışından danışmayıb.

Sual olunur: azərbaycanlıların Xankəndi, Xocalı və Dağlıq olan Paşinyanın yuxulu halı isə gülməli idi. Hər halda məğlubiyyətin gətirdiyi vəziyyət ortada idi. Gah çantasını əlləşdirirdi, gah da o tərəf-bu tərəfə döyüküb boylanırdı. Bu, Azərbaycan üçün qürurverici məqamdır".

Xocalıdan olan deputat deyir ki, həm özünün, həm də deputatı olduğu dairənin insanları adından Rusiya prezidenti Vladimir Putinə ünvanlanan bir neçə sualı var:

"Moskva görüşü gələcək perspektivlər, görüləcək işlər, nəqliyyat dəhlizlərinin yaradılması üçün lazımlı görüş idi. Amma görüş zamanı Vladimir Putin 48 mindən artıq insanın öz doğma yurd-yuvalarına qaytarıldığını bildirdi. Deyildi ki, Rusiya tərəfindən 800 mindən artıq tikinti materialı bərpa işləri üçün Qarabağa göndərilib. Qarabağ əhalisinin təminatı üçün 1,5 milyon dən qaçqın düşən bizə niyə bir qəpik yardım etməmisiniz?!

44 günlük müharibə dövründə Ağdamın, Goranboyun, Tərtərin, Gəncənin, Ağcabədinin, Beyləqanın dinc əhalisini bombardman etdilər, ensanların evəşiyini viran qoydular. Ermənıyə etdiyiniz humanitar yardımdan adını çəkdiyim rayonların insanlarına edirsinizmi? Təəssüf ki, yox. Yardımlarınız yalnız Qarabağda yaşayan ermənilərə ünvanlanıb. Bu da həmsədr dövlətin bütövlüyünə xələl gətirir".

Elman Məmmədovun sözlərinə görə, Qarabağda sülhün nizamlanmasını həyata keçirən Rusiya birtərəfli olmamalıdır:

"Deməyim odur ki, vasitəçisənsə, birtərəfli olma. Axı Qarabağda darmadağın olmuş qondarma rejimin "prezidenti" hələ də orada fəaliyyət göstərir. Sizin orada olan sülhməramlılarınızın



Qarabağın sülhməramlıların nəzarətindəki digər bölgələrə qayıdışı üçün nə edilməlidir?

Bu qayıdışı nə zaman gerçəkləşdirilməlidir?

124 saylı Şuşa-Ağdam-Xocalı-Xocavənd seçki dairəsinin deputatı Elman Məmmədov Modern.az-a açıqlamasında bildirib ki, həmin ərazilərdə bizim yaşayışımız mütləq təmin olunacaq:

"Bizi Dağlıq Qarabağa nə Rusiya, nə də digər dövlət qaytaracaq. Bizi Azərbaycan dövləti öz gücü, öz iradəsi ilə qanuni haqqından istifadə edib doğma yurd-yuvamıza qaytaracaq. Bizim orada yaşayışımız təmin olunacaq".

Elman Məmmədov qısa olaraq Moskva görüşünü də şərh edib:

"Moskva görüşündə masa ətrafında əyləşən üç nəfərin davranışı diqqət çəkdi. Qalib tərəf İlham Əliyev idi. Məğlub tərəf tondan artıq humanitar yardım daşınıb. Burada maraqlı bir məsələ var: Dağlıq Qarabağdan, Xocalıdan olan məcburi köçkün, soyqırımına məruz qalmış biri kimi hörmətli Vladirmir Putindən soruşuram, çünki Dağlıq Qarabağdan olan bütün insanlar bu məsələdə maraqlıdır:

Yaxşı, 28 ildən artıqdır ki, ermənilər tərəfindən yurd-yuvamızdan didərgin salınmışıq. Bizim qayıdışımız üçün bir həmsədr dövlət olaraq daşı-daş üstünə qoymamısınız. Bəlkə bizi doğma yurd-yuvamıza qaytarmısınız?! Xeyr. Cəmi 10-15 gün ərzində özlərinin günahı üzündən evlərindən çıxıb qaçmış erməniləri hay-həşirlə qaytarıb Qarabağa yığırsınız. Əgər söhbət Qarabağda zərər çəkmiş əhaliyə yardımdan, o 1,5 milyon ton humanitar yardımdan gedirsə, bəs o humanitar yardımdan bu 28 il ərzində sizin 366-cı motoatıcı alayınız vasitəsilə evin- bütün rəhbərliyi onlarla görüşməkdə, öpüşməkdə, oturub-durmaqdadır. Axı onlar cinayətkardır. Azərbaycanın hüquq-mühafizə orqanları tərəfindən cinayətkar elan olunub. Onlara cinayət işi açılıb, beynəlxalq axtarışa verilib. Niyə belə edirsiniz?! Sizin gözünüzün qabağında Dağlıq Qarabağda Ermənistan qoşunlarının silahlı dəstələri qalmaqdadır. Bunları niyə silahsızlaşdırmırsınız?!Niyə o qoşunlar Azərbaycan ərazisindən çıxarılmır?! Bunu siz etməli idiniz. Sülhməramlı kimi sizin missiyanıza aiddir. Laçın dəhlizi sizin nəzarətinizdədir. Təəssüf ki, Laçın dəhlizində Ermənistanla eni 5 km olan əraziyə də siz nəzarət edirsiniz. Hələlik biz nəzarət etmirik. Belə məsələlər var və bu cür müəmmalı davranışlar meydana çıxır. İnanıram ki, o silahlı tör-töküntünü ərazilərimizdən biz təmizləyəcəyik".

# 77 aylıq zülm, sevinc gətirən mərmi, qeyb olan əsir...

***"Müharibənin başladığını top səslərindən duyduq. Şuşada, Şuşa türməsində. Hər gün daha yaxından eşidilirdi bu səs. Onda bildik ki, müharibə başlayıb, döyüşlər lap yaxınlıqda gedir".***

Dilqəm deyir bunları. 6 il 5 ay Şahbaz Quliyevlə birgə erməni girovluğunda olan qəhrəmanımız. Kəlbəcərdə girov götürülən, Xankəndiyə aparılan və məhkəməsi qurulan, oradan Şuşa türməsinə, ordan isə Gorusa, daha sonra İrəvana yatab edilən bu şəxslər düz 6 il beş aydan sonra Vətənə gətirildilər. Bu 6 il beş ayda, adlarını sadaladığımız bu şəhər və rayonlarda onların başına gələnlər isə bəlkə də 65 seriyalı bir filmin mövzusudur...

Azərbaycan onların adını 2014-cü ilin iyulunda eşitdi. Məlum oldu ki, 2014-cü il iyulun 11-də Rusiya vətəndaşı Dilqəm Əsgərov və Azərbaycan vətəndaşı Şahbaz Quliyev Kəlbəcər rayonunda öz ata-baba yurdlarını ziyarət etmək istəyərkən Ermənistan Silahlı Qüvvələri tərəfindən girov götürülüblər, Onlarla birgə olan digər Azərbaycan vətəndaşı Həsən Həsənov isə öldürülüb. Sonradan işğal altındakı Dağlıq Qarabağda qondarma rejim Dilqəm Əsgərov və Şahbaz Quliyev üzərində qanunsuz məhkəmə qurublar. "Məhkəmə"nin qərarı ilə Dilqəm Əsgərov ömürlük, Şahbaz Quliyev isə 22 il müddətinə azadlıqdan məhrum edilir. Hə, qoy bunu da deyək: hələ 2009-cu ildə Dilqəm Əsgərov və Şahbaz Quliyevin Kəlbəcərin Şaplar kəndində olduqları ilə bağlı video yayılmışdı. Videoda çıxış edən Dilqəm Əsgərov Kəlbəcər rayonunun Şaplar kəndinin onlar üçün "ikinci Mədinə" olduğunu demişdi...

- Mən Ermənistan ərazisinə keçməmişdim, kəndimizə, öz ata-baba yurduma getmişdim. Və mən ora ilk dəfə getməmişdim. Məni öz doğma yurdumda həbs etdilər.

Dilqəm deyir bunları. Onu Kəlbəcərdə həbs edirlər. Kəlbəcərə üçü bir yerdə getsələr də, əvvəl Şahbaz erməni girovluğuna düşür. Dilqəmlə Həsən isə düşməndən yayınaraq təxminən Söyüdlü kəndinə kimi gedib çıxırlar. Burda isə...

Ardını Dilqəm danışır:

- Mən iki gün Həsənlə birgə oldum. Qızıl mədənləri yaxınlığında mühasirəyə düşdük. Hərəmiz bir tərəfə çəkilib atışmağa başladıq. Mən atışa-atışa geri çəkildim. Çünki həm mühasirə daralırdı, həm də onlar sayca çox idi. Elə həmin vaxt Həsəni itirdim. Ondan sonra onun başına nə gəldiyindən xəbərim olmadı. Biz ayrı düşdük. Ancaq mən bilmirdim ki, Həsən vurulub.

4 gün az qala bütün Kəlbəcəri dolaşıb. İz azdırmaq istəyirmiş. Amma yenidən Həsən vurulan yerə qayıdıb:

- Fikirləşdim ki, bəlkə yaralı olar, yaxud qaçıb. Amma hər tərəfi axtarsam da, tapa bilmədim. Ağlıma iki şey gəlirdi: ya onu da Şahbaz kimi əsir alıblar, ya da öldürüblər. Həmin yerə çatanda mən də ayağımdan yaralanmışdım. Bir də gördüm ki, erməni əsgərləri gəlir. Müqavimət göstərmək mənasız idi. Bir yandan da qan məni aparırdı...

Ermənilər onu Şahbazın yanına Xankəndindəki həbsxanaya gətirirlər. İlk sualları da bu olur: Neçə nəfər idiniz?

- Mən dedim ki, dörd nəfər. Erməni zabit qayıtdı ki, sən burda, Şahbaz burda, Həsən öldürülüb. Dedim ki, dördüncü qayıtdı getdi. Onda bildim ki, Həsəni öldürüblər.

Xankəndidə isə onları bir il cəhənnəm əzabı gözləyirdi.

- Hər gün döyürdülər. Dəyənəklə, təpiklə, taxta parçasıyla, nəylə gəldi. Məni iki dəfə toka verdilər. Barmaqlarımı qırdılar. Baş nahiyəmdə hələ də qırıqlar var. Xankəndidə qaldığım bir il müddətində bizə yemək vermirdilər. Dəmir boşqabda qızdırılmış su və az miqdarda makarondan başqa heç nə. Tutulan vaxt çəkim 100 kiloqramdan çox idi, amma sonradan 55 kiloqrama düşdü. Taqətim





qalmamışdı. Hər dəfə məni aparanda avtomatın qundağı ilə döyürdülər. Elə vaxt olub ki, 15 nəfər döyüb.

Şahbaz deyir ki, axşam yatmağa qoymurdular. Çarpayının altına səsgücləndirici aparat qoymuşdular.

- Səhərə kimi ulartı səsi verirdilər. Qulaqlarımızı bağlamağa da qoymurdular. O səs hələ də mənim qulağımdan getmir. Bir də görürdün ki, çəkiclə kameranın dəmir qapılarını döyürlər.

Düz bir il Xankəndidə amansız işgəncələrə məruz qalırlar. Nəhayət, 2015-ci il dekabrın 31-də məhkəmə önünə çıxarılırlar. Bilirsiniz ayın neçəsi? Dekabrın 31-i, Dünya Azərbaycanlılarının Həmrəylik Günü. "Məhkəmə"nin qərarı ilə Əsgərov ömürlük, Quliyev isə 22 il müddətinə azadlıqdan məhrum edilir.

Bundan sonra isə onlar Şuşa türməsinə köçürülürlər.

Süz beş il soyuq, rütubətli Şuşa türməsində eyni aqibəti yaşayacaqdılar.

- Nə qapısı, nə pəncərəsi, nə istiliyi, nə düz-əməlli yeməyi vardı. Həftədə 5 gün, o da cəmi yarım saat gəzintiyə çıxarırdılar. Bu müddət ərzində Beynəlxalq Qızıl Xaç Komitəsinə işgəncə altında olmaları barədə məlumat verirlər. Bu təşkilat bizə verilən işgəncəni görürdü. Bizə verilən işgəncələr haqda məktublarda yazmağa imkan vermirdilər. Məktub demişkən, Şahbaz deyir ki, evlərindən gələn məktublar bəzən 45 gün, iki ay gecikirdi. Onların evə göndərdikləri və ya Qırmızı Xaça ünvanladıqları məktublarda isə xoşlarına gəlməyən cümlələri isə qaralayırdılar.

Dilqəmin məktubundan: "Hər kəsə salam deyin. Vəziyyətim yaxşıdır. Beynəlxalq Qızıl Xaç Komitəsinin nümayəndəsi Tomas mənə gəlib baş çəkdi. Həftədə bir dəfə hamam olur. Gündə bir saat gəzinti olur. Köhnə tanışlarıma salam deyin. Hazırda Şuşadayam. Kamerada yanımda su kranı var. "Məhkəmə"lərim tamamlanıb. Yuxumda meşəçi Ələddini görmüşəm. Vəziyyəti necədir ? "

Şahbaz deyir ki, bu illər ərzində ermənilər Qırmızı Xaça o qədər də önəm vermirdilər. - Bizə verilən işgəncələrin hamısını Beynəlxalq Qızıl Xaç Komitəsi bilirdi, ancaq heç bir ölçü götürmədilər. Hüquqlarımı Beynəlxalq Qırmızı Xaç Komitəsindən tələb edirdim. Ancaq ondan sonra onlar mənə radio verdilər. Radiodan eşidirdim ki, bizim dövlət başçısı ac qalmağımız, əsir götürməyimizlə bağlı işlər görür. Ümidli idim ki, Prezident bizi xilas edəcək.

- Müharibənin başlamasını artilleriyanın səsindən bildim. Onlar bizə heç nə deməmişdilər. 2-3 gün keçmədi, mərmi artıq Şuşa həbsxanasının qarşısına düşdü". Ermənilər qorxu içindəydilər. Orda bir mayor vardı, təsəvvür edin, məndən soruşurdu ki, nə baş verir. Dedim əsgərlərimiz gəlir. Bundan sonra daha da zülm eləməyə başladılar.

Azərbaycan ordusunun əkshücum əməliyyatlarının artıq Şuşaya da çatdığını görən, ermənilər oktyabrın 4-də Dilgəm Əsgərov və Şahbaz Quliyev saxlanıldıqları Şuşa həbsxanasından Ermənistana aparırlar. 2020-ci ilin noyabrında Dilqəm Əsgərovun oğlu Kürdoğlu Əsgərov Beynəlxalq Qızıl Xaç Komitəsi əməkdaşlarının verdiyi məlumata istinad edərək, atasının Şuşa qalasından oğurlanaraq, əvvəlcə Gorusa, bir müddət sonra, noyabrın 13-də isə Şiraka aparıldığı, "Artik" adlı həbsxanada saxlanıldığı barədə açıqlama verir.

Onları doğrudan da əvvəlcə Gorusa aparırlar. Dilqəm deyir ki, onları gecə ilə maşına mindirərək, İrəvanda yerləşən türməyə aparıblar: "Gorusda qəsdən məni maşından endirib, təpiklədilər. Evdən göndərilən əşyalarımın əksəriyyətini oğurladılar. Yolda İrəvandan gələn qrup üst paltarlarımı çıxardı, maşında ayaqyalın idim. Başıma torba salmışdılar, nəfəs ala bilmirdim. Bizimlə birgə bir azərbaycanlı əsir də vardı. Yaralı idi. Onu yox elədilər. Öldüsü-qaldısı bilinmədi. Şahbazla məni isə İrəvana apardılar. Bakıya gətiriləndək orda qaldıq. Nəzarətçilər qapını qaynaqlamışdılar. Yalnız nəfəslik açıq qalırdı. Həmin nəfəslikdən bizi söyürdülər. Bizi sonra yenidən qaytardılar - Gorusa. Bir neçə gün qalandan sonra ruslara təhvil verdilər və Bakıya göndərdilər...

Şahbazın məktubundan:

"Bakı, Yerevan, Rusiya, Goranboy xəbərlərinə qulaq asıram. Hər şeydən xəbərim var. Mənə görə narahat olmayın. Altda qalanın canı çıxsın".

...Canları çıxdı, Azərbaycan əsgərinin ayağı altında qaldılar...

*Səbuhi Məmmədli*




## Şuşada şəhid ol qəhrəmanımızın anası danışır: "Mənə ən sonda dedilər"

***Vətən Müharibəsinin 25 yaşlı qəhrəmanlarındandır şəhid Rəşad Mikayılzadə. Ailənin tək övladı olan Rəşad orta məktəbi bitirdikdən sonra Sumqayıt Dövlət Universitetində ali təhsil alıb.***

APA TV-nin xəbərinə görə, daha sonra Vətənə olan borcunu yerinə yetirmək üçün hərbi xidmətə yollanıb, Qazaxda qulluq edib.

Vətənə olan tükənməz sevgisi səbəbindən 2020-ci il sentyabrın 27-də başlayan Vətən Müharibəsinə cani-könüldən qatılıb. Şəhidin atası İlham Mikayılov deyir ki, oğlu Füzuli, Şuşa və Xocavənd istiqamətində gedən döyüşlərdə şücaətlə vuruşub: "Komandirləri deyib ki, evin tək uşağısan, getmə. Deyib ki, yox, mən əsgər yoldaşlarımdan ayrıla bilmərəm. Füzuli istiqamətində döyüşüb. Füzulini alandan sonra Xocavənd, Şuşa istiqamətində döyüşüb. Çox vətənpərvər uşaq idi. Bunu bütün məktəb, sinif yoldaşları deyirdi".

İlham kişi deyir ki, ailəsini nigaran qoymamaq üçün imkan olduqca zəng edirmiş. Noyabrın 7-də Rəşadın ailəsi ilə sonuncu danışığı olur. Noyabrın 9-da isə Şuşa uğrunda gedən döyüşlərdə komandirini döyüş bölgəsindən çıxararkən snayper gülləsi ilə başından vurulur və şəhid olur: "Ayın 7-si idi mənimlə danışanda, saat 9-un yarısı olardı. Füzulidə idilər. Vəziyyəti soruşdum, dedi, ata, hər şey yaxşıdır, məndən nigaran qalmayın, gedirik qabağa. Dedim, hara? Dedi ki, narahat olmayın, hər şey yaxşıdır. Ayın 9-da Şuşa istiqamətində şəhid oldu. Vətən sağ olsun!"

Gözünün ağı-qarası olan bircə övladının şəkilləri ilə ovunur anası Nailə xanım indi. Rəşadın yoxluğu boğazını düyünləsə də, qələbəmizdə payı olduğu üçün qürur duyur oğlunun şəhadəti ilə: "Rəşad çox sakit, təmkinli uşaq idi. O, məktəbdə də incitməyib bizi. Oxuduğu müddətdə də şərəf lövhəsində olub şəkli. Vətənpərvər idi, həmişə hərbçi olmaq istəyirdi. Amma mən istəmirdim tək uşaqdır, yanımızda olmasını istəyirdim. Avropa Oyunlarına da qatılmışdı qrup yoldaşları ilə birlikdə. Axıra özü qalmışdı, Prezidentimiz təşəkkürnamə ilə təltif etmişdi onu. Şəhid xəbərini mənə ən sonda dedilər. Hami bilirdi, mən bilmirdim".

Bibisi Güldərən Mikayılova da qardaşı oğlunun vətənpərvər biri olduğunu deyir: "Keçən il bu vaxtı bayrama gəlmişdi. Hamımız başına yığışdıq. Amma onun fikri orda qalmışdı. Hərbi xidmətə qayıtmaq istəyirdi".

Kiçik çavuş Rəşad İlham oğlu Mikayılzadə ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

***FATMA ZAHİDQIZI***



# ABŞ-dan irana qarşi sensasion ittiham: "Tehranda "Əl-Qaidə"nin bazası var"

***Dünyanın ən təhlükəli cihadçı terror təşkilatlarından biri nəinki yoxa çıxa, ağıla gəlməyən bir müttəfiqi sayəsində yenidən canlanmağa başlaya bilər.***

"Unikal" "Amerikanın Səsi"nə istinadla xəbər verir ki, ABŞ dövlət katibi Mayk Pompeo çərşənbə axşamı sensasion bəyanatla çıxış edib. O deyib ki, ABŞ-ın 2001-ci il 11 sentyabr tarixində Nyu Yorkdakı Dünya Ticarət Mərkəzinə və Pentaqona hücumlar həyata keçirən Əfqanıstandakı "Əl-Qaidə"ni hədəf almasından, təxminən, iyirmi il sonra bu terror qruplaşması özünə yeni bir "ev" qurub.

""Əl-Qaidənin yeni bir bazası var, bu, İran İslam Respublikasıdır" - deyə, Pompeo Vaşinqtondakı Milli Mətbuat Klubundakı çıxışı zamanı bildirib.

"Tehran "Əl-Qaidə"yə vəsait toplamasına, dünyadakı "Əl-Qaidə" üzvləri ilə sərbəst ünsiyyət qurmasına və əvvəllər Əfqanıstandan və ya Pakistandan idarə olunan bir çox funksiyanı yerinə yetirməsinə imkan verib. Bu yardımlar nəticəsində "Əl-Qaidə" liderliyini Tehranda mərkəzləşdirib" - deyə, o əlavə edib və İranı terror qruplaşmasının yeni "əməliyyat qərargahı" kimi xarakterizə edib.

ABŞ prezidenti Donald Trampın prezidentlik vaxtının azaldığı bir vaxt Birləşmiş Ştatların baş diplomatının xəbərdarlığı Tramp administrasiyanın diqqətini yenidən İrana qaytarıb.

Bu, eyni zamanda son bir neçə ayda administrasiyanın digər rəsmiləri tərəfindən "Əl-Qaidə" ilə bağlı qiymətləndirmələrindən təəccüblü bir dəyişikliyi də təmsil edir.

Dövlət Departamentinin Terrorla Mübarizə Koordinatoru, səfir Natan Seyls keçən ilin noyabr ayında virtual bir forumda "Şübhəsiz ki, "Əl-Qaidə"nin durumunun ağır olduğunu düşünürəm" deyib.

ABŞ-ın Milli Təhlükəsizlik müşaviri Robert Obrayen də eyni dərəcədə nikbin idi. Bir gün əvvəl o, ABŞ-ın "Əl-Qaidə"yə qarşı göstərdiyi təzyiqlər səbəbindən bu təşkilatın ABŞ-a qarşı genişmiqyaslı hücumlar həyata keçirmək iqtidarında olmadığını deyib.

# Çavuşoğludan Monitorinq Mərkəzi ilə bağlı açıqlama

***"Azərbaycanın dəvətinə cavab olaraq atəşkəsin təmin edilməsi və bərpa prosesi ilə bağlı çalışmağa davam edəcəyik. Atəşkəsə nəzarət üzrə Rusiya ilə Birgə Mərkəz yaratmışıq".***

Unikal.org "Anadolu" agentliyinə istinadən xəbər verir ki, bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu "Küresəl Media" jurnalına müsahibəsində Dağlıq Qarabağla bağlı suala cavabında deyib.

Nazir qeyd edib ki, bu atəşkəs çox əhəmiyyətlidir və qorunmalıdır: "Bundan sonra erməni tərəfinin atəşkəsə və birgə bəyanatda qəbul edilən şərtlərə riayət etməsini, yeni macəralardan çəkinməsini və Azərbaycanın işğal altındakı bütün torpaqlarda suverenliyini tanıyacaq qalıcı bir siyasi həllə gedən yolu açmasını gözləyirik. Anlaşma davam edərsə və Azərbaycan-Ermənistan meydançası yaranarsa, bu vəziyyət türk-erməni əlaqələrinə müsbət təsir edəcək".

# Ərdoğan "Media Oscar" mərasimində bu aktyorları mükafatlandırdı

***Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, "RTGD 2019 Media Oscar" mükafatı mərasimində bir çox aktyora mükafat təqdim edib.***

Unikal.org xəbər verir ki, Ərdoğan, Radio və Televiziya Jurnalistləri Cəmiyyəti (RTGD) 2019 Prezident Kompleksində təşkil edilən "Media Oscar" mükafatları mərasimində aktyorlara şəxsən mükafat verib. Mərasimdə Ebru Özkan, Burak Özçivit və Kenan İmirzalıoğlu mükafatlandırılıb.



# Afina Ankaraya meydan oxuyur

## YUNAN DÖVLƏTİ ƏRAZİSİNİ DƏNİZ SULARI HESABINA GENİŞLƏNDİRİR

***Yunanıstan İon dənizindəki ərazi sularının 13 min kv/km (ölkə ərazisinin 10% -i) genişləndirilməsini düşünür. Parlament bu ay qərar verməlidir. Məqsədləri BMT-nin Dəniz Konvensiyası ilə əsaslandırılan bu cür addımlar şərq qonşusuna - Türkiyəyə isməriş sayıla bilər. Ankara təkcə BMT-nin konvensiyanı deyil, həm də yunanlıların konvensiya şərtlərinin icrasını müharibənin başlanmasına səbəb kimi qəbul edir. Mütəxəssislər Afinanın öz şərtlərini Ankaraya sırımaq istədiyini düşünür.***

Qanun layihəsi "İon dənizi və İon adalarından Tenaron burnuna qədər sahil zonası genişliyinin təyin edilməsi" adlanır. Yunanıstan ərazi sularının, Dəniz hüququ haqqında Konvensiyanın təyin etdiyi kimi, qərbə doğru 12 dəniz milinə (22 km) qədər uzadılmasını nəzərdə tutur.

Müvafiq tədbir artıq İtaliya səlahiyyətliləri ilə razılaşdırılıb. Yeganə əngəl - Məhkəməsinin iki ölkənin müstəsna iqtisadi zonalarını (MİZ) ayırmaq məsələsini həll edə bilmədiyi Albaniyanın mövqeyidir. Afina bunu ziddiyyətlər əlaməti olaraq qəbul edilmədiyini iddia edir - beynəlxalq səlahiyyətlilər mübahisələrin həlli ilə məşğul olacaq.



Parlamentin milli müdafiə və xarici əlaqələr komitəsinin iclasında çıxış edən Yunanıstan xarici işlər naziri Nikos Dendias "zamanın tarixiliyinə diqqət çəkib", çünki bu, "Yunanistan parlamentinin milli suverenliyin əhatə etdiyi ərazini artırmaq üçün 1947-ci ildən bəri səs verməyə çağırıldığı ilk haldır".

Nazirin sözlərinə görə, genişləndirmə təşəbbüsü ölkə ərazisini 10 min kv/km artıracaq. Beynəlxalq hüquqa görə, İon dənizindəki körfəzlərin su hövzəsi nəzərə alınmaqla, artım əslində 13 min kv/km olacaq. Ölkənin ümumi sahəsi - müqayisə üçün - 131 min kv/km-dir.

Afinada qərbə doğru genişlənməni mübahisəli bir mövzu olaraq qəbul edilmir. "Yunanıstan suveren hüququndan istifadə edir. İon dənizindən Tenarona qədər". Dendias ölkəsinin digər ərazilərdə də ərazi sularının artırılması və "milli suverenlik hüquqlarından istifadə etmək" haqqını tamamilə özündə saxladığını əlavə edib. "Heç bir halda onlardan heç birindən imtina edilməməlidir. Növbəti mərhələnin Kritin cənubundakı bölgəyə aid olacağını söyləyən baş nazir Kiriakos Mitsotakisin sözlərinə görə, bu mövzuda müvafiq araşdırmalar aparılır".

Dendias Yunanıstanın hələ də Türkiyə ilə kompleks ziddiyyətləri olduğu Egey dənizində ərazi sularının 12 dəniz mili qədər artırılması ehtimalını istisna etmədiyinə diqqət çəkib. Ankara BMT-nin Dəniz Konvensiyasını imzalamayıb. 1990-cı illərdə, bu razılaşmanın Afina tərəfindən təsdiqlənməsi zamanı, Türkiyə rəhbərliyi Egey dənizindəki yunan ərazi sularının 12 mil uzanmasının milli suverenliyin pozulması kimi qəbul ediləcəyini, buna görə müharibə elan edilməsinin rəsmi səbəbi olacağını açıq şəkildə bildirib. Həmin təhdidlər 2020-ci ildə Türkiyənin vitse-prezidenti Fuat Oktay tərəfindən Aralıq dənizindəki tədqiqat fəaliyyətləri ilə bağlı yaşanan mübahisələri şərh edərək səsləndirilib.

Maraqlıdır ki, Yunanıstan və Türkiyə sərhəd məsələləri (dəniz və MİZ) ilə bağlı danışıqlar üçün çərçivə təmin etmək naminə təmasları yanvarın 25-də bərpa etməyə razılaşıb. Prezident Rəcəb Tayyib Ərdoğanın Avropa İttifaqı səfirləri ilə görüşdə dediyi kimi, bu dialoq iki ölkə arasındakı münasibətlərdə "yeni bir dövr açacaq". "Şərqi Aralıq dənizində rəqabət və ya qarşıdurma arenası yaradılması dayandırmalıdır. Bölgədəki bütün tərəflərin maraqlarına cavab verəcək əməkdaşlıq qurulmalıdır".

Ərdoğanın açıqlamaları Türkiyə rəsmilərinin ritorikasındakı ümumi dəyişiklik fonunda verilib. Ankarada getdikcə daha çox ölkənin Aİ-nin bir hissəsi olduğu deyilir.

Yunanıstan baş naziri bundan əvvəl "Antenna" telekanalına verdiyi müsahibəsində təmasların "danışıqlar deyil, qeyri-rəsmi müzakirələr olduğunu" qeyd edib. Mitsotakis xatırladıb: "Danışıqların davam etdirilməsi üçün müəyyən bir çərçivə qurulub". Kontekst çox aydındır: Yunanıstanın MİZ-ində tədqiqat gəmiləri olmamalıdır və təmasları dayandırıldığı yerdən davam edəcəyik. Yeni dəniz zonalarını ayırmaq üçün müəyyən edilmiş çərçivədə. O zaman yalnız bu, Egey dənizində idi, indi də əlavə edəcəyəm - Egey dənizində və Şərqi Aralıq dənizində". Bununla birlikdə, baş nazir vurğulayıb: Afina Egey dənizindəki adaların hərbisizləşdirilməsini Ankara ilə müzakirə etməyəcək.

Rusiya Beynəlxalq Məsələlər Şurasının mütəxəssisi Timur Axmetov "NG" ilə söhbətində Ankaranın son aylarda digər beynəlxalq oyunçularla əlaqələri bərpa etmək niyyətini göstərdiyini qeyd edib. "Türk rəhbərliyi açıq şəkildə Yunanıstan, Fransa, Birləşmiş Ərəb Əmirlikləri və İsrailə müsbət siqnallar göndərərək təcriddən keçməyin lazım olduğunu hiss edir".

Axmetovun sözlərinə görə, ola bilsin ki, yunan tərəfi də fərqli mövqelərdə və digər tələblərdə Türkiyə ilə dialoqun mümkün bir şəkildə bərpa olunmasına hazırlaşır. "Yəqin ki, bunun üçün İon dənizindəki ərazilərin böyüməsinə dair bir qanun layihəsinə ehtiyac var və səsvermə yanvarın 19-na planlaşdırılır".

***İqor Subbotin***
***"Nezavisimaya qazeta",***
***13.01.2021***

## Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi.




# İşğalçı dövlət Azərbaycan mədəniyyətinin bütün izlərinin silinməsi siyasətini aparıb

## Nigar Arpadarai: "Ermənilərin apardığı cinayətkar siyasətin istiqamətlərindən biri də Azərbaycanın xristian icmasının mədəni irsinin mənimsənilməsinə çalışmalarıdır"

***Dağlıq Qarabağın Azərbaycan torpaqları olduğu Ermənistanla Azərbaycan arasında münaqişə başlayan gündən dünyaya car çəkilsə də, 27 il idi ki, bir sıra dövlətlər, beynəlxalq təşkilatlar bunu təsdiqləməkdən boyun qaçırırdılar. Dağlıq Qarabağ həqiqətləri Azərbaycanın apardığı uğurlu diplomatik siyasət nəticəsində dünyaya bəyan edilsə də, bu məsələyə beynəlxalq müstəvidə hər zaman ikili yanaşma sərgilənib.***

Azərbaycanın öz torpaqlarını hərb yolu ilə işğaldan azad etməsi isə Ermənistanın, eləcə də, bu münaqişəyə indiyədək göz yumanların, görməzdən gələnlərin, hətta haqq qazandırmağa can atanların cavabı oldu. Azərbaycan işğaldan azad etdiyi torpaqlarda düşmənin tariximizə tutduğu divanı, dini və mədəni abidələrimizə qarşı vandal davranışı dünyaya nümayiş etdirmək imkanı qazandı. 27 ildir ki, işğal altında saxlanılan torpaqlarımızdakı şəhər və kəndlərimizin xarabalığa çevrilməsi Ermənistanın əslində bu torpaqların əsl sahibinin bir gün geri dönəcəyinə olan inamından xəbər verir. Azərbaycan haqq savaşında qalib gəlməklə yanaşı, işğalçı dövlətin əsl simasını ortaya qoymaq imkanı əldə edib. Bəs görəsən bundan sonra Dağlıq Qarabağ həqiqətləri ilə bağlı məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün hansı işlərə ehtiyac var?

Milli Məclisin deputatı Nigar Arpadarai deyir ki, Azərbaycan apardığı 44 günlük müharibə nəticəsində beynəlxalq hüquqda təsbit olunmuş haqqını geri alsa da, işğal altında saxlanılan torpaqlarımıza qarşı vandalizm cavabsız qalmamalıdır: "2020-ci il Azərbaycan üçün çox özəl bir il oldu. Səbəbi də bəllidir, ölkəmiz Vətən müharibəsində parlaq qələbə qazandı, torpaqlarımız işğaldan azad olundu. Dövlət başçısının qeyd etdiyi kimi, tamamilə yeni bir reallıq yarandı. İndi bizim əsas diqqətimiz gələcəyə yönəlməlidir. Məqsədimiz işğaldan azad olunmuş ərazilərdə iqtisadi cəhətdən inkişaf etmiş, açıq bir məkanın, ölkəmizdə yaşayan bütün etnik qruplar üçün təhlükəsizlik və çiçəklənməyə yönələn şəraitin yaradılması olmalıdır. Azərbaycanın haqlı, beynəlxalq hüquqa əsaslanan mövqeyinin dünyaya çatdırılması, təbliğatı məsələsində var gücümüzlə çalışmalıyıq. Bəzi mövzular var ki, onların təbliğatı önəmlidir. İşğal faktının ölkəmizə vurduğu zərər, Ermənistanın törətdiyi müharibə cinayətləri, və ən əsası, Azərbaycan mədəniyyətinin və milli-mədəni irsinin Ermənistan işğalçı qüvvələri tərəfindən dağıdılması mövzularını dünya ictimaiyyətinin diqqətinə çatdırmalıyıq. Biz bildirməliyik ki, işğal olunmuş ərazilərdə Azərbaycanlıların mövcudluğu, Azərbaycan mədəniyyətinin bütün izlərinin silinməsi sistemli siyasət olaraq aparılıb. Ermənilər bunu bilərəkdən, qəsdən ediblər. Azərbaycan bu faktın həm hüquqi cəhətdən qiymətləndirilməsinə nail olmalıdır, həm də bu mövzunun ictimailəşdirilməsi üçün çalışmalıdır. Çünki biz tək dağıdılmış şəhərlərimizi yox, məhv edilmiş mədəni irsimizi bərpa etməliyik, bu iş hələ qarşıdadır. Ermənilərin apardığı cinayətkar siyasətin istiqamətlərindən biri də Azərbaycanın xristian icmasının mədəni irsinin mənimsənilməsinə çalışmalarıdır. Azərbaycanın xristian tarixi ölkəmizdə yaşayan bütün xalqların və etnik qrupların irsidir, Ermənilər isə işğal altında olan ərazilərdə bu irsi mənimsəməyə çalışıblar, bunun üçün bütün çirkin əməllərə əl atıblar. İndi də bu məsələni bütün dünyada gündəmə gətirməyə çalışırlar. Biz göstərməliyik ki, multikultural dəyərlər milli mədəniyyətimizin ayrılmaz keyfiyyətidir. Biz bütün platformalarla, həm diplomatik kanallar, həm beynəlxalq mətbuat, diaspora, QHT-lər, ekspertlər və s. vasitəsilə dövlətimizin ədalətli mövqeyini dünyaya çatdırılması üçün var gücümüzlə çalışmalıyıq. Azərbaycan atdığı hər bir addımda beynəlxalq hüquq prinsip və normalarını əsas tutub, qonşuları və tərəfdaşları ilə etibarlı münasibətlər qurub. Bu işə davam etməliyik. Qarabağda və işğaldan azad olunmuş bütün ərazilərdə iqtisadi cəhətdən inkişaf etmiş, açıq və təhlükəsiz bir məkanın yaradılmasına nail olmalıyıq. Təbliğatımızı da gələcək, regionda olan yeni imkanlar ətrafında qurmalıyıq".

Deputat deyir ki, Azərbaycana vurulmuş maddi və mənəvi zərərin ödənilməsi problemi Ermənistanın təcavüzünün nəticələrinin aradan qaldırılmasının və bütövlükdə Ermənistan-Azərbaycan münasibətlərinin nizamlanması prosesinin vacib aspektlərindən biridir: "Ermənistanın silahlı təcavüzü və işğalı nəticəsində Azərbaycana külli miqdarda maddi və mənəvi zərər dəyib. Beynəlxalq hüquqa görə məsuliyyət daşıyan dövlət özünün hüquqazidd əməli ilə digər dövlətə vurmuş olduğu ziyanı tam həcmdə ödəməlidir".

Onu da qeyd edək ki, hüquqşünaslar da Ermənistanın vurduğu zərərin ödənilməsinin vacib olduğunu söyləyirlər. Hüquqşünasların fikrincə, müasir beynəlxalq hüquqda zərərin ödənilməsinin müəyyən formaları mövcuddur. Belə ki, bu məsələlər tam aydınlığı ilə BMT Baş Assambleyasının 12 dekabr 2001-ci ildə qəbul etdiyi 56/83 saylı "Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti" adlı qətnaməsində qeyd edilib. Sənədin 28-ci maddəsində qeyd edilir ki, beynəlxalq hüquqazidd əməllər dövlətin beynəlxalq məsuliyyətinə səbəb olur ki, bu da hüquqi nəticələr doğurur. "Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti" adlı qətnamənin 31-ci maddəsinə əsasən, məsuliyyət daşıyan dövlət beynəlxalq hüquqazidd əməllər nəticəsində vurduğu zərəri ödəməlidir. Sənədin 34-cü maddəsində beynəlxalq hüquqazidd əməllər nəticəsində vurulmuş zərərin ödəmə formaları müəyyən edilib. Bu maddədə göstərilir ki, "beynəlxalq hüquqazidd əmələ görə vurulmuş zərərə görə tam ödəmə formaları restitusiya, kompensasiya və satisfaksiya formalarında ola bilər. Bu formalar həm ayrı-ayrılıqda, həm də bir-biri ilə bağlı istifadə edilə bilər".

Bu müddəa, eyni zamanda, BMT Baş Assambleyası tərəfindən 16 dekabr 2005-ci ildə qəbul edilmiş 60/147 saylı "Beynəlxalq humanitar hüququn ciddi pozuntuları və insan hüquqları sahəsində beynəlxalq normaların ciddi pozuntularının qurbanları üçün zərərin ödənilməsi və hüquqi müdafiə hüququna aid əsas prinsiplər və rəhbəredici müddəalar" adlı qətnamə ilə bir daha təsdiq olunub. Bu qətnamənin "Vurulmuş zərərin ödənilməsi" adlı IX fəslinin 18-ci bəndində göstərilir ki, beynəlxalq hüquqa və ölkələrin milli qanunvericiliyinə görə, həm də konkret halları nəzərə alaraq, insan hüquqları sahəsində beynəlxalq normaların ciddi pozuntularının və beynəlxalq humanitar hüququn ciddi pozuntularının qurbanlarına və pozuntunun ciddiliyinə və hər bir hala müvafiq müəyyən olunmuş qaydada zərərin tam və effektiv ödənilməsi restitusiya, kompensasiya, reabilitasiya, satisfaksiya və baş vermiş hadisənin təkrarlanmaması zəmanəti formalarında ola bilər.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Ermənistanın hüquqazidd əməli nəticəsində Azərbaycana vurulmuş zərərin restitusiya formasında ödənilməsi bütün işğal olunmuş Azərbaycan ərazilərinin qaytarılması, əsirlikdə saxlanılan azərbaycanlıların azad edilməsi, onların insan hüquqlarından istifadə edə bilməsi, məcburi köçkünlərin əvvəlki yaşayış yerlərinə qayıda bilməsi, əmlakının qaytarılması və s. deməkdir. Bundan əlavə, restitusiya Ermənistan tərəfinin Dağlıq Qarabağın bu ölkəyə birləşdirilməsi ilə bağlı Ali Sovetin qəbul etdiyi qərarın, Ermənistanın dövlət müstəqilliyi aktında Dağlıq Qarabağın bu dövlətin ərazisi elan edilməsi və digər qanunsuz qəbul edilmiş bütün normativ aktlarının ləğv edilməsini də özündə ehtiva edir. Eyni zamanda, işğal edilmiş Azərbaycan torpaqlarında işğalçı Ermənistan tərəfi ilə bağlanmış müqavilələr əsasında xarici şirkətlərin təsərrüfat fəaliyyəti ilə məşğul olunmasına qadağan qoyulması restitusiya çərçivəsində həyata keçirilən tədbirlərdən olmalıdır. Kompensasiya beynəlxalq hüquqazidd əməl nəticəsində vurulmuş zərərin maliyyə şəklində ödənilmə formasıdır. BMT Baş Assambleyasının "Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti" adlı qətnaməsinə əlavənin 36-cı maddəsinə əsasən, beynəlxalq hüquqazidd əmələ görə məsuliyyət daşıyan dövlət özünün qanunazidd əməli nəticəsində vurduğu zərəri restitusiya ilə ödənilməyən hissədə kompensasiya yolu ilə ödəməyə borcludur. Kompensasiya əldən verilmiş gəlir də daxil olmaqla, belə zərərin ödənilməsinə yönəlib. Beləliklə, kompensasiya vurulmuş zərərin restitusiya ilə ödənilmədiyi halda tətbiq edilə bilər. Kompensasiya maliyyə baxımından qiymətləndirilə bilən hər bir zərəri, o cümlədən müəyyən edilə bilən əldən verilmiş mənfəət də daxil olmaqla, ödəmə formasıdır. O, vurulmuş zərərə görə tam ödəməni təmin etməyə yönəlməlidir və beynəlxalq praktikada zərərin ən çox rast gəlinən ödənilmə formasıdır. Bu müddəa müəyyən edir ki, kompensasiyanın miqdarı əmlaka zərərin vurulduğu vaxtdakı dəyəri deyil, onun kompensasiya ödənilməsi vaxtında olan qiyməti miqdarında ödənilməlidir.



***Mələk Eyvazlı***

# “Çağırdı, gecə paltarında gəldim, vəhşi kimi baxırdı...” - Xəyanət edən qadının şok ifadəsi

***Bakıda ərini qətlə yetirməkdə ittiham olunan 1991-ci il təvəllüdlü Şahanə Fəxrətovanın məhkəməsi başa çatıb. Teleqraf.com-un xəbərinə görə, o, 2012-ci ildən Ruslan Fəxrətova ilə rəsmi nikahda olduğu halda öz təşəbbüsü ilə ayrı-ayrı vaxtlarda tanış olduğu kişilərlə cinsi əlaqədə olub, mütəmadi intim münasibət saxlayıb.***

1986-cı il təvəllüdlü Ruslan Fəxrətov 2019-cu il iyulun 16-da saat 23.50-də Hövsan qəsəbəsində mənzilinin yataq otağında Şahanə Fəxrətovanın xəyanətindən xəbər tutduğunu bildirib və onu yataq otağından qovub.

Qadın ertəsi gün səhər xəyanətinin aşkarlandığı halda rüsvay olmasının qarşısını almaq və xəyanətini gizlətmək məqsədilə həyat yoldaşını öldürmək qərarına gəlib.

Bu məqsədlə mətbəxdən götürdüyü bıçaqla Ruslan Fəxrətovun boyun və bel nahiyəsindən iki zərbə vuraraq onu qətlə yetirib.

Şahanə Fəxrətova barəsində Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə ittiham elan edilib.

### “Ayaq üstə içkinin təsirindən güclə dayandı”

Şahanə Fəxrətova elan olunmuş ittiham üzrə özünü təqsirli bilməyib. Qeyd edib ki, iyulun 16-da axşam saatlarında əri Ruslan və iki övladı ilə birlikdə oğlu Telmanı yaxınlıqda yaşayan çöpçüyə piyada aparıblar:

“Çöpçüdən qayıtdıqda təxminən saat 20 radələrində Ruslan bizi liftə mindirərək evə göndərdi. Özü dostları ilə pivə içməyə getdiyini bildirdi. Konkret kiminlə getdiyini bilmədim. Saat 23.30-da Ruslan evə gəldi. Uşaqlar və qayınatam Telman yatmışdı. Qapını qayınanam Əminə açdı, Ruslan içəri girəndə pivə içdiyini bildirdi. Hərəkətlərindən içkili olduğu bilinirdi. Ayaq üstə güclə dayanırdı. Məndən yemək istədi. Ona yemək verdim, özüm isə hamama çimməyə girdim. Çimməyə girəndə qayınanam Əminə qonaq otağında televizora baxırdı. Hamamdan çıxdıqda Ruslan artıq yeməyini yeyib bitirmişdi, eyvanda siqaret çəkirdi. Qabları yığışdırıb yudum. Ruslan yatdığı otağa keçdi, telefonu ilə məşğul oldu. Aramızda heç bir mübahisə olmadı. O, heç vaxt mənim telefonuma baxmayıb. Qayınanam Əminəyə “gecəniz xeyrə qalsın”, - dedim. Sonra gedib öz yerimdə uşaqlarla birlikdə yatdım”.

### “Cinsi əlaqə üçün yanına çağırdığını zənn etdim”

Təqsirləndirilən şəxs qeyd edib ki, qayınanası və əri Ruslan öz otaqlarına yatmağa gediblər: “Ruslan balaca övladımızın ağlamasından narahat olduğu üçün o, doğulandan digər otaqda, yəni qonaq otağında yatırdı. Saat 08.00-da oğlum Telmanın ağlamaq səsinə yuxudan oyandım və ona mətbəxdə yemək hazırladım. Öz yatdığım otaqda qucağımda övladıma yemək yedizdirən zaman Ruslan içəri girdi. Dedi ki, uşağı yedizdir, gəl yanıma. Məni cinsi əlaqə üçün yanına çağırdığını zənn etdim. Oğlum Telmanı yedizdirdikdən sonra gecə paltarında Ruslanın yatdığı qonaq otağına getdim. Ruslan şkafın qarşısında “raskladuşka” tipli çarpayıda oturaqlı vəziyyətdə məni gördü və bildirdi ki, qapını bağla. Otağın qapısını örtdüm, Ruslanın qarşısında, masanın küncünə söykəndim. Ruslan həmin vaxt oturduğu yerdən ayağa durdu”.

### “Dedi, səni öldürəcəm, mənə niyə xəyanət etmisən?”

Şahanə Fəxrətova bildirib ki, Ruslanın göz bəbəklərinin genəldiyini, gözlərinin içinin qıp-qırmızı olduğunu, ilk dəfə belə vəziyyətdə, vəhşi insana döndüyünü görüb: “Ruslan “mənə deyiblər ki, sən mənə xəyanət etmisən”, - bildirdi. Cavab verdim ki, yalandı, elə bir şey yoxdur. Bu cavabdan sonra arxaya döndü, balışın altından mətbəxdə istifadə etdiyimiz bıçağı götürdü, sağ əlində tutaraq əlini boynu istiqamətində qaldırıb bıçağı mənə istiqamətləndirdi. Bir də təkrar elədi ki, səni öldürəcəm, mənə niyə xəyanət etmisən? Dedim ki, elə bir şey olmayıb, yalandı.

Ruslanın bıçaqla üzərimə gəldiyini gördüm, qorxdum. Bir əlim ilə Ruslanın bıçaq tuşladığı sağ qolunun dirsəyindən, o biri əlim ilə isə sonuncunun sinəsindən tutaraq çarpayıya doğru itələdim. Otaqdan çıxmaq üçün qaçdım. Qaçan zaman “ay mama” deyib qışqırdım. Qapını açaraq qapıdan çölə tam çıxmadım”.

### “Qan pəncərəyə sıçradı”

Şahanə Fəxrətovanın ifadəsinə görə, Ruslanın onun arxasınca gəlmədiyini hiss edib: “Dönərək baxdım. Ruslanın çarpayıdan sağ çiyin üzərində yerindən qalxdığını və bıçaq iki hissəyə bölünmüş şəkildə çarpayının qarşısına düşdüyünü gördüm. O, sol əli ilə sağ boyun hissəsini tutdu, tutduğu nahiyədən qan gəldi.



Ruslanın yanına gəldim, sol qolundan tutaraq çarpayıdan qaldırdım, ona kömək etməyə çalışdım. O, sol tərəfi ilə məni yaxın durmamağım üçün itələdi.

Həmin vaxt əlinin sağ boyun nahiyəsindən çəkildiyi üçün qan təzyiqlə pəncərə istiqamətinə doğru sıçradı. Ruslan yenidən sol əli ilə boynunu tutdu, sağ əli ilə masadan tutatuta qayınanam və qayınatamın yatdıqları otağa doğru getdik”.

### “Hadisə barədə danışmadım”

Təqsirləndirilən şəxsin ifadəsinə görə, həmin vaxt Ruslan bir qədər büdrəyib: “Ruslan masadan tutan zaman əyilərək yerdən bıçağın dəstəyini götürdüm, sol qoltuqaltı nahiyəmə qoydum. Bir əlimlə Ruslanın sol qolunun dirsəklə çiyin arasında olan hissəsindən, bir əlimlə də eyni istiqamətdə bel hissəsindən tutaraq ona kömək etdim. Bıçağın dəstəyini görəndə bir anlıq əlimi buraxdım, bıçağın dəstəyini götürdüm, tiyəsi gözümə dəymədi.

Bıçağı görəndə nəyə görə götürdüyümü bilməmişəm. Amma bıçağı götürərək qayınanam və qayınatama göstərib, Ruslanın məni vurmaq istəyən zaman onu itələməyim nəticəsində hadisənin baş verdiyini danışacağımı düşündüm. Ruslan öldüyünə görə qorxdum və hadisə barədə danışmadım”.

### “Nə etmək istədiyimi bilmədim”

Şahanə Fəxrətova bildirib ki, Ruslan qonaq otağından çıxaraq divardan tuta-tuta uşaqları Əminə və Telmanın yatdığı otağa tərəf gedib: “Qayınanam və qayınatamın yataq otağının qapısını açdım. “Mama, Ruslanı qan apardı”, - deyə qışqırdım. Əminə yuxudan oyandı, Ruslan Əminənin qucağına yıxıldı. Qayınatam Telman əynini geyinərək təcili yardım çağırmağa getdi.

Əminə mənə qonşu İlqarı çağırmağı tapşırdığı üçün ayaqyalın gecə paltarında qonşunu çağırmağa getdim. Bir qədər sonra həkimlər gəldi, müayinə edərək Ruslanın öldüyünü dedilər.

Bu xəbəri eşitdikdən sonra özümü itirdim. Qorxduğum üçün bıçağın tiyəsini çarpayının qarşısında yerdən götürdüm, sol qoltuqaltı nahiyəmə qoyduğum bıçağın dəstəyi ilə birlikdə yerə atmaq istədim. Nə edəcəyimi bilmirdim... Otağın pəncərəsinin torunu çıxararaq bıçağın hər iki hissəsini həyətə atdım”.

### “Məni şantaj etdi”

Təqsirləndirilən şəxs bildirib ki, bıçağı pəncərədən atan zaman qonaq otağında heç kim olmayıb: “Ruslan öldüyünə görə məni tutacaqları halda uşaqlarımın sahibsiz qalacağını fikirləşdim. Hadisənin təsirindən qorxmuşdum.

İstintaqın gedişatında ərimin hansı şəraitdə xəsarət alması barədə iki övladımın başsız qalmaması üçün düzgün məlumat verməmişəm. Baldızımın əri Ruslanın yas mərasimi günü mənə yaxınlaşdı. Mənim tutulacağımı, işgəncə veriləcəyini, elektrik naqilinə qoşulacağımı, özünün naxçıvanlı olduğu üçün hər yerdə tanışı olduğunu deyərək məni şantaj etdi. İsadan qorxduğum üçün ona hadisə barədə hazırda xatırladığım məzmunda uyduraraq danışdım.

İsaya ərimin telefonumu yoxlaması, bıçaq götürərək ərimin yanına getməyim, özümü öldürəcəyimi ərinə deməyim barədə heç bir söz deməmişəm. Bu barədə İsanın verdiyi ifadələr həqiqətə uyğun deyil”.

### “Dedi ki, dur, uşağı qan apardı”

Cinayət işi üzrə zərərçəkmiş şəxsin hüquqi varisi qismində ifadə verən Telman Fəxrətov bildirib ki, oğlu Ruslan ali təhsillidir, Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialını bitirib. 2012-ci ildə arvadı Əminənin qohumu Şahanə ilə evləndi, birgə nikahdan 1 qız, 1 oğlu var. Ruslanla Şahanə arasında əvvəllər dava-dalaş mübahisə olmayıb.

Hadisə baş verən günü saat 08.00-da arvadım Əminənin qışqıraraq dedi ki, dur, uşağı qan apardı. Onun səsinə yuxudan oyandıqda oğlum Ruslanın yatdığım otaqda çarpayının başında ayaq üstə dayandığını, boynundan qan axdığını, gəlinim Şahanənin dəhlizdə qapının yanında dayandığını gördüm. Həkim çağırmaq üçün evdən çıxdım. Poliklinikaya çatmamış yolda təcili yardım avtomobilinin gəldiyini gördüm, həmin avtomobilin qarşısını kəsərək kömək lazım olduğunu dedim.

Birlikdə evə gəldik. Evə çatdıqda oğlumun yerə yıxılmış vəziyyətdə anasının qucağında gördüm. Həkim oğlumu müayinə edərək öldüyünü bildirdi”.

### “And iç ki, Ruslanın ölümündə günahın yoxdur”

Telman Fəxrətovun ifadəsinə görə, nə baş verdiyini öyrənmək üçün oğlunun yatdığı qonaq otağına keçib: “Otaqda çarpayının üzərindəki döşəkdə qan olduğunu, pəncərədə olan çərçivəli torun çıxarılaraq yerə qoyulduğunu, evdə bir çox əşyanın üzərinə qan damcıları düşdüyünü gördüm.

Yas mərasimində gəlinim Şahanəni çağıraraq ona “and iç ki, Ruslanın ölümündə günahın yoxdur”, - dedim. Şahanə heç bir söz demədi. Səhəri gün atası mənə Şahanənin and içərək Ruslanın ölümündə günahı olmadığını dediyini bildirdi. Şahanənin oyaq olduğu üçün oğlumun ölümündə ondan şübhələndim. Ruslan hadisədən iki ay əvvəl iş yerində stuldan yıxılaraq qolundan xəsarət almışdı.

Ruslanı Sabunçu rayonu 3 saylı xəstəxanaya aparmışdılar. Bundan sonra öldüyü günə kimi oğlum sağ qolunu işlətməmişdi”.

### “Dedi ki, sən mənim ərimlə gəzirsən”

Hüquqi varisini sözlərinə görə, Ruslanın kiçik oğlu Telmanın ondan olmadığını öyrəndiyinə görə Şahanə ilə aralarında mübahisə yaranıb: “Şahanənin Ruslanı bıçaqla vuraraq öldürdüyünü fikirləşdim. Kiçik nəvəm Telmanın Ruslanın oğlu olub-olmamasını müəyyən etmək məqsədilə qızım Lalə və nəvəm Telmandan nümunələr götürərək DNT analizi keçirtdik.

Analizinin nəticəsinə görə Telmanla bibisi Lalənin qohumluq əlaqəsi müəyyən edilmədi. Təxminən hadisədən 2-3 il əvvəl biri hicablı olmaqli iki nəfər qadın bizim yaşadığımız mənzilə gəlmişdilər. Hicablı qadın Şahanəyə dedi ki, sən mənim ərimlə gəzirsən. Həmin şəxslər Şahanəyə öz adı ilə deyil, Nuranə adı ilə müraciət etdilər, Şahanənin adını səhv dediklərinə görə gələn qadınların yalnışlığa yol verdiyini düşündüm və oğlum Ruslana onların səhv etdiyini söylədim. Həmin qadınlara da Şahanənin gəlinim olduğunu bildirdim. Bundan sonra həmin qadınlar evdən getdi”.

### “Xəyanət etməsi təsdiqini tapıb”

Telman Fəxrətov bildirib ki, səhəri gün həmin şəxslərin olmasını təxmin etdiyi şəxslər yenidən gəliblər: “Onlar qonşu İlqardan Şahanəni soruşaraq gediblər. Gələnlərin kimliyi ilə maraqlanmadım. Əminə və Şahanədən bu barədə soruşduqda, Şahanə həmin şəxsləri tanımadığını, heç kimlə münasibətinin olmadığını dedi.

İlqara başqa söz-söhbət yaranmasın deyə həmin şəxslərin Şahanənin qohumları olduğunu dedim.

Gəlinimizin oğluma xəyanət etməsi ilə bağlı şübhələrim ibtidai istintaq və məhkəmə zamanı iş üzrə dindirilmiş şəxslərin ifadələri ilə öz təsdiqini tapıb.

Şəhanənin itmiş nişan üzüyünün evimizə gətirdiyi oğlan tərəfindən götürüldüyünü də onun ibtidai istintaqın əvvəlində verdiyi ifadəsinə əsasən bilmişəm”.

### “İnstaqramdan istifadə etməsindən şübhələnmişdim”

Cinayət işi üzrə şahid qismində ifadə verən təqsirləndirilən şəxsin qayınanası Əminə Fəxrətova bildirib ki, təxminən hadisədən 2 il əvvəl bacısı İlhamə ona Şahanənin İnstaqram sosial şəbəkəsindən istifadə etdiyini deyib: “Bacım Şahanədən ona: “Arvad başa düşüb, zəng eləmə”,- məzmununda mesaj gəldiyini bildirdi.

Bu barədə Şahanədən soruşanda o, həmin mesajı bacısı Samirəyə yazdığını, səhvən İlhaməyə getdiyini bildirdi. Buna görə Şahanənin atası Məstalını çağırdım, İlhaməyə göndərilən mesaj barəsində danışdım və qızının İnstaqram sosial şəbəkəsindən istifadə etdiyini, oğlanlarla söhbətləşdiyi barədə gümanımı dedim.

Şahanənin İnstaqram sosial şəbəkəsindən hansı formada istifadə etdiyini bilməmişəm. Məstalı mənə Şahanənin elə hərəkətlərə yol verən insan olmadığını dedi. Dəqiq məlumatım olmasa da, Şahanənin telefondan çox istifadə etdiyindən onun yenə də İnstaqramda olmasından şübhələnmişdim. Guman ki, Ruslanda Şahanənin telefonunu yoxlayıb”.

Bu cinayət işi Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Siyavuş Hacıyevin sədrlik etdiyi kollegiyada baxılıb.

Şahanə Fəxrətova 11 il müddətinə azadlıqdan məhrum edilib.

# SOCAR Amerika Neft İnstitutu ilə memorandum imzalayıb

***SOCAR və Amerika Neft İnstitutunun (API) rəhbərliyi arasında videogörüş keçirilib, sənaye proseslərinin təhlükəsizliyi və keyfiyyəti üzrə əməkdaşlıq barədə memorandum imzalanıb.***



Şirkətdən "Unikal"a bildirilib ki, SOCAR-ın prezidenti Rövnəq Abdullayev 20-ci əsrin əvvəlində Azərbaycanın neft sənayesinin elmi-texniki nailiyyətləri, tarixi ilkləri haqqında məlumat verib. Deyib ki, SOCAR-ın yeni inkişaf strategiyası təkmilləşdirilmiş effektiv idarəetmə sistemi və beynəlxalq standartların tətbiqini labüdləşdirir: "Bu baxımdan davamlı inkişafın və texnologiyanın sürətli dinamikasına API çevik şəkildə öz töhfələrini verməkdədir. Dünyanın ən qabaqcıl neft-qaz korporasiyaları tərəfindən tətbiq olunan API Spesifikasiya Q1/Q2 Keyfiyyət İdarəetmə standartlarının SOCAR-da tətbiqinə başlanılması buna bariz nümunə olacaq. İnanırıq ki, bu məqsədlə API-nin qabaqcıl sənaye standartlarının tələblərinə uyğunluq və bütün işlərimizi müvafiq standartlar çərçivəsində qurub müasir təcrübələrin tətbiqi, əməkdaşlarımızın həyat və sağlamlığının qorunması və ətraf mühitin mühafizəsi ilə yanaşı, şirkətin əməliyyat effektivliyinin artırılmasına da mühüm töhfə verəcək".

API-nin prezidenti Mayk Sommers institut haqqında təqdimatla çıxış edib. O bildirib ki, 2019-cu ildə 100 yaşını qeyd etmiş API hazırda dünyanın əksər ölkələrində tətbiq olunan 700-dən çox standarta sahibdir. API-nin fəaliyyətinin əhatə dairəsinə təlimlər və sertifikatlaşdırma da daxildir. Belə bir memorandumun imzalanması isə nəinki Azərbaycanda, ümumiyyətlə regionda ilk dəfə baş verir.

Sonra tərəflər arasında memorandum imzalanıb. Memoranduma əsasən, SOCAR-ın struktur vahidləri API standartlarına əsasən sertifikatlaşdırılacaq, emal, hasilat və nəqletmə qurumlarının texniki, keyfiyyət və SƏTƏMM idarəetmə sistemləri qabaqcıl təcrübədə olduğu kimi API standartlarına uyğunlaşdırılacaq.

Xatırladaq ki, API 1919-cu ildə ABŞ-ın Nyu-York şəhərində vəkillik, sənaye statistikasının aparılması, standartlaşdırma və vergi xidməti sahəsində fəaliyyət göstərən şirkət kimi qurulub. 1924-cü ildə Birinci Dünya müharibəsindən sonra şirkət qazma sənayesindən geriləməni aradan qaldırmaq məqsədilə ilk sənaye standartının tətbiqinə başlayıb. API standartları bu gün dünyanın aparıcı şirkətlərində tətbiq olunur və şirkətlər arasında əməkdaşlığın əsasını təşkil edir. SOCAR-ın API standartlarına uyğunlaşması son dövrdə aparılan islahatların zəruri tərkib hissəsidir. Bu, SOCAR-ın aparıcı beynəlxalq enerji şirkətləri sırasında yer tutmaq və rəqabət qabiliyyətini artırmaq üçün zəruri şərtlərdən biridir.

# "Azərenerji": "Güləbird" kiçik su elektrik stansiyası tezliklə istismara veriləcək

***Erməni qəsbkarları Azərbaycanın işğaldan azad olunan ərazilərində, ələlxüsus Kəlbəcər, Laçın və digər rayonlarda vaxtilə mövcud olan kiçik su elektrik stansiyalarını darmadağın edərək yararlı avadanlıqlarını söküb aparıb, apara bilmədiklərini yandırıb və ya partladıblar.***

"Azərenerji" ASC-dən "Unikal"a bildirilib ki, hazırda həmin elektrik stansiyalarından heç biri ümumiyyətlə yararlı vəziyyətdə deyil və tamamilə dağıdılıb. Ancaq buna baxmayaraq, artıq "Azərenerji" Prezident İlham Əliyevin işğaldan azad olunan torpaqların yaşıl enerji zonasına çevrilməsi ilə bağlı qarşıya qoyduğu məqsədlərə çatmaq üçün əməli işə keçib və neçə müddətdir ki, Laçın rayonu ərazisində yerləşən, 8 meqavat gücündə "Güləbird" kiçik su elektrik stansiyasında təmir-bərpa işləri aparır və işlər yekunlaşmaq üzrədir. Döyüşlər zamanı ziyan dəymiş avadanlıqlar - stansiyanın maşın zalları, aqreqatları, generatorları, idarəetmə panelləri, transformatorları yenisi ilə əvəzlənir və ya təmir edilir. Eyni zamanda, Həkəri çayından gələn suyu hidroaqreqatlara ötürən və döyüşlər zamanı partlayaraq darmadağın olan boru da yenidən çəkilir.

Növbəlilik əsasında aparılan sürətli işlər nəticəsində "Güləbird" kiçik su elektrik stansiyasının yaxın müddətdə istismara verilməsi planlaşdırılıb. Bunun üçün işə xüsusi briqadalar, podratçı təşkilatlar və mütəxəssislər cəlb edilib.

İlkin olaraq "Güləbird" kiçik su elektrik stansiyasındakı generatorun 10 kilovoltluq tərəfindən çıxan gərginlik Laçın və Qubadlıdakı yaxın ərazilərdəki hərbi hissələrə, gələcəkdə isə yüksək gərginlikli xətt vasitəsilə Qubadlıda tikiləcək yeni 110 kilovoltluq yarımstansiyaya ötürüləcək.



# Maliyyə Nazirliyinin istiqrazlarının yerləşdirilməsi üzrə hərrac keçiriləcək

***Yanvarın 19-da Bakı Fond Birjasında (BFB) Maliyyə Nazirliyinin dövlət ortamüddətli istiqrazlarının yerləşdirilməsi üzrə hərrac keçiriləcək.***




BFB-dən "Unikal"a bildirilib ki, faizli, ortamüddətli dövlət istiqrazlarının ümumi həcmi 50 milyon manat, nominal dəyəri 100 manat, faiz dərəcəsi 7 faiz, tədavül müddəti 728 gündür. İstiqrazlar 2023-cü il yanvarın 17-də ödəniləcək. "PAŞA Kapital" İnvestisiya Şirkəti QSC anderrayter vəzifəsində çıxış edir.

Hərrac zamanı qeyri-rəqabətli sifarişlərin istiqrazların buraxılışının 20 faizdən çox olmamaq şərtilə qəbul edilməsinə icazə verilir. Bundan əlavə, hərrac iştirakçıları tərəfindən istiqrazların alınması üçün verilən sifarişlərin həcmi emitent tərəfindən hərraca çıxarılmış istiqrazların həcminin 20 faizdən aşağı olduğu təqdirdə, emitent bu sifarişləri qəbul etməyə bilər. Hərrac zamanı dövlət istiqrazlarına tələb təklifi üstələyəcəyi və qiymət emitenti qane edəcəyi halda isə, emitent tərəfindən təklif edilən istiqrazların həcmi 50 faizədək artırıla bilər. Hərracda iştirak etməkdə maraqlı olan şəxslər birja üzvü olan investisiya şirkətlərinə müraciət edə bilərlər. Birja üzvlərinin əlaqə vasitələri BFB-nin internet saytının (www.bfb.az) "Üzvlər" bölməsində yerləşdirilib.




# İpoteka kreditləri sərfəli şərtlərlə "Rabitəbank"da

***Şəxsi ev arzusuna çatmağın əsl məqamıdır. İpoteka krediti üçün Rabitəbanka müraciət edən müştərilər 30% ilkin ödəniş etməklə illik 8% ilə ipoteka krediti əldə edə biləcəklər. Kreditin şərtləri çərçivəsində 25 il müddətinədək maksimal əldə edilə biləcək məbləğ 150 000 AZN təşkil edir. Əməkhaqqını Rabitəbankdan alan və ya Bankın müvafiq komitəsi tərəfindən təsdiq edilmiş şirkətlər üzrə siyahıya uyğun gələn müəssisələrin işçilərinə isə eyni şərtlər altında kredit illik 7% ilə ipoteka krediti verilir.***

Unikal.org xəbər verir ki, Bank eləcə də İpoteka və Kredit Zəmanət Fondunun xətti ilə sərfəli ipoteka krediti təklif edir. Güzəştli ipoteka kreditinin illik faiz dərəcəsi 4%, maksimal məbləği 100 000 AZN, müddət isə 30 ildir.

Rabitəbank evi olmayan, eləcə də evini yeniləmək istəyən rəsmi gəlir və ya digər rəsmi gəlir mənbələri olan müştəriləri sərfəli şərtlərdən faydalanmağa səsləyir. Kredit məhsulunun şərtləri ilə linkə keçid edərək yaxından tanış ola, həmçinin, onlayn sifariş edə bilərsiniz - http://rbt.az/ipoteka-krediti.

Bundan başqa Rabitəbankın xidmət şəbəkəsi və 133 Çağrı Mərkəzi bu və digər məhsullarla bağlı suallarınızı cavablamağa hazırdır.

"Rabitəbank" ASC, Azərbaycanın 16 regionu və Bakı şəhərində 27 xidmət məntəqəsi və 73 ATM-i, "Rabitabank Mobile" tətbiqi, İnternet Bankçılıq platforması və "RabitaBot" çatbotu, 133 nömrəli Çağrı Mərkəzi ilə müştərilərin xidmətindədir.

## Azərbaycanda ərzaq məhsulları, içkilər və tütün 5 faiz bahalaşıb - RƏSMİ

***Dövlət Statistika Komitəsinin məlumatına görə, 2020-ci ildə istehlak qiymətləri indeksi 2019-cu ilə nisbətən 102,8 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 105,0 faiz, qeyri-ərzaq məhsulları üzrə 101,3 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 101,0 faiz təşkil etmişdir.***

2020-ci ilin dekabr ayında istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,8 faiz, əvvəlki ilin dekabr ayına nisbətən 102,6 faiz təşkil etmişdir.

2020-ci ilin dekabr ayında ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 101,8 faiz, əvvəlki ilin dekabr ayına nisbətən 104,5 faiz təşkil etmişdir.

Ötən ilin dekabr ayında əvvəlki aya nisbətən ayrı-ayrı ərzaq məhsullarından daha çox bahalaşma unun, qarabaşaq yarmasının, makaronun, spagettinin, təzə balığın, pasterizə olunmamış üzlü südün, yoqurtun, brınza pendirinin, yumurtanın, günəbaxan və qarğıdalı yağlarının, bananın, armudun, heyvanın, narın, xurmanın, üzümün, qozun, fındığın, xiyarın, bibərin, badımcanın, çuğundurun, göy lobyanın, kartofun, soğanın, sarımsağın, şəkərin, şəkər tozunun, meyvə şirəsinin, ucuzlaşma isə əsasən mal ətinin, dondurulmuş balığın, limonun, portağalın, naringinin, almanın, kivinin, şabalıdın, pomidorun, yerkökünün qiymətlərində müşahidə olunmuşdur. Digər ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməmişdir.

2020-ci ilin dekabr ayında qeyri-ərzaq məhsulları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,1 faiz, əvvəlki ilin dekabr ayına nisbətən 101,2 faiz təşkil etmişdir.

2020-ci ilin dekabr ayında əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,0 faiz, əvvəlki ilin dekabr ayına nisbətən 101,1 faiz təşkil etmişdir. (Marja)

# Tofiq Quliyev öz oğlu ilə işləməkdən niyə imtina etdi? - "Babək" filminin pərdəarxası

***“Unikal” Kulis.az-a istinadən Eldar Quliyevin ”Babək” filminin təhlilini təqdim edir.***

Bu ekran əsərində görkəmli sərkərdə, siyasi xadim, Xürrəmilərin azadlıq hərəkatına başçılıq edən Babəkin bioqrafiyasının əhəmiyyətli hissəsi-əsasən ərəb işğalçılarına qarşı mübarizəsi təsvir olunur. 1979-cu ildə lentə alınan filmdə ictimai-siyasi-mədəni mühitin təsvirindən başqa, daxildə gedən siyasi mübarizələr də əksini tapıb.

”Mosfilm” və ”Azərbaycanfilm” kinostudiyalarının birgə istehsalı olan ”Babək” milli kinomuzun ən yaxşı tarixi filmidir. Əslində Azərbaycan kinematorafiyasında tarixi kinonun ənənəsi güclü və zəngin deyil. İstər sovet, istər müstəqillik dönəmində çəkilən tarixi-bioqrafik filmlərin əksəri bədii-estetik, özəlliklə dramaturji, ssenari, elə rejissor işi baxımından da uğursuzdur. Çox təəssüf ki, müstəqillik qazandığımız dönəmdə ”Babək” kimi irimiqyaslı, uğurlu film çəkilmədi.

Yeri gəlmişkən, ”Babək” kinomuzun ən bahalı filmi, müasir dillə desək, blokbasterdir. Ümumi büdcəsi 1 milyon 650 min rubl olan filmə Moskva 650 min, Bakı 1 milyon rubl ayırmışdı. Və birinci kateqoriya alan ”Babək”ə bir il ərzində 35 milyon tamaşaçısı baxıb, üstəlik, o, 60-a yaxın ölkə tərəfindən alınıb.

Filmin vizual üslubunda poetik təsvirlər, dialoqlarında pafos üstünlük təşkil edir. Lakin bütün situasiyalarda- istər siyasi müzakirə və döyüş səhnələrində, istər sevgi münasibətlərinin, istərsə də ata-oğul konfiktinin təsviri zamanı qəhrəmanlıq və dramatik pafos filmin strukturunda təbii şəkildə əriyir və bu zaman pafos saxtalıq kimi yox, personajların gündəlik nitqinin, həyatının zəruri parçası kimi meydana çıxır.

Heç şübhəsiz ki, qaldırdığı problemlərə görə ”Babək” bütün dövrlərimizlə səsləşir. Amma əlbəttə ki, məsələ təkcə filmin mərkəzində dayanan problemlərdə deyil. Ona qalsa, müstəqillik dövrümüzdə lentə alınan, ”Cavad xan”ın, ”Hökmdarın taleyi”nin də ideya problematikası müasir tariximizin gerçəkliklləri baxımından aktualdır. Ancaq adı çəkilən ekran işlərinin bədii keyfiyyəti aşağıdır. Bu filmlərdəki aktyor oyunlarının (xüsusən də baş rolların ifaçıları Nurəddin Mehdixanlını, Fəxrəddin Manafovu nəzərdə tuturam) keyfiyyətindən isə danışmağa dəyməz. Əgər biz real Babəki Rasim Balayevin parlaq (sözün həqiqi mənasında) ifasındakı Babəklə eyni səviyyədə qəbul ediriksə, bu sözləri Cavad xanın, İbrahimxəlil xanın ifaçıları haqda demək olmaz.



”Babək” filmində daha önəmli məsələ Eldar Quliyevin, operator Rasim İsmayılovun hekayənin adekvat ekran həllini, ifadə vasitələrini, estetikasını tapmasıdır. Bundan başqa ssenari (Ənvər Məmmədxanlı) də yığcam, səliqəli işlənib. Babəkin siyasi mübarizəsi ilə yanaşı digər paralel xəttlər-onun qadınlarla münasibəti, oğlu ilə münaqişəsi, idarəçilik bacarığı əsas xəttlə bütünləşir. Vacib bir məqamı qeyd edim ki, ”Babək” filmini Həsən Seyidbəyli çəkməliydi. Kino tədiqiqatçısı Nəriman Əbdürrəhmanlının sözlərinə görə, Həsən Seyidbəylinin ”Babək” filmindən imtinasının səbəblərindən biri ssenarist Ənvər Məmmədxanlı ilə arasındakı fikir ayrılığı olub, bundan başqa Mərkəzi Komitənin mədəniyyət şöbəsinin müdiri Azad Şərifov da imkan verməyib ki, Seyidbəyli ssenarinin strukturunu dəyişsin: ”Həsən müəllim öz konsepsiyasını qoymağa, ssenarini dəyişdirməyə çalışıb. Ənvər Məmmədxanlının ssenarisi əslində tarixi faktlara söykənmirdi. Seyidbəyli Ziya Bünyadovu film istehsalata buraxılanda məsləhətçi kimi dəvət etmişdi. Ziya Bünyaov müsahibələrində deyir ki, mən çox çalışdım ki, ssenari müəyyən ərəb mənbələrinə söykənməsin, çünki onları çox saxtalaşdırıblar. İkinci konflikt filmə hazırlıq mərhələsində maliyyə yeyintisi ilə bağlı olmuşdu və Seyidbəyli buna etiraz etmişdi”.



Nəticədə Seyidbəyli filmdən imtina edib. Bir müddət filmə rejissor tapılmayıb. Kinostudiyanın sədri Cəmil Əlibəyov onu bir neçə rejissora təklif etsə də, razılaşmayıblar. Kinostudiya rejissor üçün Moskvaya müraciət edib. Ordan isə Eldar Quliyevə həvalə etməyi məsləhət görüblər. Eldar Quliyev öncə, ”Babək”in onun mövzusu olmadığını desə də, sonradan çəkməyə razılaşıb. Və o vaxt xəstəxanda müalicə alan Seyidbəyli ilə məsləhətləşərək onun xeyir duasını alıb. Rejissorun atası, bəstəkar Tofiq Quliyev buna görə ”Babək”də oğlu ilə işləməkdən imtina edir. Çünki o, Seyidbəylinin əksər filmlərində onunla əməkdaşlıq etmişdi. Və Seyidbəylinin imtinasından sonra ”Babək” də bəstəkar qismində çalışmağı etik saymır.

Rejissor Ziya Şıxlinskinin sözlərinə görə, Seyidbəyli ssenaridə ilk epizodu dahiyanə işləmişdi: ”İlk səhnə Babəkin uşaqlığından başlayır, zədrüştlüklə bağlı bayram keçirilir. Onda nə islam, nə xristianlıq dini qəbul edilməmişdi. Bu zaman ərəblər hücuma keçərək vəhşilik törədir və Babək baş verən qəddarlıqların şahidi olur. Yəni ondan sonra o, Babək olur”.

Bu mənada ”Babək” filmində müəyyən dramaturji boşluqlar olsa da, yəni Babəkin mübarizəsinin səbəbi yetərincə əsaslandırılmasa da (yeri gəlmişkən, Pərvinlə Babəkin ilk tanışlıq epizodları çəkilsə də, xoronometrajın uzunluğu səbəbində ixtisara salınıb. Və Pərvinin sonrakı səhnələrdə Babəklə həmin tanlşlıq epizodunu xatırlatması da əhvalatda müəyyən anlaşılmazlıq yaradır), bütün hallarda film kino tariximizdə layiqli yeri tutur və tamaşaçı onu sevir.

Sözsüz ki, ”Babək” hər şeydən əvvəl ideya filmidir. İdeyalılıq filmin hər epizodunda əksini tapır. Təsadüfi deyil ki, filmdə səslənən çox fikirlər aforizmə çevrilib: ”Lakin sən analamadın ki, bu dünyada bircə gün azad yaşamaq 40 il boyunduruq altında sürünməkdən daha üstündür. Azadlıq verilmir, alınır, qan bahasına, qurban bahasına. Qorxaq yüz dəfə ölür igid bir dəfə.”

Vurğulanan məsələlərdən biri ölkədaxili daxili konflikt səbəbindən milli birliyin alınmamasıdır. Cavidanın (Şahmar Ələkbərov) Əbu İmranla (Yaşar Məmmədov) düşmən münasibətini Babək yoluna qoymağa, onları milli birliyə çağırsa da buna nail ola bilmir. Onların təkbətək döyüşün xarakteri və bir-birini qətlindən sonra, meyitlərin mizanı ilə müəllif aktual mesaj verir: hakimiyyət uğrunda ambisiyalardan, lazımi məqamda güzəştə getməməkdən heç kəs fayda götürmür və bu mübarizədə qalib tərəf yoxdur.

Emosional və məzmunca güclü, təsirli səhnələr, dialoqlar təkcə peşəkar akyor oyununun yox, eyni zamanda dəqiq seçilmiş planlar, rakurslar, montaj həlli, mənalı pauzalar, rəssam işi (Mayis Ağabəyov) və s. sayəsində baş tutur. Babəki sevən iki qadının ilk tanışlıq səhnəsində Babəklə Zərnisənin (Amaliya Pənahova) lakonik dialoqu, effektiv, dolğun portret planları, psixoloji mizanlar sevgi üçbucağının mahiyyətini dəqiq xarakterizə edir. Belə epziodlardan biri də ata ilə oğul Buğday (Məmməd Verdiyev) arasındakı münasibətin təsviridir. Ata-oğul konflikti tədricən sərkərdə-döyüşçü müstəvisinə keçir.

Filmin əsas ağırlıq mərkəzi sözsüz ki, Babək rolunun ifaçısı Rasim Balayevin öhdəsinə düşür. Rasim Balayevlə ”Nəsimi” filmində işləyən Seyidbəyli onu ”Babək”ə baş rola təsdiq edir. Bəziləri ”Nəsimi”dən sonra rejissorun bu addımı risk kimi qəbul edir. Lakin Eldar Qulyevin də onun seçimini dəyişməməsi, alınan nəticə Seyidbəylinin rejissor intuisiyasının dəqiqliyini və aktyor seçimindəki peşəkarlığını göstərir.

Rasim Balayevin qəhrəmana, cəngavərə xas xarizması, duruşu, ikinci plandakı mükəmməl oyunu, çətin psixoloji vəziyyətlərdə sükutuyla, bədən diliylə təmkinli ifası, gözləri ilə danışması, səsinin, intonasiyasını gücü, soyuqqanlı və emosional vurğuları doğru zamanlaya bilməsi oyununun uğurunu təmin edir.



Fikrimi arqumentləşirmək üçün iki epizodu misal çəkmək istəyirəm. Yuxarıda qeyd etdiyim bir epizodda oğluyla konfliktdə o, ata statusundan sərkərdə kimliyinə orqanik keçdiyi kimi, oğlunun ölümünə reaksiyası zamanı da sərkərdə statusundan ata kimliyinə keçiddə hisslər ardıcllığını dəqiq oynayır. Və ya qəddar, paranoik təbiətli xəlifə Mötəsim (Hamlet Xanızadə) əsir Babəki sındırmağa çalışdığı epizodda da o, sadəcə təsvirin diliylə reaksiya verir.

Filmdə ədalət və müabrizlik simvolu kimi təqdim olunan Babəkin tədricən çöküşünü görürük: dostlarının ölümünün, bəzi silahdaşlarının xəyanəti, sevdiyi qadın tərəfindən tərk edilməsi, oğluna olan məyusluq üzündən dərinləşən kədəri, ağrısı. Lakin yenə də onun daxili müqaviməti sarsılmır. Son epizodlardan birində həmişə qələbəlik olan masanın arxasında Babəkin təkliyi onun tənhalığının və məğlubiyyətinin vizual şərhidir.

Əsgərləri ilə Həmədana kömək məsələsi müzakirə olunan səhnədə məkanın atomosferində, kompozisiyada Leonardo da Vinçinin məşhur ”Sonunu şam yeməyi”nin əsərinin estetikasında istinad olunur. Yeri gəlmişkən belə bir məkan atmosferi ayrı-ayrı səhnələrdə də işlənir. Milsaçün, Afşinin (Həsənağa Turabov) ittifaq təklifini çatdıran elçinin Babəkin nəhəng kölgəsi fonunda kiçilmiş vücudü epizodu. Gah lirik, gah döyüş ruhlu, gah folkor musiqisi (bəstəkar Polad Bülbüloğlu) epizodları tamamlayır.

Sovet dönəmində çəkilən filmlərdə açıq səhnələrə məhdudiyyətlər vardı. Ona görə o dövr rejissorlalmızın filmlərində erotizm eyhamlı, incə estetika ilə işlənir. ”Babək” də istisna deyil. Və erotizm təkcə Zərnisənin ehtiraslı baxışlarında təcəssüm olunmur. Burda rəssam işi də önəmli yer tutur. Qədim interyerdə qırmızı rəng xüsusi vurğulanır, məkanda dekorlarla, onları dnüzümü və rənglərlərə intimlik şəraiti yaradılır.

Uğurlu epizodlardan biri Babəkin Pərvinlə (Tamara Yandiyeva) sonradan qarşılaşması səhnəsidir. İbn Bəisin (Səməndər Rzayev) düzənlədiyi məclisdə şəhvətli fraqmentlərlə Pərvinlə Babəkin baxışlarındakı dərin sevgi paralel verilir və bu məzmun, vizual ziddiyyətini ortaya qoyur.

Çəkilişlər Naxçıvandan başqa, Ramana qalasında, kinostudiyanın pavilyonunda, Surxanıdakı ”Atəşgah” məbədində aparılıb. Bəzz qalası çəkilişləri Naxçıvanla Culfa arasında olan məkanda lentə alınıb. Bəzz qalası Mayis Ağabəyovun tərtib etdiyi dekorasiya əsasında hazırlanmışdı.

Döyüş səhnələrinə ”Mosfilm”in ”Kavaler polku”nun diviziyası, əsgərləri, həmçinin Naxçıvan sərhəd qoşunlarının əsgələri cəlb olunub. Azərbaycandan başqa, Gürcüstanda, Daşkənddə, Moskvada 16 fabrik film üçün 1500 dəstdən artıq paltar tikib.

Babək roluna Aleksandr Abdulov, Həsənağa Turabov, Mikayıl Mirzə sınaq çəkilişlərinə dəvət olunsa da, nəticədə Rasim Balayevin üzərində dayanılır. Seyidbəylinin qurluşunda isə Zərnisəni Şəfiqə Məmmədova, Pərvini isə Həmidə Ömərova oynamalıdı.

# İlk gündən son günədək döyüşən polkovnik: "Hücumlar boyu XTQ-ni artilleriya atəşi ilə qoruyurduq"

***Azərbaycanın və azərbaycanlıların 30 ilə yaxın gözlədiyi gün. Həmin gün azərbycanlıların bir-birinə salamdan da əvvəl dediyi ilk söz "Başladı" oldu. Nə olduğunu hər kəs elə bircə sözdən anlayırdı, dünyanın çətin ki, hansısa başqa ölkəsində müharibənin başlamasına onun adını belə çəkmədən bu qədər sevinərdilər.***

Azərbaycan o gün müharibənin başlamasına sevinirdi, çünki bu dava o davalardan deyildi. Bu dava əyilən başımızı dik qaldıracaq davaydı. Bu dava qürurumuzu oxşayacaq davaydı. Bu dava bizdən zorla alınanları geri qaytaracaq davaydı. Bu dava yaşam davasıydı, var olmaq davasıydı, milli özünütəsdiq davasıydı. Bu dava sonunda Böyük Qələbəni gətirəcək davaydı...

44 günlük müharibədə hər günümüz müharibə xəbərlərilə başlayıb, qələbə xəbərlərilə bitdi. Əslində, bitmədi, yeni günə köhnə günün son xəbərlilə başladıq. Ürəyimiz Qarabağda döyündü, dualarımız Ordumuz üçün pıçıldandı, əllərimiz əsgərlərimiz üçün Tanrıya uzandı. Ordumuz qələbəni ovcumuza elə məharətlə qoydu ki, hər birimiz ovcumuzda Azərbaycan boyda bir bir qələbə daşımaq xoşbəxtliyi yaşadıq. Bunu bizə yaşatdıqlarına görə canını Vətən uğrunda fəda edən şəhidlərimizə, sağlamlıqlarından keçən qazilərimizə, döyüşçülərimizə tarix boyu borclandıq. Bu borc hər birimiz ömrümüzün sonuna qədər böyük fəxrlə daşıyacağımız borcdur. Əvəzi heç nə ilə ödənməyəcək Vətən borcu.

Cavid Abdullayev də Vətənin azadlığına, bütövlüyünə görə borclu olduğumuz zabitlərdəndir. 1997-2020-ci illərdə Milli Ordumuzda həqiqi hərbi xidmətdə olub və artilleriyaçı zabit kimi polkovnik-leytenant rütbəsinə yüksəlib. Xidmətdə olduğu dövrlərdə həm ölkədaxili təlimlərdə, həm də xarici ölkələrdə keçirilən çoxsaylı yarışlarda bir çox mükafatlarla, fəxri adlarla təltif olunub.

## İlk gündən son günədək cəbhədə...

"Amma nə qədər çox mükafatlar, fəxri adlar alsam da, keçən ilin yanvar ayında Ordudan tərxis olunandan daxilimdə olan bir hiss məni rahat buraxmırdı ki, bu qədər hərbi gücümüz ola-ola, bu qədər təlimlərdə hərbi biliklərə yiyələnsək də, Qarabağı tam azad edə bilməmişdik.

27 sentyabrda Ali Baş Komandanın əmri ilə Ordumuz irəli atılanda bütün hərbiçilərimiz kimi mən də sevindim və müharibənin ilk günlərindən cəbhədə oldum. Briqadanın artilleriya rəisi kimi Füzulinin alınmasından Şuşanın alınmasına və müharibənin son gününədək öz əsgər və zabitlərimlə ön xəttdə olmuşam və artilleriyaçı zabit kimi qoşunlarımızın hücumlarına dəstək məqsədilə düşmən texnikasının və müdafiə nöqtələrinin məhvi üçün dəqiq atışlarla öz töhfəmizi vermişik",-Cavid Abdullayev "Cümhuriyyət" qəzeti ilə söhbətinə belə başlayıb.

## "Təlimlə döyüşün tamam fərqli olduğunu anladıq"

Mənim üçün müharibənin ilk günündən bir hərbçinin keçirdiyi ilk hissin nə olduğu maraqlıdır. Biz cəbhədən uzaqda ancaq cəbhə xəbərlərinə diqqət kəsilən sıravilər həyəcanlanır, qısa zamanda qələbə xəbəri gözləyir, amma döyüş meydanında hər şey daha fərqlidir. Heç düşünmüsünüzmü ki, peşəkar hərbçi müharibə başladığı xəbəri alanda nə hiss keçirir? Bunu həmsöhbətimə soruşuram, çünki cavab verəcək ən yaxşı həmsöhbət indi odur.

"Səmimi etiraf etmək istəyirəm ki, birinci gündən Füzuli rayonunda döyüşə atıldıq və təlimlərdə amansız qanlı döyüşlərin tamam fərqli olduğunu anladıq. Hər tərəfdə məhv edilmiş erməni hərbçilərinin cəsədləri, erməni ordusuna məxsus sıradan çıxarılmış ağır texnikalar tökülüb qalmışdı. Mülki həyatdan birdən-birə müharibəyə atılan insanların hamısı ilk günlərdə bu hissləri məcburən yaşayır. Mənimçün daha çətini o idi ki, həmişə həqiqi ordu hissələrində xidmət etmişdim, indi isə əsasən Hərbi Səfərbərlik Xidməti tərəfindən çağırılan şəxsi heyət ilə vuruşurdum",- deyə C.Abdullayev cavab verir.



## "Tabeliyimdə olanlar mənim hər bir komandamı sözsüz başa düşürdü"

C.Abdullayev deyir ki, həmin insanların içərisində ən müxtəlif yaşlarda olan və ən müxtəlif peşələrin sahibləri olub:

"Onlarla cəmisi bir neçə gün ərzində təlim keçmək imkanımız olmuşdu. Amma cəmisi 1-2 gündən sonra tabeliyimdə olan həmin insanlar mənim hər bir komandamı sözsüz başa düşür və vaxtında dəqiq icra edirdilər. Cəmisi bir neçə günlük müharibə hamımızı inanılmaz dərəcədə yaxınlaşdırmışdı və elə bil bir neçə il idi ki, bir yerdəydik".

Polkovnik sözləri təmkinlə, amma elə tələffüz edir ki, müharibədə bir yerdə döyüşdüyü yoldaşları üçün darıxdığını hiss etmək mümkündür. Hələ deyirlər ki, hərbçilər soyuqqanlı olur. Görünür, xidmətlə mülki həyatın fərqi də elə bundadır...





## "Xüsusi təyinatlılarımıza "yol açırdıq"

Bir hərbçi üçün həyatının ən unudulmaz xatirəsi yəqin ki, müharibədə yaşadıqları olar. Əgər bu müharibə xalqın illərlə gözlədiyi Vətən müharibəsidirsə, döyüş yolunun hər qarışı müqəddəsdir. C.Abdullayevin döyüş yolu da uzun olub-düz Şuşaya qədər:

"Füzuli rayonunun bir çox yaşayış məntəqələri işğalçılardan azad edilməsindən dərhal sonra komandanlığın əmri ilə Hadrut (Ağoğlan) istiqamətində ağır döyüşlərə başladıq. Bir şeyi mütləq qeyd etmək lazımdır ki, nə qədər müasir silahlardan istifadə etmiş olsaq da, torpaqlarımızın hər bir qarışı qəhrəman hərbçilərimiz tərəfindən qanlı döyüşlər nəticəsində azad edilib. Hadrut erməni birləşmələri tərəfindən çox güclü şəkildə qorunurdu. Bütün hücum əməliyyatları xüsusi təyinatlılarımızla əvvəlcədən birgə müzakirə olunurdu və hücumlar boyu XTQ-ni artilleriya atəşi ilə qoruyur, onlara sanki "yol açırdıq". Bəzən bizə əmr verilirdi ki, öndə olan qüvvələrimizin 50-100 metrliyində olan düşmən qüvvələrini məhv edək. Ağır artilleriya ilə bu dəqiqliklə zərbə endirməyin nə qədər çətin və məsuliyyətli olması məncə hərbçi olmayan şəxslərə də aydınır.

44 günlük müharibə dövründə demək olar ki yuxulamağın, istirahətin və normal yuyunmağın belə nə olduğunu bilməyən əsgər və zabitlərimizin əməyi heç vaxt unudulmamalıdır. Ağır maşınların və ağır artilleriya vasitələrinin yalnız gecələr işıq faralarını yandırmadan yolsuz şəraitdə dağlara qaldıraraq mövqe tutmaq və hər dəfə düşmənə zərbələr endirdikdən sonra gecələr mövqeləri dəyişmək çox ağır prosesdir. Torpaqlarımız azad edildikdən sonra həmin dağları keçdikdə insanın heç cür inanmağı gəlmir ki, həmin yerlərə gecə vaxtı qaranlıqda texnika qaldırmaq mümkün olar".

## "Düşmən yaxşı başa düşürdü ki, istiqamət ya Xankəndi, ya da Şuşayadır"

Polkovnik Hadrut və Füzuli şəhəri azad edildikdən sonra Şuşa istiqamətində hərəkətə başladıqlarından danışır:

"Ən keçilməz yollarla gecə vaxtı ağır texnikalarla yol getməyə, mövqe tutmağa başladıq. Hər bir metr Vətən torpağı uğrunda ağır döyüşlər gedirdi və düşmən heç bir mövqeyini, səngərini asanlıqla əldən vermək istəmirdi. Çünki mənfur düşmən yaxşı başa düşürdü ki, istiqamət ya Xankəndinə, ya da Şuşayadır. Dəfələrlə erməni kəndlərində evlərin damından düşmənin atəş nöqtələrinin koordinatlarını müəyyən edərək həmin nöqtələrin dəqiq məhvinə nail olmuşuq ki, düşmən özü bundan çox vaxt çaşqın vəziyyətə düşürdü. Ən böyük uğurlarımızdan biri isə bütün döyüşlərdə düzgün mövqe seçmək və düşmənin çoxsaylı artilleriya zərbələrinə rəğmən itkilərimizin minimum sayda olması oldu. Ermənilərdən ələ keçirdiyimiz texnikanın, topların, silah və sursatın sayı-hesabı yox idi və həmin silah-sursatlar onların özlərinə qarşı istifadə edilirdi".

## "Bir neçə gündə Xankəndidəki erməni birləşmələrini tamamilə məhv etmək asan idi"

Beləliklə, müqəddəs Şuşa yolçuluğu başlayır. 44 günlük hərbin ən müqəddəs yolçuluğu... C.Abdullayev o yolu da mətanətlə gedib:

"Şuşanın azad edilməsi əməliyyatları haqda çox yazılıb və bu barədə günlərlə danışmaq olar. Şuşa azad edildikdən sonra isə hədəfimiz Xankəndi idi və Xankəndi demək olar ki, mühasirəyə düşmüşdü. Bir neçə gün ərzində Xankəndidə olan erməni birləşmələrini tamamilə məhv etmək Ordumuz üçün artıq çox asan bir iş idi. Lakin noyabrın 9-da Ermənistanın məcbur olaraq kapitulyasiyaya imza atması ilə müharibəyə son qoyuldu və müharibə Azərbaycanın şanlı Qələbəsi ilə başa çatdı".

## Bir müharibənin 3 medalı

C.Abdullayev deyir ki, 44 günlük müharibə Azərbaycan xalqının, Ordumuzun gücünü, xalqla Ali Baş Komandanımızın birliyini və yenilməzliyini bütün dünyaya göstərdi:

"Xalqımıza şərəfini, özgüvənini geri qaytardı. Qısa müddətdə və minimum itkilərlə qələbə qazanmağımlzın əsas səbəblərindən biri də uzun illər böyük xərclər və zəhmət bahasına keçirilən hərbi təlimlərin böyük rol oynadığı şübhəsizdir. Əlbəttə, burada qardaş Türkiyə dövlətinin və türk xalqının hər cür dəstəyini mütləq qeyd etmək lazımdır".

Müharibə başa çatdıqdan sonra polkovnik-leytenant Cavid Abdullayev Ali Baş Komandan tərəfindən "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub. Bunu özü üçün böyük şərəf və məsuliyyət hesab edir:

"Bu təltiflərə görə ölkə başçısına ailəmiz adından minnətdarlığımızı bildirirəm. Bu adların qazanılmasında zəhməti olan bütün zabit və əsgər yoldaşlarıma çox təşəkkür edirəm".

Biz də təşəkkür edirik, cənab polkovnik! Sizin timsalınızda bütün əsgər və zabitlərimizə təşəkkür edirik. Sizə minnətdarlığımızı çatdırmaq üçün indi sözümüz var, sözümüz tükənsə, hissimiz var, hisslərimiz məhv olsa, baxışımız qalacaq.

Və bir də müqəddəslik zirvəsinə ucalan şəhidlərimiz var ki, onların qarşısında sözümüz də, hissimiz də, baxışımız da acizdir...

# Mesaj

(novella)



***Reanimasiya şöbəsinin tibb bacısı Vəsilə artıq bir aydan çox idi ki, işdən sonra yaşadıqları binada özlərinin blokuna girməmişdən qonşu bloka dönürdü. Orada onun çalışdığı şöbədə yatan, son Vətən müharibəsində ağır beyin travması almış əsgər Səmədin valideynləri yaşayırdı. Səməd Sənubər xala və Məcid kişinin tək oğulları idi.***

Hər dəfə də onların ümid dolu baxışları qarşısında o, eyni cümlələri ürək ağrısı ilə təkrar etməli olurdu: "Səməd hələ özünə gəlməyib, süni komadadır, həkimlər nə lazımdırsa, edirlər. Türkiyədən xüsusi olaraq dəvət edilən hərbi həkimlərin daimi nəzarətindədilər bütün yaralılar. Dövlətimiz də onlar üçün hər şeyi edir".

Qapının açıq olduğunu bilsə də, zəngi basdı. Səmədin valideynləri qapını heç gecə də açarla bağlamırdılar, oğullarının bağlı qapı arxasında bir an belə qalmasına razı ola bilmirdilər. Onu hər an gözləyirdilər.

Qapını Məcid kişi açdı, Vəsiləni görcək:

- Bala, xoş gəlmisən, elə səni gözləyirdik, növbətçi olduğun günləri əzbər bilirik.

Otaqda Sənubər xala ilə qucaqlaşıb-öpüşdülər. Sənubər xala səssizcə gözlərini sildi.

Vəsilə sual gözləmədən özü dilləndi:

- Vəziyyəti sabitdir, pisləşməsi, ağırlaşması yoxdur, ürəyi də yaxşı vurur. Həkimlər də əllərindən gələni edirlər.

Sənubər xala bir daha gözünü əlindəki dəsmalla silib dedi:

- Bala, heç olmasa uzaqdan da olsa, oğlumuza baxa bilərikmi? Çox ağırdır axı... biləsən ki, oğlun səninlə eyni şəhərdədir, amma onu görə bilməyəsən...ağırdır... Səmədin dostları sağ olsunlar, gündə gəlirlər, aparıb klinikanın binasını, Səmədin yerləşdirildiyi mərtəbəni də bizə göstəriblər. Onun yatdığı binanı görəndə azacıq da olsa, təskinlik tapırıq.

Vəsilə səsini bir az yavaşıdaraq, aramla danışmağa başladı:

- Mənə diqqətlə qulaq asın. Özünüzü təmkinli, səbrli aparacağınıza söz versəniz, sizə Səmədi görməyə şərait yaradacağam. Bir şərtlə ki, sizə deyəcəklərimi heç kimə deməməli və səssiz qalmalısınız.

Sənubər xalanın gözlərinə sanki işıq gəldi:

- Bala, səsimiz qalıb ki? Səssiz meyitlərə dönmüşük. Kişi ilə bütün günü otaqları fikirli-fikirli o baş, bu başa sərgərdan gəzməkdən üzülmüşük. Nəyə desən, hazırıq. Bu kişini bilmirəm, mən möhkəm qadınam.

Məcid kişi:

- Boy,niyə bilmirsən ki?..Səninlə həlim olduğuma baxma, arvad. Lazım gələndə polad kimiyəm. Oğlumuzun müharibədəki şücaətlərindən qəzetlər yazır, televizorlar göstərir. Bəs o, kimə oxşayıb? Əlbəttə ki - mənə!

Sənubər xanım ərinə dinməzcə baxaraq, Vəsiləyə tərəf döndü:

- Qadan canıma gəlsin, bala, nəyə desən, hazırıq.

Vəsilə mətləbi açdı:

- Bizim reanimasiya şöbəsində bir həkim çalışır, Leninqradda oxuyub, çox savadlıdır, çoxlarını o dünyadan qaytarıb. Bu gün Kamil həkim məni kabinetinə çağırıb təklikdə dedi ki, Səmədin halı göstərir ki, o, həyatla ölümün, o dünya ilə bu dünyanın sərhəddində dayanıb. Üzü o biri dünyaya baxır, çünki gözlərinin qarşısında çox gözəl, əsrarəngiz mənzərələr açılıb. Amma dayandığı yerdən nə irəli, nə də geri bir addım belə ata bilmir. Bu dünyaya - həyata bağlantısı olduğu hiss olunur. Həkim dedi ki, onun fikrincə Səmədi əzizləri çağıra, həyata səsləyə bilərlər. Səs ona çatsa və o, geri baxsa, mütləq ayılacaq. Səs anasının, atasının, nişanlısının da ola bilər. Biz gecə növbəsində buna cəhd edə bilərik.

Sənubər xanım dilləndi:

- Qızım, onun nişanlısı yoxdur axı. Bir-iki dəfə söz atdım, dedi ki, torpaqları düşmən tapdağında olan Vətənin oğullarının evlilik haqda düşünmələri düzgün deyil.

- Yaxşı, birisi gün Kamil həkim də, mən də gecə növbəsindəyik. Sizi müvafiq surətdə geyindirib oğlunuzun yanına buraxarıq. Amma bunu bilən olsa, məni işdən mütləq çıxardarlar, Kamil həkimin də başı ağrıyar. Özünüzü sakit, səbrli aparmağa söz verirsiniz?

Sənubər xala ilə Məcid dayıdan bir söz eyni anda çıxdı:

- Hə...

gGecə reanimasiya şöbəsinin geyinib-soyunma otağında üç nəfər ağ paltar və maskalarda keçiriləcək əməliyyata hazır vəziyyətdə dayanmışdılar.

- Sənubər xala, birinci sizinlə gedirik, Məcid dayı qoy burada bizi gözləsin.

Vəsilə Sənubər xanımın qoluna girib, ona getməkdə dəstək oldu.

Sənubər xanım baş verənləri axıra qədər anlamasa da, artıq ana ürəyi Səmədi hiss etmişdi. Onun ayaqları sözünə o qədər də baxmasa da, ruhu artıq Səmədin, yeganə balasının yanında idi.

Sənubər xanım tək çarpayılıq palataya girəndə gördükləri onu çaşdırdı və istər-istəməz həyəcanlandırdı. O, çarpayıda oğlunun olduğunu bilsə də, onun bədəninə birləşdirilmiş çoxlu naqillərin, nazik rezin borucuqların arasından Səmədi son anda tanıdı və qıçları onu ayaq üstə saxlamaqda taqətsiz oldular. Yaxşı ki, Vəsilə ona müvazinətini itirməməyə kömək oldu və Sənubər xanımı çarpayının baş tərəfində əvvəldən hazırladığı kətilə oturdaraq, pıçıltı ilə:

- Başınızı əyin, - dedi və barmağı ilə Səmədin qulağına işarə edib, - ona nə demək istəyirsinizsə, deyin. Unutmayın, təmkinli olacağınıza söz vermisiniz.

Sənubər xanım dodaqlarını oğlunun qulağına dayadı. İlk ağlına gələn fikir o oldu ki, məhz indi, dodaqlarını oğlunun qulağına dayamış halda ölmək istəyir. Bu, onun arzulaya bildiyi ən yaxşı ölüm olardı. Məhz oğluna yapışaraq ölməyi Allahın ona edə biləcəyi ən gözəl lütfü sayardı.

Vəsilənin səsi onu elə bil yuxudan ayıltdı:

- Sənubər xala, danışın.

O dodaqlarını oğlunun qulağından azacıq aralı tutaraq, özü də tanımadığı, birbaşa ciyərlərinin dərinliyindən gələn boğuq səslə dedi:

- Canım oğlum, əziz balam, Səmədim, sənsiz yaşaya bilmirəm, əziz balam, qayıt! Biçarəyəm, eşit məni, sən mənim həyatımın özüsən, dön geri, dur, elə indi gedək evimizə! Dur, balam mənim, ömrüm mənim!

Bu sözlərdən sonra o, balasının çiynini, qollarının naqillərdən açıq yelərini öpməyə başladı.

- Sənubər xanım, gedək.

Vəsilə Səmədin hıçqırtı içində az qala huşunu itirməkdə olan anasının qoluna girərək, onu yarısürüyərək, palatadan çıxartdı.

Məcid kişi özünü toxtaq göstərməyə çalışsa da, həyəcanını gizlədə bilmirdi. Vəsilə hər ehtimala qarşı onun da qoluna girdi. Gedə-gedə təəssüflə düşünürdü ki, Səmədin beyninə birləşdirilmiş aparatlar ananın səsinə heç bir reaksiya vermədi. Ümidi atasına idi.

Vəsilə Məcid kişini kətildə oturdub, əlini onun kürəyinə qoyaraq, başını Səmədin qulağı tərəfə əydi:

- Məcid dayı, oğlunuza ürəyinizdən keçəni deyə bilərsiniz.

Məcid kişi əvvəlcədən oğluna nə deyəcəyini ölçüb-biçsə də, onu bu vəziyyətdə görəndə hər şey yadından çıxdı. Bir vaxtlar çox iclaslarda etdiyi çıxışların təcrübəsi də karına gəlmədi. Boğazını təkrar-təkrar arıtlayaraq, ağlına ilk gələnləri deməyə başladı:

- Oğlum, igidliklərindən xəbərim var. Kişi kimi vuruşmusan, sağ ol! Çörəyim sənə halal olsun. Vətəni elə sənin kimi oğullar qorumalıdır. Sən Daşaltı əməliyyatında yaralanmısan. Deyim, xəbərin olsun, Şuşa artıq bizimdir. Mərd oğullarımız bunu bacardılar. Şuşa da, bütün Qarabağ da indi Azərbaycanındır! Amma, oğlum, sənin bizdən qabaq getməyin haqsızlıq olar. Mənim çiynim sənin heç boş tabutunun ağırlığına da dözməz. Sənsiz həyatımızın şamı sönüb, qayıt geri, oğlum, onu yenidən yandır! Özümü demirəm, ananın xətrinə qayıt, geri dön, oğlum!

Sənubər nəzarət aparatının lal göstəricilərinə baxsa da, ata gözlərindən qəfil yağış kimi tökülən göz yaşlarını görməyə bilmədi.

gVəsilə taksi sürücüsü olan qardaşı ilə Səmədin valideynlərini yola salandan sonra Kamil həkimin otağına keçib, məlumat vedi:

- Səmədin beyni nə atasının, nə də anasının səsinə heç bir reaksiya vermədi.

Bir qədər dərin sükutdan sonra Kamil həkim təəssüflə:

- Nə edə bilərik? Bacardığımızı edək, dualarımızı da əsirgəməyək! - dedi.

Vəsilə bütün sonrakı günləri düşünə-düşünə qalmışdı, Səmədin valideynlərini ümidsiz qoymaq istəmirdi. Ona elə gəlirdi ki, yenə nəsə etməlidir.

Növbəti dəfə Səmədgilə gedəndə yadına düşdü ki, Səmədin həmişə bir oğlanla gəzib-dolandığını, dostluq etdiyini görürdü. Valideynlərindən soruşdu ki, o oğlan kim idi?

Sənubər xanım ərinə baxıb dedi:

- Yəqin Səmədin dostu Zamiqi deyirg Qızım, onlar uşaq baxçasından başlayaraq, həmişə bir yerdə olublar. Məktəbdə də bir sinifdə oxumuşdular, bir yerdə idmana da gedirdilər. Gecələri-gündüzləri bir yerdə keçirdi, möhkəm dost idilər. Elə cəbhəyə də bir yerdə, könüllü getmişdilər. Silah yoldaşları danışırdılar ki, onlar döyüşdə də çiyin-çiyinə, kürək-kürəyə vuruşublar. Qrad mərmisi düşəndə də yanaşı olublar. Səməd yaralanıb, Zamiq isə şəhid olub. Kədər bizi Zamiqin ailəsi ilə daha da yaxınlaşdırıb, ya onlar bizə, ya da biz onlara tez-tez gedirik, bir-birimizi ovundururuq.

gVəsilə son vaxtlar gecələri pis yatırdı, yaralılarımızın vəziyyətini, dərdini içinə çox salırdı. Belə yuxusuz gecələrin birində ağlına bir fikir gəldi. Ertəsi gün Səmədgildən ünvanı götürüb, onun dostu Zamiqgilə getdi, özünü təqdim etdi, başsağlığı verdi.

Çay içə-içə Zamiqin anası Bəsti xanımdan Zamiqin telefonunu soruşdu. Bəsti xanım bu suala çox təəccüblənsə də, oğlunun telefonunun evdə olduğunu dedi.

- Arada cəbhədən qısa da olsa zənglər edirdi, hər dəfə də deyirdi ki, dayanmadan irəliləyirik, ermənilər qovuruq. Mən ona deyəndə ki, bala, özünü qoru, həmişə eyni cavabı verirdi. Deyirdi ki, ana, sən biləsən, mən necə oğullarla yanaşı vuruşuram. Qorxunun- hürkünün nə olduğunu bilməyən, ölümün gözünə dik baxan igidlərlə yanaşı vuruşduğuma görə qürur duyuram. Ancaq müharibədir, üstünlük bizdə olsa da, hər an hər şey ola bilər. Ən ağır, çətin günə də hazır olun, mən heç kimdən artıq deyiləm, evi də həmişə səliqədə saxlayın!

- Bəsti xanım, bir günlük onun telefonunu mənə verə bilərsinizmi?

Bəsti xanım bir anlıq fikrə gedərək, dedi:

- Nəyəsə gərək olarsa, niyə də ki yox?..

Vəsilə bir xahiş də etdi:

- İcazənizlə telefonun adapterini də götürmək istərdim.

...Növbəti gecə növbəsində o, gecəyarısı Səmədin palatasına daxil olub, Zamiqin telefonunun vatsap yaddaşından seçdiyi bir səsli mesajı Səmədin qulağına yaxınlaşdırdı. Vəsilə Zamiqin Səmədə göndərdiyi səsli mesajların içindən məhz o mesajı seçmişdi. O, telefonun səsini axıra qədər qaldırdı. Zamiqin səsi palataya yayıldı:

- Qaqaş, sabah tezdən voyenkomatın qabağında görüşürük. Nəhayət ki, gedirik Qarabağımızı düşmənlərdən azad etməyə! Sən hazırsan?

Zamiqin bu sözlərindən sonra beyinə qoşulmuş aparatın rəngli işıqları səsli yanıb-sönməyə başladı və Səməd gözlənilmədən, qəfil gözlərini açıb dedi:

- Əlbəttə, hazıram!

Vəsilə sevincək telefonu götürüb, palatadan çıxdı. Kamil həkimin otağına tərəf qaçaraq, ona çatmağa səbr etməyib elə dəhlizdəcə ucadan qışqırdı:

- Kamil həkim, o, qayıtdı!.. Səməd qayıtdı!..

***Hümbət HƏSƏNOĞLU***

# Firuzə İbadova Şuşada Vaqif Poeziya Günlərindən danışdı: "1982-ci ildə ilk konsert proqramını açdım..."





***Azərbaycan Prezidenti İlham Əliyevin Şuşa şəhərini ölkənin mədəniyyət paytaxtı elan etməsi "Vaqif Poeziya Günləri" nin və "Xarı Bülbül" festivalı bərpa edilməsi mədəniyyətimizdə və incəsənətimizdə böyük tarixi əhəmiyyətə malikdir.***

"Unikal" xəbər verir ki, bu barədə Trend-ə Azərbaycanın əməkdar artisti Firuzə İbadova bildirib.

Əməkdar artist qeyd edib: "Xalqımız və Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərlik etdiyi rəşadətli ordu sayəsində 30 ilə yaxın işğaldan sonra ərazilərimizi qaytardıq və indi sülh gəlir. Bu torpaqlarda bir çox ölkələrin nümayəndələrinin iştirakı ilə bir çox yarış və festival keçiriləcəkdir. Bu, hər birimiz üçün böyük bir xoşbəxtlikdir!".

F.İbadova hələ 9 yaşında Füzuli bölgəsində Azərbaycan musiqisinin beşiyi - Qarabağda anadan olan "Bənövşə" uşaq xorunun aparıcı solisti, Azərbaycanın əməkdar incəsənət xadimi Əfsər Cavanşirovun aparıcı solisti olub.

Daha sonra Firuzə İbadova əfsanəvi "Dan Ulduzu" ansamblının tərkibində "Azkonsert"in qastrol səfərində uğurla çıxış edib, Azərbaycan Dövlət Televiziyasının solisti olub. Üstəlik, o əfsanəvi ifaçı, Xalq artisti Şövkət Ələkbərovanın ilk tələbəsi idi.

Ötən əsrin 70-ci illərindən bəri müğənni, xüsusən də Qarabağ bölgəsində bir çox konsert proqramlarında və tədbirlərdə iştirak edib və Şuşada "Vaqif Poeziya Günləri" nin açılışında iştirak etməsi ən parlaq xatirə olaraq qalmışdır.

"14 yanvar 1982-ci ildə Azərbaycanın lideri, ulu öndər Heydər Əliyev və məşhur mədəniyyət və incəsənət xadimlərinin iştirakı ilə Şuşada Vaqif Türbəsinin təntənəli açılışı olmuşdur. Respublikanın həyatında çox əlamətdar bir hadisə idi və həmin ilin iyul-avqust aylarında "Vaqif poeziyası günləri" keçirildi. Ulu öndər Heydər Əliyevin ailəsi, xanımı Zərifə Əliyeva və indi atası kimi mədəniyyət və incəsənət işçilərinə həmişə böyük hörmət və qayğı ilə yanaşan sevimli prezidentimiz - oğlu İlham Əliyevlə gəlib".

Firuzə İbadova bildirib ki, sonra xalq mahnısı "Baxçada güllər-"in ifası ilə açdığım Cıdır düzündə konsert proqramı baş tutdu:

"Sənət ustaları arasında ən gənci idim, konserti açmaq mənim üçün böyük şərəf idi. Bir çox yadda qalan çıxışlar olub".

Onun sözlərinə görə, bu böyük bir şeir bayramı olub: "Və sonrakı illərdə "Vaqif Poeziya Günləri"ndə böyük məmnuniyyətlə iştirak etdim".

1989-cu ilin may ayından etibarən mühüm mədəni hadisələrdən biri sayılan "Xarı Bülbül" beynəlxalq festivalı keçmiş SSRİ-nin İttifaq respublikaları, Yaponiya, ABŞ, Türkiyə, Almaniya, İsrail, İtaliya, İspaniya, ABŞ musiqiçilərinin iştirakı ilə təkcə Azərbaycanda deyil, həm də bütün dünyada keçirilməyə başlayıb.

# Azərbaycan səhnəsinin gözəllik pərisi...

***Azərbaycan teatrının görkəmli nümayəndələrindən olan, milli kino sənətimizin bənzərsiz simalarından sayılan Leyla Bədirbəylinin anadan olmasından 101 il ötür. Leyla Bədirbəyli fitri istedada malik teatr ustası kimi ifa üslubundakı səmimiyyət, məlahət və təbiilik sayəsində dramaturqlarımızın və dünya ədəbiyyatı klassiklərinin çox sayda qadın qəhrəmanına zəngin boyalarla parlaq səhnə həyatı verib.***

"Unikal" AZƏRTAC-a istinadən bildirir ki, Xalq artisti, Dövlət mükafatı laureatı Leyla Bədirbəyli yaratdığı təkrarsız obrazlarla öz adını Azərbaycan sənət tarixində yazdırmağı bacaran sənətkarlardandır.

Görkəmli aktrisanın fəaliyyəti dövlətimiz tərəfindən hər zaman yüksək qiymətləndirilib. Prezident İlham Əliyev ötən il dekabrın 29-da imzaladığı Sərəncamla ölkəmizdə Leyla Bədirbəylinin anadan olmasının 100 illiyi ilə əlaqədar silsilə tədbirlər keçirilib.

O, 1920-ci il yanvarın 8-də Bakıda dünyaya göz açıb. Anası Bikə xanım Şəmkirdə Musa xanın qızı, atası Ağalar bəy isə həmin bölgənin kənd bəylərindən olub.

Balaca Leylanın uşaqlıq illəri Bakıda, daha doğrusu, İçərişəhərdə keçib. Leyla Bədirbəylinin sənətə gəlməyində anası Bikə xanımın böyük rolu olub. Belə ki, həmin illərdə Əli Bayramov klubundakı qadınlar dərnəyinə gedən Bikə xanım böyük qızı Leylanı da özü ilə aparırmış. Rəqsə böyük marağı olan gələcəyin məşhur aktrisasının istedadını üzə çıxardığı ilk sahə də məhz rəqs olur. Belə ki, fərqli xarici görünüşə və rəqs bacarığına sahib olan L.Bədirbəyli Azərbaycan Dövlət Filarmoniyasına dəvət edilir.



Filarmoniyada çalışdığı illərdə "Ayna" və "Bakının işıqları" filmlərində rol alan Leyla Bədirbəyli 1941-ci ildə 21 yaşında Azərbaycan Dövlət Akademik Milli Dram Teatrına dəvət olunur. O, 33 il bu sənət məbədinin səhnəsində bir-birindən fərqli qadın obrazları yaradıb. Azərbaycan teatrının inkişafında Leyla Bədirbəylinin xidmətləri həmişə xatırlanır. O, milli teatrımızın səhnəsində yaratdığı Sara ("Solğun çiçəklər"), Solmaz ("Od gəlini"), Şəlalə ("Yalan"), Dezdemona ("Otello"), Liza ("Canlı meyit"), Nərminə ("Göz həkimi") və digər bu kimi obrazları ilə mədəniyyət tariximizin qızıl səhifələrini yazıb.

Kinoda bu xanımın parlamağında Üzeyir Hacıbəylinin böyük rolu olur. Belə ki, 1945-ci ildə "Arşın mal alan" filmi çəkilərkən Rza Təhmasib Gülçöhrə rolu üçün gözəl xarici görünüşə malik qız axtarırmış. Məhz Üzeyir Hacıbəylinin tövsiyəsindən sonra Leyla Bədirbəyli bu rola təsdiqlənir.

Əlbəttə, Leyla Bədirbəylinin Azərbaycan kinosunun inkişafındakı fədakarcasına xidməti təkcə Gülçöhrə ilə bağlı deyildir. İstedadlı aktrisa 50-yə yaxın filmdə, o cümlədən "Səbuhi", "Fətəli xan", "Dəli Kür", "Sevil", "Onun böyük ürəyi", "Dərviş Parisi partladır" filmlərində unudulmaz, eləcə də yaddaqalan obrazlar yaradıb.

"Azərbaycan gözəli" adını almış aktrisa 1999-cu il noyabrın 23-də vəfat edib və Fəxri xiyabanda dəfn olunub.



# Həkimindən Rəmişin səhhəti ilə bağlı açıqlama

***Xalq artisti Rafiq Hüseynovda (Rəmiş) qaraciyər transplantasiyası həyata keçiriləcək.***

"Unikal" qafqazinfo-ya istinadən xəbər verir ki, bu barədə tanınmış gitara ifaçısının həkimi Nuru Bayramov məlumat verib.

Həkim "Elgizlə izlə" proqramına telefonla bağlanaraq bildirib ki, Rəmişdə hepatit C mənşəli xroniki qaraciyər xəstəliyi aşkarlanıb:

"Ağciyərində də problem var. Hazırda Rəmiş müəllimi qaraciyər transplantasiyasına namizəd kimi qəbul edirik. İndi müalicə davam edir. İlk növbədə ağciyərini yoxlayırıq. Bu arada da vaxt itirməmək üçün hepatit C-nin müalicəsinə də başlanılıb. Müalicə təxminən altı ay davam edəcək.

Qarına su yığılmağı qaraciyərindəki problemlə bağlıdır. Ağciyərində hər hansı problem olmasa, yaxın gələcəkdə qaraciyər dəyişdirilməsini həyata keçirəcəyik".

# "Bu günün rəssamı" adlı layihəyə start verildi

***Layihənin ideya müəllifi Heydər Əliyev Sarayının direktoru Ramil Qasımovun əsas məqsədi vətənpərvərliyin tablolarda tərənnüm olunması, gənc və istedadlı rəssamların təbliği və bacarıqlarının inkişaf etdirilməsidir.***

"Unikal" Trend-ə istinadən bildirir ki, layihənin ilk iştirakçıları Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rəssamlıq fakültəsinin tələbələri oldular. Gənc rəssamlar yaratdıqları əsərlərdə vətənə, müzəffər ordumuza və şanlı Azərbaycan əsgərlərinə olan məhəbbət və sevgilərini ifadə ediblər. Vətən müharibəsində şəhidlik zirvəsinə yüksələn əsgərlərimizin, qazilərimizin, bir sözlə şanlı əsgərlərimizin qəhrəmanlıqlarını tablolarında tərənnüm ediblər.

Qeyd edək ki, koronavirus pandemiyası bitdikdən sonra layihə daha geniş miqyasda davam edəcək və layihə çərçivəsində müasir Azərbaycan rəssamlarının sərgiləri nümayiş etdiriləcəkdir.

# Səfurə İbrahimovanın qardaşı da vəfat etdi

***Xalq artisti, sevilən aktrisa Səfurə İbrahimovanın qardaşı Zahid İbrahimov dünyasını dəyişib.***

"Unikal" moderator.az-a istinadən xəbər verir ki, bu haqda aktrisanın qardaşı qızı Könül İbrahimova məlumat verib.

"Atam mənimlə yaşayırdı, uzun illərdir ki, xəstə idi. Bibim xəstələnib yatağa düşəndə atamı da gətirib, onun yanında yerləşdirdim. Çünki hər ikisinə mən baxırdım. Atam bibimin xəstəliyi və daha sonra da ölümü ilə barışa bilmirdi. Onu hədsiz çox istəyirdi, mən bilirdim ki, atam ondan sonra çox yaşamayacaq. Bibimi itirəndə gözləri doldu, xəstəliyi yadından çıxdı. Gəlib onun çarpayısının yanında oturub saatlarla ağlayırdı. Atamı da bibimin yanında dəfn etdik", - o bildirib.

Qeyd edək ki, Səfurə İbrahimova dekabrın 22-də dünyasını dəyişib.

# Qida borusunun disfunksiyası

***Qida borusunun disfunksiyası-qida borosunun üzvi dəyişiklikləri olmadan qidanın udlaqdan mədəyə ötürülməsi ilə əlaqədar olan motor funksiyasının pozulmasıdır,***

Qida borusunun motor funksiyasının pozulması qidanın anteqrad hərəkətinin dayanması və ya ləngiməsi, ya da ki, onun retroqrad hərəkətinin meydana gəlməsidir.

Qida borusunun disfunksiyası bircinsli, yəni müstəqil inkişaf edən xəstəlik və ikicinsli ,digər xəstəliklərin təzahürü kimi ola bilər. Digər xəstəliklər dedikdə divertikulitlər,ezofaqitlər,diafraqmanın qida borusu dəliyinin yırtığı, yəni törəmə nəzərdə tutulur.Şəkərli diabet , sistemli sklerodermiya,mərkəzi və perpferik sinir sisteminin ağır zədələnmələri,əzələ distrofiyası,xora xəstəliyi, xroniki xolisistit kimi xəstəliklər də qida borusunun disfunksiyasına səbəb ola bilir.

**Qida borusunun birincili disfunksiyasının əsas səbəbləri:**

-Psixoemosional stress situasiyaları

-Qida borusunun sinir əzələ aparatının irsi anatomiyaları

**Qida borusunun disfunksiyası qidanın mədəyə normal düşməsinə , mədədə olan qidanın həzmə normal getməməsinə səbəb olur. Disfunksiya zamanı baş verən xoşagəlməz xəstəliklərdən biri də hipermotor diskineziyadır.Onun əsas simptomları aşağıdakılardır:**

-Disfaqiya -udmanın çətinləşməsi

-Döş sümüyü arxasının ağrıları

-Boğazında loxma (tikə) qalma hissi

-Qida borusu konturlarının dişliliyi .Bu zaman qida,qida borusunun hər hansı bir hissəsində 5 saniyədən çox ilişib qalır

**Təzahurləri:həyəcanlandıqda, tələsik yedikdə,qidanı kifayət qədər çeynəmədikdə qidanın borusundan çətin keçməsi**

- döş sümüyünün arxasında dolma hissi

-qida borusunun genişlənib qidanın orada qalması

- döş sümüyü arxasında ağrı

Müalicəsi:Tez-tez ,az-az qidalanma ,axşam yeməyi yatmazdan 3 saat əvvəl olmalıdır Xəstəyə spazmolitiklər,sakitləşdiricilər təyin olunur.

# Mədə-bağırsaq qanaxması

***Mədə-bağırsaq qanaxması həzm orqanlarının yanaşı gedən və xroniki pankriatitin özünün fəsadları ilə bağlıdır. Həzm orqanlarının bu xəstəlikləri - xora xəstəliyi, eroziv qastrit, mədə şişləri, Mellori -Veys sindromuna aiddir. Mədə-bağırsaq qanaxması qida borusu və mədənin kardial hissəsinin dalaq venasının trombozu və sonradan portal hipertenziyanın inkişafı nəticəsində əmələ gələn varikoz genəlmiş venalara görə baş verir. Qanaxmanın səbəbi mədəaltı vəzinin absesləri̇nin bağırsağı deşməsi də ola bilər.***

**Mədə-bağırsaq qanaxmalarının əmələ gəlmə səbəblərindən biri**

yuxarıda adı çəkilən onikibarmaq bağırsağın xora xəstəliyidir. Mədə və onikibarmaq bağırsağın xora xəstəliyi xroniki, residivləşən xəstəlik olub mədə və bağırsağın divarında xoranın əmələ gəlməsi ilə təzahür edir.

**Epidemiologiyası:**

Xora xəstəliyi ən çox yayılmış xəstəliklərdən biridir. Duodenal xəstələrin çoxu kişilərdir, mədə xorası xəstəliyi isə say etibarı ilə kişi və qadınlar arasında eyni tezlikdə rast gəlinir

**Təsnifatı:**

Xəstəliyin ümumi qəbul olunmuş təsnifatı yoxdur. Amma bəzi təsnifatlar vardır ki, xoranın əmələ gəlməsində rol oynadığı qeyd olunur:

Helicobakter pylori ilə assosiasiya olunmuş

Helicobakter pylori ilə assosiasiya olunmamış

**Xoranın tipinə görə:**

- təksaylı

- çoxsaylı.

Xəstəliyin əmələ gəlmə səbəbləri arasında qida qəbulları arasında uzunmüddətli fasilələr, psixi faktor, mədə şirəsinin yüksək olması, irsi faktor və s. mühüm rol oynayır .

**Kliniki şəkli:**

Xəstəliyin gedişatı xora deffektinin lokalizasiyasından onun ölçüsündən, dərinliyindən asılıdır. Xəstəlik mədə nahiyyəsində kəskin ağrılarla müşayət olunur. Ağrılar adətən gecələr baş verir. Xəstələrin əksəriyyətində qusma olur.

**Xəstələr vaxtında və düzgün müalicə olunmazlarsa, ağırlaşmalar inkişaf edir. Ağırlaşmalar aşağıdakılardır:**

-Qanaxmalar

-Xoranın perforasiyası

-Mədənin onikibarmağa keçən hissəsində stenozun formalaşması

-Xoranın maliqnizasiyası.

Diaqnozunda əsasən rentgenoloji müayinə rol oynayır. Müalicəsində həm dərman, həm də diyetadan (pəhrizdən) istifadə olunur. Cərrahi müalicə mütləq göstərişdir.

# Azərbaycanlı professordan antivirus qidalar: "Turşunu artırın"



***"Virusun lipid qatını əridən turş yeməklərdir: limon, avokado, sarımsaq, ananas, kivi, portağal. İmmuniteti virusa qarşı möhkətlətmək üçün tövsiyyə etdiyim məhsullarla qidalanmaq sizi və ailənizi nəinki koronavirusdan, bir çox xəstəliklərdən qorumuş olar".***

"Unikal" Almaniya "Beynəlxalq Humanitar Tibbi Yardım" təşkilatının Azərbaycan üzrə rəhbəri, Amerika MİR Humanitar Tibb Cəmiyyətinin sədri, hazırda Almaniyada çalışan professor Ağabəy Azərbaycaninin koronavirusa qarşı qida tövsiyələrini təqdim edir.

**Professorun antivirus qidalar onluğuna bunlar daxildir:**

- Papaya - zəngin vitamin mənbəyidir. Günlük C vitamini dozası bu meyvədə yetərli qədərdir. Bakıda da axtarsaz, tapa bilərsiz. Əzələ kütləsini artırır. Tərkibində A, B vitaminləri, fol turşusu var.

- Sarımsaq, soğan - soyuqdəymə, iltihab, viruslu xəstəliklər zamanı xolesterolu, təzyiqi normallaşdırır, parazitləri öldürür.

- Yaşıl çay - flavonoidlərlə zəngindir. Bu içkiyə Epigallocoachin gallete BUNA (AGCG) deyirlər. Çox güclü antioksidantdır.

Mən özüm qara çay içmirəm. Çünki o zərərlidir, immuniteti zəiflədir. Yaşıl çay nə fermentləşir, nə də oksidləşir. Nəticədə immuniteti qaldırır. Ltiamin isə mədə və mədəaltı vəzidə somatoestatinin hasilinə (ifrazina) kömək edir. Beləcə mədəaltı vəzidən qaynaqlanan insulin hasilini tənzimləyir.

- Brokkoli - kələm ailəsindəndir. Çoxlu vitamin və mineralı var. Bütün xəstəliklərlə, hətta xərçənglə mübarizə aparır. Gərək brokolini ya çiy, ya da bir az isti suda pörtlədib yeyəsiniz. Sərbəst radikalları zərərsizləşdirir. Ağciyərlərdəki, döş qəfəsindəki infeksiyanı aradan qaldırır, damarların təmizlənməsinə kömək edir. Kollagen yaradır, sümüklərimiz, dərimiz üçün vacib bitkidir.

- Zəncəfil - iltihab əleyhinə təsir edir. Badamcıqların iltihabını, sümük, boğaz ağrılarını azaldır. Qusmaya, ürəkbulanmaya qarşı təsirlidir. Toksinləri çıxarır. Xolesterolu salır, immuniteti qaldırır. Viruslara qarşı davamlı təsiri var.

- İspanaq - kalsium, maqnezium, dəmir, A vitamini, beta karotinlə zəngindir. İltihab əleyhinədir, immun sistemi artırır, təzyiqi sala bilir. Salatlarda çiy halda yeyilməlidir. Kükūdə isə çox az odda, xəfif bişirilməlidir.

- Sitrus meyvələr - malyariyada, virus xəstəliklərində orqanizmə kömək edirlər. Oksedativ stresi aradan qaldırırlar.

- Qırmızı bolqar bibər - ən xeyirli bibərdir. Portağaldan 2 dəfə çox vitamin C var. Həmçinin ağciyərlər üçün faydalı beta karotin var. Xərçənglə mübarizə aparır.

- Alma - fərqi yoxdur yaşıl, qırmızı. Onlarda olan pektin mədə-bağırsağa probiotik təsir göstərir. Bilirsiniz ki, bağırsaqlarımızda 80 milyard faydalı bakteriya var. Onları çoxaltmaq lazımdır. İmmuniteti də onlar qaldırır. Hər kəs axşam bir ədəd alma yesə, mədə-bağırsağa çox kömək edir.

- Ən gözəl yeməklərdən biri çox enerji verən tutlardır. Xar tut, qırmızı tut, ağ tut - zəngin vitamin mənbəyidirlər. Tərkibində C vitamini bol olduğundan antioksidant təsir gücü var. Diabet xəstələri də istifadə edə bilər, şəkəri çox deyil. Soyuqdəyməyə, iltihaba xeyirlidir.

- Sarıkök - anti iltihabi tərəvəzdir. Amma keyfiyyətli sarıkök qara istiotla bir yerdə qəbul olunmalıdır. Bu təsiri 17 qat artırır.

- Hər gecə bir qaşıq alma sirkəsi suda həll edib, içə bilərsiz. Mədə-bağırsağa yaxşı təsir edir. Virusa bir o qədər yox.

# Mədə yarası və xroniki qastrit xəstələri necə qidalanmalıdırlar?

***Son illər stresslərin artması və süni qidalardan istifadələrin çoxalması səbəbindən mədə xəstələrinin sayı çox artmışdır. Mədə xəstəlikləri zamanı xəstəlik vaxtında və düzgün müalicə edilmirsə, mədədə xora xəstəliyi əmələ gəlir ki, bu da özünə qarşı diqqət və qayğı tələb edən bir xəstəlikdir. Həkimin göstərişlərinə əməl eləməklə yanaşı mədə xəstələri bir çox qaydalara da mütləq əməl etməlidir. Mədə yarası və qastrit xəstələri hansı qidaları yeməlidir?***



II növ buğda unundan bişmiş çörək və bol suda bişmiş makaron.

Düyüdən, yarmadan bişirilmiş şorba və sıyıqlar.

Şit kərə yağı və bitki yağları.

Südlü şorbalar, həlimli xörəklər, tərəvəz bulyonları.

Az miqdarda şəkər və arı balı.

Göyərtilərdən cəfəri, şüyüd, keşniş.

İçkilərdən turş olmayan meyvə şirələri.

İtburnu, bağayarpağı dəmləmələri. Soyuq və çox qaynar içkilər qətiyyən tövsiyə olunmur.

Çiy soğan, sarımsaq və ədviyyatlar məsləhət görülmür. Duzun miqdarı azaldılmalıdır.

Bu cür xəstələr aşağıdakı qaydalara əməl etməlidir:

- yeməyi az-az və tez-tez yeməlidirlər

- yeməklərini və içkilərini nə çox isti, nə də soyuq qəbul eləməlidirlər

- belə xəstələr süd-yumurta məhsullarına üstünlük verməlidirlər

- spirtli içkilər, qazlı sular, kofe, tünd çay, konservləşdirilmiş ət, içalat və ondan hazırlanan yeməklər, çox qızdırılmış qidalar, ərinmiş yağlar, tomat və yağlı yeməklər, qənnadı məmulatları istifadə etməməlidirlər

- Ağrılar olduğu zaman qidaları ancaq süddən ibarət olmalıdır.

Ağrı tutmasından sonra pəhrizə ən azı 2 həftə əməl olunmalıdır.

# Fransa Güləş Federasiyası loqoda bayrağımızın olmamasına görə üzr istədi



***Fransanın Nitsa şəhərində keçiriləcək güləş üzrə Qran-pri turnirinin təşkilatçıları Azərbaycan bayrağının yarışın loqosunda yer almamasına görə üzr istəyib.***

"Unikal" qəzeti xəbər verir ki, bu barədə Azərbaycan Güləş Federasiyasının Mətbuat katibi Sərxan Musalı məlumat verib.

O bildirib ki, məsələ ilə bağlı dərhal Fransa Güləş Federasiyası ilə əlaqə saxlayıblar: "Onlar qeyd etdilər ki, üzürlü hesab edin, bu, daha əvvəl hazırlanmış loqodur və burada bəzi yarış iştirakçılarının bayraqları yoxdur. Loqoda daha əvvəl bu yarışda olan ölkələrin bayraqları həkk olunub. Buna görə nəzərə alınmayıb. Loqoda elə ölkələrin bayraqları var ki, bu yarışda iştirak etmirlər. Həmin loqo 2020-ci ildə də istifadə edilib. Sadəcə, diqqətsizlik olub və bizə üzürxahlıq etdilər. Təşkilatçılıqla bağlı problem belə ola bilərdi ki, yarış nəkanında bayrağımız olmazdı. Amma bununla bağlı problem olmayacaq".

Federasiya rəsmisi təşkilatçılar tərəfindən heç bir soyuq münasibət görmədiklərini sözlərinə əlavə edib: "Mənfi nəsə hiss etməmişik. Ümumiyyətlə, problem olsaydı, bizim komandalara viza verməz, iştiraklarına problem yaradardılar. Arxivə də nəzər saldıq, Dünya Güləş Birliyinin saytında 2014-cü ildən sonrakı yarışları görmək mümkündür. 2019-cu ilə qədər bu yarış Qran-pri statusu almayıb. 2019, 2020 və 2021-ci illərdə artıq Qran-pri statusu ilə təşkil edilib. Yəni, həmin vaxta qədər ciddi yarış hesab edilmirdi. 2019-cu ilə qədər yalnız qadın və sərbəst güləşçilər arasında keçirilib. 2020 və 2021-ci illərdə isə güləşin hər üç növü proqrama daxil edilib. Biz 2020-ci ildə ilk dəfə bu yarışa qatılmışıq. Həmin vaxt yunan-Roma güləşi üzrə yığma komanda iştirak edib. Bu il isə həm yunan-Roma, həm də sərbəst güləşçilərimiz mübarizə aparacaq. Artıq təşkilatçılar bu çatışmazlığı aradan qaldırıblar və loqoya Azərbaycan bayrağını da yerləşdiriblər".

Qeyd edək ki, Qran-pri 15 - 17 yanvarda olacaq.

# "Bir həftəyə 3 oyun keçirmək asan olmayacaq"- Millimizin baş məşqçisi

***"Azərbaycanda gündəlik təqribən minə yaxın yoluxma olur. Ümumi vəziyyət yaxşıdır".***

"Unikal" qəzetinin məlumatına görə, bu fikirləri futbol üzrə Azərbaycan millisinin baş məşqçisi Canni De Byazi "TMW Radio"ya müsahibəsində deyib.

İtaliyalı mütəxəssis Bakıya qayıdacağı tarixi açıqlayıb: "Ölkədə sərt karantin rejimi tətbiq olunur. Bu, yanvarın 18-də başa çatacaq. Azərbaycana məhz həmin tarixdən sonra yollanacağam".



DÇ-2022-nin seçmə mərhələsinin oyunları barədə də danışan 65 yaşlı baş məşqçi çətin olacağını söyləyib: "Martın 24-də səfərdə Portuqaliya ilə qarşılaşacağıq. Daha sonra Qətər və Serbiya ilə üz-üzə gələcəyik. Bir həftə ərzində 3 görüş keçirəcəyik. Asan oyun olmayacaq. Amma əlimizdən gələni edəcəyik. Oyunlar öncəsi heyətimizin necə olacağını bilmirik".

Qeyd edək ki, martın 24-də Portuqaliyanın qonağı olacaq Azərbaycan millisi, 27-də Qətər, 30-da isə Serbiya ilə qarşılaşacaq.

# Olimpiya çempionu Kapitoliya hücumda ittiham olunur



***ABŞ səlahiyyətliləri üzgüçülük üzrə ikiqat olimpiya çempionu Klit Kelleri yanvarın 6-da Kapitoliyə hücum etməkdə ittiham edib.***

"Unikal" qəzeti "New York Times"a istinadən xəbər verir ki, 39 yaşlı sabiq idmançı üç maddə üzrə ittiham olunur.

Toqquşmaları yayımlayan kameralar Kellerə bənzəyən şəxsi göstərib. O, hazırda hüquq-mühafizə orqanlarına maneçilik törətməkdə, qanuni əsaslar olmadan məhdud giriş imkanı olan hər hansı binaya qəsdən daxil olmaqda və Kapitoli ərazisindəki ictimai asayişi pozmaqla günahlandırılır.

Qeyd edək ki, Klit Keller 2000, 2004 və 2008-ci il Yay Olimpiya Oyunlarında iştirak edib. O, sərbəst üsulla 4x200 m məsafəyə estafet yarışlarında iki qızıl medal qazanıb.

# Millimizin Qran-pri üçün heyəti açıqlandı

***Fransanın Nitsa şəhərində keçiriləcək Henri Deqlan "Qran-pri" turniri üçün Azərbaycanın sərbəst güləş yığmasının heyəti açıqlanıb.***

Unikal.org xəbər verir ki, Nitsada ölkəni baş məşqçi Namiq Abdullayev və böyük məşqçi Zəlimxan Hüseynovun rəhbərliyi altında Mahir Əmiraslanov, Georgi Edişeraşvili, İslam Bazarqanov (hamısı 57 kq), Turan Bayramov (70 kq), Coşqun Əzimov, Hacımurad Hacıyev, Hacımurad Ömərov (hamısı 74 kq), Abubakr Abakarov, Osman Nurməhəmmədov (hər ikisi 86 kq) və Şərif Şərifov (97 kq) təmsil edəcək.

Yığma bu gün Fransaya yollanıb. Sabah sərbəst güləşdə bütün çəkilər üzrə püşkatma mərasimi keçiriləcək və idmançıların ilk rəqibləri müəyyənləşəcək.

Hazırda Türkiyənin İstanbul şəhərində təlim-məşq toplanışını davam etdirən yunan-Roma güləşi üzrə milli isə Fransaya yanvarın 16-da yollanacaq.

Qeyd edək ki, I kateqoriyalı hakim İntiqam Alıyev "Qran-pri"də ədaləti qoruyacaq. Üç gün davam edəcək yarışda ölkəni sərbəst və yunan-Roma güləşçiləri təmsil edəcək. Yarışın proqramına əsasən, yanvarın 15-də qadınlar, 16-da sərbəst güləşçilər, 17-də isə yunan-Roma güləşçiləri mübarizə aparacaq.

# Azərbaycan çempionatlarında ən çox oyun keçirən qapıçılar açıqlandı

***Futbol üzrə Azərbaycan çempionatlarında ən çox oyun keçirən qapıçı Fərhad Vəliyevdir.***

"Unikal" qəzeti Peşəkar Futbol Liqasının rəsmi saytına istinadən xəbər verir ki, qolkiper 282 matça çıxıb. İkinci yerdə Rauf Mehdiyevdir. O, rekorddan 11 oyun geridədir. İlk "üçlüy"ü Cahangir Həsənzadə tamamlayır.

Karyerasını davam etdirən futbolçular arasında ən yüksək göstərici Anar Nəzirova məxsusdur. 4-cü sırada qərarlaşan qapıçının rekorda 32 oyunu qalıb. Ən çox görüşə çıxan legioner qapıçı Saşa Stamenkoviç ümumi siyahıda 17-cidir. Ondan iki pillə geri qalan Kamal Bayramov da karyerasını Premyer Liqada davam etdirənlərdəndir. Kamran Ağayevlə Səlahət Ağayev "Top-20"də yer alsa da, cari mövsümdə iştirak etməyib.

Ən çox oyun keçirən 20 qapıçı:

1. Fərhad Vəliyev - 282
2. Rauf Mehdiyev - 271
3. Cahangir Həsənzadə - 268
4. Anar Nəzirov - 250
5. Nizami Sadıqov - 247
6. Kamran Ağayev - 229
7. Hüseyn Məhəmmədov - 227
8. Nadir Şükürov - 219
9. Elxan Həsənov - 203
10. Elşən Poladov - 200
11. Faiq Əzizov - 196
12. Səlahət Ağayev - 192
13. Camaləddin Əliyev - 173
14. Vitali Kovalyov - 173
15. Davud Kərimi - 162
16. Rauf Salamov - 156
17. Saşa Stamenkoviç - 150
18. Vladimir Kopeykin - 149
19. Kamal Bayramov - 146
20. Rövşən Əliyev - 138

# Azərbaycan millisi İranla yoxlama oyunundan imtina edib

***Azərbaycanın futzal üzrə milli komandasının İran yığması ilə yoxlama matçı baş tutmayacaq.***

"Unikal" qəzeti xəbər verir ki, buna səbəb Azərbaycan millisinin rəsmi oyunlarının olmasıdır. İran yığması Azərbaycan millisi ilə bu ayın sonları, fevralın əvvəlinə yoxlama oyunları arzusunda olsa da, rəsmi görüşlərin də həmin dövrə düşməsi sınaq matçlarının baş tutmasını əngəlləyib. Artıq Azərbaycan Futzal Federasiyası yoxlama matçlarından imtinayla bağlı İran Futzal Federasiyasına xəbərdarlıq edib.

Azərbaycanın futzal millisi Avropa çempionatının seçmə mərhələsi çərçivəsində yanvarın 29-da Bakıda Slovakiya, fevralın 2-də isə Afinada Yunanıstan yığması ilə qarşılaşacaq.

Səhifəni hazırladı: Aygün İlqarqızı